Bu bir xalq qəzetidi
ƏDALƏT

## Ceyhun Bayramov: "Ermənistan öhdəliklərini yerinə yetirmir, sülhə mane olur"

**Xarici işlər naziri Ceyhun Bayramov Polşanın paytaxtı Varşava şəhərində Azərbaycanşünaslıq üzrə I Avropa Konfransı çərçivəsində "Bölgədə yeni reallıqlar: Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının və davamlı sülhün perspektivləri" mövzusunda tədbirdə avropalı diplomatları Ermənistanın təxribatları barədə məlumatlandırıb.**

Adalet.az xəbər verir ki, bu barədə XİN-dən bildirilib. Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzlərinin nümayəndələrinin qatıldığı tədbirdə C.Bayramov çıxış edib. O, Azərbaycanın xarici siyasət prioritetləri, Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar nəzərə alınmaqla bölgədə sülh və əmin-amanlığın təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib. Nazir, eyni zamanda Ermənistanla sülh gündəliyi üzrə təkliflər, aparılan danışıqlarda Azərbaycanın mövqeyi və yanaşması barədə iştirakçıları məlumatlandırıb. Azərbaycanın bölgədə apardığı bərpa və quruculuq işlərinin, kommunikasiyaların açılması istiqamətində fəaliyyətin bütün bölgənin rifahı üçün əhəmiyyətli olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, Azərbaycanın sülh gündəliyinin irəli aparılması istiqamətində səylərinə və təkliflərinə baxmayaraq, Ermənistanın 2020-ci il Üçtərəfli Bəyanatdan və Azərbaycan-Ermənistan liderləri arasında digər razılıqlardan irəli gələn öhdəliklərini yerinə yetirməməsi, normallaşma prosesinə və bölgədə davamlı sülhün bərqərar olmasına maneçilik törətdiyi bildirilib. Bölgədə davam edən mina təhdidləri və Ermənistan tərəfindən bu istiqamətdə həyata keçirilən təxribatlara diqqət yönəldilib.

## *MN: "RF-nın sülhməramlı kontingenti müraciətlərimizə hələ də etinasız yanaşır"*

**"Təəssüf edirik ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti müraciətlərimizə hələ də etinasız yanaşır".**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. "Azərbaycan Respublikası ərazisindəki yaşayış məntəqələrimizin adlarının uydurma erməni toponimləri ilə qeyd olunması, o cümlədən "Dağlıq Qarabağ ərazisi" ifadəsinin işlənməsinin yolverilməz olduğunu bir daha xatırladırıq. Yenə də Rusiya Federasiyasının sülhməramlı kontingentini rəsmi məlumatlarında qeyd etdiyimiz yanlış ifadələrdən istifadə etməməyə çağırırıq. Bir daha israrla bildiririk ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 30.11.2022-ci il tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazi Qarabağ iqtisadi rayonudur, "Mardakert" və "Martuni" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adları isə müvafiq olaraq AĞDƏRƏ və XOCAVƏNDDİR" - deyə, məlumatda vurğulanıb.

# PREZİDENT VƏ BİRİNCİ VİTSE-PREZİDENT ŞƏKİYƏ GETDİ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki rayonuna səfər ediblər.**

**Adalet.az xəbər verir ki, dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.**

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında da iştirak edib.**

***

**Sonra dövlət başçısı Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olub.**

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva həmçinin Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olublar.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 52 (5989) 3 dekabr 2022-ci il
Qiymәti 30 qəpik

## «Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamə siyasi riyakarlıqdır»

Bax:səh-3

## "Ədalət" qəzetinin əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu



**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

**"Ədalət" qəzetinin əməkdaşı Emin Əlizadə (Eminquey) "MEDİA - Fərdi jurnalist müsabiqəsi"nin "Ən yaxşı reportaj" nominasiyasının birincisi olub.**

**Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.**

# Bəyannaməni Ermənistan yox, Rusiya yerinə yetirmir

*10 noyabr Bəyannaməsində tərəflərin üzərinə şərtlər qoyulub. Və indi hamımız düşmüşük Ermənistanın üstünə ki, bəyannamənin şərtlərini yerinə yetirmir. Əslinə baxsaq görərik ki, bir-iki maddədən başqa Ermənistan üzərinə götürdüyü şərtləri yerinə yetirib. Açıq qalan dəhliz məsələsidi, kommunikasiya məsələsidi.*

*Deyə bilərsiz ki, şərtlərdən biri də o idi ki, Ermənistan öz Silahlı Qüvvələrini Qarabağdan çıxartsın, amma hələ çıxarmır. Əslində isə bu missiya Rusiya sulhməramlılarının üzərinə düşür, erməni silahlı birləşmələrinin ərazidən çıxarılması onların vəzifəsidi. Onlar isə öz üzərilərinə düşən vəzifələri yerinə yetirmək əvəzinə Ermənistanın Qarabağdakı Silahlı Qüvvələrinə təlimlər keçib, Laçın dəhlizindən gətirilən silah-sursata təchiz olunmasına göz yumur, öz missiyasını yerinə yetirmək əvəzinə Qarabağda ermənilərə nökərçilik edir, ev tikir, yol çəkir, kilsə tikir, day nə bilim nə qələt edir.*



Bax:səh-2

## *Ərdoğan:* "Zəngəzur dəhlizinin açılması Ağrı şəhərinin əhəmiyyətini artıracaq"



**"Zəngəzur dəhlizinin açılması Türkiyənin Ağrı şəhərinin əhəmiyyətini artıracaq".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ağrı-Hamur-Tutak-Patnos avtomobil yolunun açılışı mərasimində çıxışı zamanı deyib.

"Azərbaycanlı qardaşlarımızın torpaqlarının uzun illər işğal altında qalmasının səbəbi bəzi ölkələrin səssizliyidir", - dövlət başçısı qeyd edib. Ərdoğan həmçinin Zəngəzur dəhlizinin açılmasının Türkiyənin Ağrı şəhərinin əhəmiyyətini artıracağını söyləyib: "Əlbəttə, bunun üçün ölkəmizdə də sabitliyin olması vacibdir. Çünki terror problemi Türkiyənin mövcud resurslarından istifadə etməsinə mane olur".

## Media nümayəndələri üçün təlim keçirilib



**İqtisadiyyat Nazirliyi iqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Medianın İnkişafı Agentliyi ilə birgə təlimlərin keçirilməsini davam etdirir.**

Adalet.az xəbər verir ki, növbəti belə təlim Nazirliyin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən "Dördüncü Sənaye İnqilabı və Rəqəmsal İqtisadiyyat" mövzusunda keçirilib.

4SİM-in Rəqəmsal iqtisadiyyat şöbəsinin rəisi Cavid Abdullayev və Layihələrin idarəolunması şöbəsinin əməkdaşları Kənan İbrahimov və Ruslan Zeynalzadə 4SİM-in fəaliyyəti, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat, rəqəmsal iqtisadiyyatda insan kapitalı barədə təqdimatla çıxış ediblər.

Tədbirdə mövzularla bağlı müzakirələr aparılıb, media nümayəndələrinin sualları cavablandırılıb.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Media nümayəndələrinə sertifikatları İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Tamerlan Tağıyev və Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli təqdim ediblər.



*Vaqif BƏHMƏNLİ*

## DÜNYA SƏNİN, MƏMMƏD ARAZ...

**"Dünya sənin, dünya mənim,**
**dünya heç kimin..."**
**M.Araz**

*Fırfıratək fırlanana - "heç kimin",- dedin,*
*İçin sözdü, çölün sözdü, söz vətənindi.*
*Sözə xatir boğum bir az hirsimi,- dedim,*
*Tərsə çəkən tələbənəm, tərsini dedim:*
*Dünya sənin, Məmməd Araz,*
*dünya sənindi!*

*Yola aşiq olanların mənzildir sonu;*
*Daş-kəsəklər, sür-sümüklər yolötənindi.*
*İki qəlbi əkiz tutub tən bildim sonu,*
*Bağışla ki, şah şeirindən mən sildim sonu-*
*"Heç kim nədi", Məmməd Araz,*
*dünya sənindi!*

*Əli zərə yatmayanlar zər tutur-tutsun,*
*Oyunçu yox, odunçu çox, talançı mindi.*
*Əyrimçələr dik-dik gəzib sim udur-udsun,*
*Boğazında qalar loxma kim udur-udsun-*
*Udulmayan qaya dünya,*
*Məmməd, sənindi!*

*Titrək-titrək əsən külək titrəyən əlin,*
*Yarğan səbrin, çay gülüşün, duman-kinindi.*
*O nər gədik, o ərən dik, o qaya gəlin,*
*gül üstünə şeh adıyla daman sənindi,*
*Aləm sənin, Məmməd Araz,*
*dörd yan sənindi.*

*Ata kitab, ana tarla; sünbülü sözdü,*
*Al qanımda cücərənlər kəlmələrindi.*
*Fələyin sərt zərbəsinə kişitək dözdün,*
*Qalibiyyət axır dinib, son gülənindi-*
*Hünər sənin, Məmməd Araz,*
*zəfər sənindi!*

*İstəməzsən olanımdan daha çox, şair,*
*Sözə qurban vətən ətri verən tənimdi.*
*Cənnətdəsən, bəxtəvərsən, könlü tox şair;*
*Vətənin göz yaşı suyun, ahı dənindi -*
*Xoş halına, Məmməd Araz,*
*dünya sənindi!*

*01.11.2022.*

## DAHA BİR KOMANDA REGİONA KÖÇÜR

**Oxudum ki, Bakının "Səbail" klubu yeni ildən Şirvan şəhərinə köçəcək.**

Regionlarda klubların yaradılması təqdirəlayiqdir. Amma Bakıdan köçürülməklə istənilən nəticəni almaq olmaz. Tovuzda, Gəncədə olduğu kimi, regionlar öz komandalarını yaratmalıdırlar. Bakı komandaları oyun günləri, ya uzağı bir gün qabaq gedib regionda futbol oynamaqla futbolu inkişaf etdirmək olmaz. Regionlardakı on milyon manatlarla başa gəlmiş idman kompleksləri ağzı günə qılb. Hələ bu günədək heç bir Olimpiya Kompleksi Azərbaycan idmanına nə bir güləşçi, nə bir boksçu, nə bir ağırlıq qaldıran, nə bir üzgüçü və sair və ilaxır verməyib. Olimpiya kompleksləri ya otel kimi istifadə olunur, üzgüçülük hovuzları da axşamlar yeyib-içməkdən gəlmiş məmurların yorğunluğunu çıxarmaq üçün.

## İRAN TUMANBAĞINI GEC BAĞLADI



**ABŞ-la İranın oyununda təbii ki, mən qonşuların tərəfini saxlayırdım. Hər halda yaxın qonşu qohum da olmayan uzaqdan yaxşıdı.**

İran dövləti başqa, xalqı başqa. İran dövlətinin siyasətini bir azərbaycanlı kimi heç vaxt qəbul etməmişəm və etməyəcəm də. Ermənini dostu bizim dostumuz ola bilməz.

Deyə bilərsiniz ki, bəs niyə futbolda İranın tərəfini saxlayırsan?

Birincisi, mən Murad Yakına görə, İsveçrənin qələbəsini arzulayıram həmişə. İlkay Gündoğana görə də istəyirəm almanlar qalib gəlsin.

İndi İranın milli komandasında üç türk oynayır. Özdə gözəl futbolçulardı. Bundan başqa İranda qırx milyon Azərbaycan türkü yaşayır. İran qalib gəlsəydi, o qırx milyon Azərbaycan türkü də sevinəcəkdi.

Necə ki, mən bir İlkay Gündoğana görə, Almaniyanın qələbəsini arzulayıram. İndi görün, qırx milyon Azərbaycan türkü İranın qələbəsinə nə qədər sevinir.

Təəssüf ki, uşaqlar özlərini öldürsələr də, xüsusilə ikinci hissədə məşqçinin günahı ucbatından oyunları alınmadı. Pərakəndəlik yıxdı evlərini.

Təəssüf edirəm.

İnanmadıqları Allah İran dövlətini haqq yola, islam yoluna döndərsin. İnanmadıqları Allah İran dövlətini oturub durduqları yezid və şümürlərdən uzaq eləsin. Erməni ilə dost olan axırda erməninin gününə qalacaq.

**Nə isə...**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## Ə, bayıssı göyçək, qoy biz də oynayax dana



*Argentina ilə Polşanın oyununa baxanda yadıma Füzulidən olan məşhur söz ustası Poçtalyon Qadirin bir hadisəsi düşdü. Bu adam duz idi başdan-ayağa, yeri behişt olsun. Seyran Səxavətin də yaxın dostudu. Mənlə də münasibəti yaxşı idi. Hərdən xeyirdə, şərdə dərdləşərdik.*

*Cavan yaşlarında futbolçu olmuşdu. Bir ara Ağdamın "Qarabağ" komandasında da oynamışdı.*

*Deməli belə. Füzuli komandası başqa bir rayona yarışa gedir. Qadir danışırdı ki, birinci katib futbolçuları yığıb kabinetinə və deyib ki, əgər uduzub gəlsəz, sizin hamınızın var-yoxunu ...*

*Futbolçular dilxor yola düşürlər həmin rayona. Oyun başlayır.*

*- Müəllim, onnarın bir 9 nömrəsi vardı, Banişevski onun yanında yalanıydı. Köpəyoğlu bizə göz açmağa imkan vermir. Elə bil od-yalodu. Yaxınlaşdım bunun yanına, dedim, ə, bayıssı göyçək, qoy biz də oynayax dana. O da çöndü mənə elə bir yumrux vurdu ki, ürəyim getdi, yıxıldım yerə. Sudya da bilmədi məni niyə vuruf. Ona qırmızı kart çıxartdı. 9 nömrəni meydandan qovdular.*

Bax:səh-3



**ALMANLARIN BAŞI RUSİYA-UKRAYNA MÜHARİBƏSİNƏ QARIŞDIĞINDAN FUTBOL OYNAMAĞI YADDAN ÇIXARIBLAR.**

# Prezident İlham Əliyev Oğuz rayonuna səfər edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna səfər edib.**

Trend xəbər verir ki, dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına kiçik su elektrik stansiyaları haqqında məlumat verdi.Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, azalmaqda olan su ehtiyatlarından səmərəli istifadə, təbii qaza qənaət, ətraf mühitin qorunması və "yaşıl enerji"nin prioritet istiqamət seçilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tələblərə uyğun olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Oğuz rayonunun Daşağıl çayı üzərində 5 kilometr məsafədə kaskad üsulla 3 yerdə ümumi gücü 3,6 meqavat olan kiçik su elektrik stansiyasından ibarət hidroqovşaq yaradılıb, bu stansiyalarda ümumilikdə 8 hidroaqreqat quraşdırılıb. Baş Daşağıl kəndində hər üç stansiyanın mənbəyi olaraq suqəbuledici və sel sularının ötürülməsi üçün sutullayıcı qurğu inşa edilib. Bu qurğunun yaradılması "yaşıl enerji"nin istehsalı ilə yanaşı, rayonun su təchizatına da töhfəsini verib. Qeyd edildi ki, pilləli üsulla tikilən üç kiçik su elektrik stansiyasında il ərzində 15 milyon kilovat-saatadək elektrik enerjisinin alınması mümkündür. Əhalisi 44 min nəfər olan Oğuz rayonunun enerji tələbatı 5-6 meqavat təşkil edir ki, mövsümi olaraq onun yarı hissəsini məhz bu elektrik stansiyaları qarşılaya biləcək. Ekoloji cəhətdən daha təmiz və qənaətli enerji istehsal edəcək "Oğuz" kiçik su elektrik stansiyaları silsiləsinin istismara verilməsi regionda yeni iş yerlərinin açılması ilə yanaşı, "yaşıl enerji" nisbətinin bir qədər də yüksəlməsinə səbəb olub. Məlumat verildi ki, hər üç elektrik stansiyası rəqəmsal qaydada "Azərenerji"nin SCADA dispetçer sisteminə qoşulacaq Azərbaycanın ümumi enerji sisteminə inteqrasiya ediləcək.

Dövlətimizin başçısı elektrik stansiyalarını işə saldı.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin "yaşıl enerji" strategiyasına uyğun olaraq son 2 ildə ölkəmizin istər işğaldan azad edilən, istərsə də digər ərazilərində ümumi gücü 50 meqavatdan artıq olan 14 kiçik su elektrik stansiyası yaradılıb və yaradılmaqdadır.

***

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov dövlətimizin başçısına məlumat verdi ki, ərazisi 0,4 hektar, ümumi sahəsi 3013 kvadratmetr olan bağçada 32 otaq vardır. Binada 5 qrup otağı, həkim bölməsi, musiqi zalı, yeməkxana, mətbəx, gimnastika, kompüter, metodist və yardımçı otaqlar yaradılıb. Qeyd edildi ki, bina müasir avadanlıqlar, inventar və mebel dəstləri, videomüşahidə, yanğın əleyhinə təhlükəsizlik, eyni zamanda, mərkəzləşdirilmiş istilik sistemləri ilə təchiz olunub. Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri görülüb, müasir işıqlandırma sistemi yaradılıb və uşaqlar üçün 5 ədəd söhbətgah quraşdırılıb. Prezident İlham Əliyev qrup otaqları, oyun zalı, yeməkxana və həyətyanı sahədə yaradılmış şəraitlə tanış oldu.

***

**Prezident İlham Əliyev Oğuz rayonunda "Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə tanış olub.**

"Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Aqroparkın fəaliyyəti barədə məlumat verdi.

Qeyd edildi ki, Şəki rayonunun ərazisində 9700 hektar və Oğuz rayonunun ərazisində 1300 hektar olmaqla, ümumilikdə 11 min hektar sahədə yaradılmış Aqropark bağçılıq və əkinçilik üzrə fəaliyyət göstərir. Burada əsasən qoz, badam və zeytun bağları salınır və taxıl bitkiləri əkilir. Layihənin ümumi dəyəri 30 milyon manatdır. Zəruri infrastrukturun yaradılmasına 67,8 milyon manat dövlət əsaslı vəsaiti yönəldilib.

Bildirildi ki, 2017-ci ildən başlayaraq "Aqroinkişaf 2017" MMC tərəfindən Azərbaycanda sənaye üsulu ilə qoz istehsalını həyata keçirmək üçün ABŞ-ın fermer təsərrüfatlarının və Avstraliyanın "Webster" şirkətinin təcrübəsi əsas götürülüb. Aqroparkda 2 min hektar ərazidə damcı suvarma sistemi qurulub, 3 meteostansiya, ofis binaları, fitolaboratoriya, ting istehsalı üçün soyuducu kameralar, mexanizasiya sahələri və anbarlar tikilib.

Prezident İlham Əliyevə Aqroparkda yetişdirilən məhsullar təqdim olundu. Diqqətə çatdırıldı ki, ərazidə min hektarlıq badam bağının salınması işlərinə başlanılıb. Hazırda 4 badam növü üzrə 160 hektar bağ salınıb və onun ilin sonunadək 300 hektara çatdırılması nəzərdə tutulub. Bu il ilk dəfə olaraq "AzBadam" şirkətinə 1,2 ton məhsul satılıb. Hazırda 2 zeytun növü üzrə 225 hektardan çox zeytun bağları salınıb və onun 300 hektara çatdırılması nəzərdə tutulub. "Zirə Zeytun" şirkətinə ilk olaraq 2,6 ton zeytun satılıb. Burada kiçikhəcmli zeytun yağı emalı sahəsinin yaradılması nəzərdə tutulub. Məlumat verildi ki, 9 min hektar sahədə yüksəkkeyfiyyətli buğda istehsalı təşkil edilib, 30 min tonluq silos qurğuları tikilib və lazımi infrastruktur qurulub. Görülən aqrotexniki tədbirlər nəticəsində hektardan orta məhsuldarlıq 1,5 ton, ayrı-ayrı hallarda 4 ton təşkil edib. Təsərrüfatı yüksəkkeyfiyyətli toxumla təmin etmək üçün ildə 2 min tona yaxın toxum yetişdirilərək emal olunur. Hazırda 160 nəfər daimi və 200 nəfər mövsümi iş yerlərinə cəlb edilib. Təsərrüfat GPS qurğuları quraşdırılmış 31 traktor, 4 kombayn, müasir tipli 4 çiləyici, 55 müxtəlif qoşqu və avadanlıqlarla təmin olunub.

Dövlətimizin başçısı Aqroparkın ərazisində ağac əkdi.

***

**Prezident İlham Əliyev Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyub.**

"Aqroinkişaf 2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlətimizin başçısına zavodun layihəsi barədə məlumat verdi. Bildirildi ki, əldə olunmuş məhsulun beynəlxalq standartlara uyğun şəkildə satışını təşkil etmək məqsədilə qozun yuma, qurutma, çeşidlənmə və qablaşdırma zavodu ABŞ şirkəti ilə birgə layihələndirilib və avadanlıqla təchiz edilməsi üçün müqavilə bağlanıb. İki istehsal xətti yaradılacaq zavodun tikintisi üçün 4 hektar ərazi ayrılıb.

Qeyd edildi ki, ümumilikdə 2 min hektar bağdan ilkin olaraq 10 min ton qoz istehsal edilməsi nəzərdə tutulub. Eyni zamanda, qoz növləri üzrə tingçilik təsərrüfatı yaradılıb. Məhsulların yığılma və qurudulma vaxtı 40 gündür. Qoz məhsulunun qurudulması üçün nəzərdə tutulmuş 80 metal qutunun həcmi 400 tondur. Məlumat verildi ki, zavodda ilkin olaraq 40 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyev yeni zavodun təməlini qoydu.

# İlham Əliyev: "Azərbaycan qonşularla sülh və dostluq münasibətlərinin qurulmasını istəyir"

**Prezident İlham Əliyevin 25 noyabr tarixində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirak edib. Prezident konfransda çıxışı zamanı bildirib ki, Orta Dəhliz kimi irimiqyaslı layihəni icra etmək üçün təhlükəsizlik və iqtisadi bacarıq məsələləri müzakirə olunmalıdır. Təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq.**

"İstənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da, daxili siyasətimiz sayəsində əmələ gəlmişdir".

İlham Əliyev çıxışızamanı qeyd edib ki, "Güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və siyasətimizin proqnozlaşdırılması mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb. Buna görə siyasi sabitlik, təhlükəsizlik, iqtisadiyyat - bütün bu amillər çox vacibdir. Bununla yanaşı, Orta Dəhlizin bir hissəsi olan hər bir ölkənin daxildə etdikləri də vacibdir".

Azərbaycan infrastrukturun inkişafına uzun illər ərzində sərmayə yatırdığını bildirən Prezident İlham Əliyev konfrans iştirakçılarına bu günədək görülən və görüləcək işlər barədə məlumat vedib: "İndi dəmir yolları əlaqələrimizə, yol infrastrukturumuza baxdıqda biz Azərbaycanda hər şeyin hazır olduğunu görürük. Beş il bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışını etdik. İndi isə ölkəmizdən keçən artan yük həcmlərini gördükdə biz Bakı-Tbilisi-Qarsın Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırmağa başladıq. Bu layihə ölkəmizə 100 milyon ABŞ dollarından daha baha başa gələcək və biz bu layihəni bir il və ya ola bilsin, bir il yarım müddətində bitirməyi planlaşdırırıq.

Şimal-Cənub dəhlizi kimi digər nəqliyyat layihələri Şərq-Qərb dəhlizinə sinerji əlavə edəcək. Azərbaycan hər iki dəhlizin iştirakçısıdır və Azərbaycanda bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturu hazırdır. İndi Azərbaycan qatarların, yük qatarlarının sürətini artırmaq üçün yeni dəmir yolları tikir.

Xəzər dənizinin şərq sahillərindən yükləri Azərbaycan ərazisindən nəql etmək üçün yeni tankerlər, bərələr və yük gəmiləri lazımdır. Bakıda gəmi infrastrukturu və yeni gəmiqayırma zavodlarının olması ölkəmizin mövcud istiqamətdəki potensialını artırır.

Artıq fəaliyyət göstərən nəqliyyat marşrutları Xəzər regionunun bütün ölkələrinin daha da inteqrasiya olunmasına imkan verəcək. Bu gün ölkəmiz Türkmənistandan daxil olan yüklərə vacib tranzit imkanı yaradır. Hətta Bakı Beynəlxalq DənizTicarət Limanında Türkmənistandan olan yüklər üçün xüsusi yer ayrılıb. Türkmən qazı ilə bağlı svop əməliyyatlarıbaşlanıb.

İki ildən az müddət bundan əvvəl Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməritamamlanıb. Lakin artıq bu gün biz həcmin iki dəfə - 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılmasına tələbatı görürük. Bunun üçün bütün pay sahiblərinin konsolidasiya olunmuş mövqeyi və sərmayəsi lazım olacaq.

Türkiyə ilə dövri əsaslarla bir il ərzində 10-dan artıq birgə hərbi təlimlər olub. Müdafiə infrastrukturuna sərmayələr, ümumi təşəbbüslər, birgə hərbi təlimlər göz qabağındadır. Onlar həm Türkiyədə, həm də Azərbaycanda təşkil olunub. Bu, regional sabitliyin və təhlükəsizliyimizin mühüm meyarıdır. Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil, orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var. Sərhədimizdə təxribatları planlaşdıranlar, bizi qorxutmağa çalışanlar bu planlarını yaddan çıxarmalıdırlar.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda müəyyən illüziya yaranıb ki, onlar bizimlə Qarabağla bağlı danışmağa davam edəcəklər. Buqətiyyən mümkün deyil. Biz heç bir ölkə ilə, heç bir beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Qarabağ münaqişəsi həll olunub, bu bizim ərazimizdir, hamı tərəfindən tanınır və bizim daxili işimizdir.

Belə bir şəraitdə Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz. Onları bu formatdan kənarlaşdıran biz yox, özləri oldu. Çünki nə Rusiya, nə də Amerika, keçmiş Minsk qrupunun hansısa həmsədri heç vaxt rəsmən, yəni müharibədən sonrakı dövrdə tərəf tutmayıb, yalnız Fransa tutub.



Azərbaycan diplomatiyasının uğuru. İstər Moskvada, istər Soçidə və ya Brüsseldə qəbul edilən bütün sənədlərdə Qarabağa istinad edilmir.

Rəsmi İrəvanın hiylə siyasəti. Ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib.

Azərbaycan, Ermənistan, Gürcüstan, Cənubi Qafqaz və Türkiyə, İran, Rusiyanı nəzərdə tutan 3+3 formatı. Müharibədən sonrakı vəziyyət Ağdamda Türkiyə və Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılmasına gətirib çıxarsa da, bu, regionun bu iki dövlətinin gələcək regional konfiqurasiyada rol oynayacağı anlamına gəlirdi. İkinci Qarabağ müharibəsi zamanı və bu müharibədən sonra biz İran təmsilçilərinin heç bir fəaliyyətini görmədik. Biz, sadəcə olaraq, inklüziv ssenarinin lazım olduğunu bildirdik, ona görə də İran və Gürcüstan da dəvət olundu. Gürcüstanın tərəddüdləri var. İran bunu dəstəklədiyini bildirib və biz bunu yaxşı əlamət hesab edərək düşünürdük ki, nəhayət bir araya gələrək dəhlizlər də daxil olmaqla, mühüm məsələləri həll edəcəyik.

Zəngəzur dəhlizini təşviq etməyə başlayanda Rusiya-Ukrayna müharibəsi hələ başlamamışdı və Çindən Avropaya ənənəvi marşrutlar vasitəsilə tranzit yolları bağlanmamışdı. İndi isə vəziyyət başqadır və Xəzərdən, eləcə də Zəngəzurdan keçən marşrutlar xüsusi əhəmiyyət kəsb edir. Bu dəmir yolunun bir qolu Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Culfa şəhəri vasitəsilə İrana daxil olacaq. Ermənistan da buraya daxil olacaq. Beləliklə, Ermənistan İranla onun arasında olmayan və heç vaxt da olmayacaq dəmir yolu əlaqəsinə malik olacaq.

Ermənistanın İranla dəmir yolu əlaqəsi qurmağının yeganə yolu Azərbaycandan keçir. Çünki Ermənistan-İran sərhədinin coğrafiyası və tunellərin tikilməsi zərurəti bu dəmir yolunun dəyərini minimum 3-5 milyard dollar edəcək. Ermənistanın Rusiya ilə dəmir yolu əlaqəsi qurmağının yeganə yolu bizdən keçir. Çünki separatçı Abxaziyadan keçən ənənəvi marşrut bağlanıb, Gürcüstan hökuməti onu açmaq istəmir.

İndi İranla Azərbaycan arasında baş verənlər bizim tərəfimizdən yaranmayıb. İşğal dövründə İran hərbi qüvvələri Azərbaycanın işğal olunmuş ərazisi ilə sərhəd olan ərazidə heç vaxt hərbi təlim keçirməyib. Azərbaycan sərhədinin 132 kilometri işğal altında olub və bu, Azərbaycanla İranın sərhədidir.İran rəsmiləri, o cümlədən çox yüksəkvəzifəli şəxslər Ermənistanın ərazi bütövlüyünün İran üçün qırmızı xətt olduğunu bildirirlər.

İranda yaşayan azərbaycanlılar bizim millətin bir parçasıdır.Biz öz həyat tərzimizi, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların dünyəvi inkişafını təmin etmək üçün hər şeyi edəcəyik.

Hər bir azərbaycanlının öz doğma dilində təhsil almaq hüququ vardır. Azərbaycanda 340 məktəbdə tədris rus dilində aparılır. Azərbaycanda 10 gürcü məktəbi var. Gürcüstanda 200-300 minə yaxın azərbaycanlı yaşasa da, burada 116 Azərbaycan məktəbi vardır. İranda erməni məktəbləri var, ancaq Azərbaycan məktəbləri yoxdur.

Azərbaycan bütün qonşularla sülh və dostluq münasibətlərinin qurulmasını istəyir. Azərbaycan həmişə öz ləyaqətini, müstəqilliyini, həyat tərzini müdafiə edəcək və heç bir xarici aktora öz standartlarını və iradəsini hökumətimizə və xalqımıza tətbiq etməyə imkan verməyəcək.

Erməni cəmiyyəti diaspor və erməni millətçilərinin on illər ərzində davam edən təbliğatı nəticəsində zəhərlənmişdir. Onların azərbaycanlılara qarşı törətdiyi dəhşətli hərəkətlərin, bizim şəhərlərimizi nəyə görə məhv etdiklərininsəbəblərindən biri də bu idi. Onların beyni diaspor tərəfindən yuyulmuşdur.

İki məsələ paralel inkişaf etməlidir - Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması. Ermənistan öz təhsil paradiqmasını tamamilə dəyişməlidir. Onlar öz ideoloji əsaslarını dəyişməlidirlər.

Azərbaycan ədalətli sülh istəyir. Biz istəyirik onlar başa düşsünlər ki, onlar Qarabağ erməniləri ilə bağlı heç nə deyə bilməzlər və onların Qarabağ erməniləri ilə heç bir əlaqəsi yoxdur. Biz Zəngəzur dəhlizini istəyirik və biz tarixi xəritələr əsasında sərhədlərin delimitasiya olunmasını istəyirik.

Din dövlətdən ayrı olmalıdır. Azərbaycanda biz hamımız müsəlmanıq. Həmçinin xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri var. Lakin din siyasi həyata müdaxilə etməməlidir. Bizim bu coğrafiyada müstəqil ölkə kimi üstünlüklərimizdən və nailiyyətlərimizdən biri odur ki, biz, eyni zamanda, bütün vətəndaşlarımızın dini hisslərinə tam hörmət etməklə cəmiyyətimizin dünyəvi mahiyyətini gücləndirməyə nail olmuşuq.

Müsəlman dünyasını parçalamaq istəyənlər bütün müsəlmanlara böyük ziyan vururlar. Azərbaycanda müsəlmanların dininin hansı təriqətinə aid olmalarından - şiə və sünni olmalarından asılı olmayaraq müsəlmanlar arasında tam birlik var.Bizdə məsciddə vəhdət namazı qılınması ilə bağlı nadir təcrübə var ki, sünnilər və şiələr birlikdə ibadət edirlər.

Azərbaycan Türkiyə və İsrail arasında münasibətlərin normallaşmasında rol oynayıb. Biz bunu borcumuzun bir hissəsi hesab edirik. Çünki əgər belə əlaqələrimiz varsa, biz dostlarımızın öz aralarında dost olmağını istəyirik. Bu, həqiqətən də təhlükəsizliyi, sabitliyi gücləndirmək və iqtisadi faydaları artırmaq üçün əlavə imkanlar yaradır. İndi Avrasiya regionunun daha böyük hissəsində siyasi əməkdaşlıq formatları konfiqurasiyasının müsbət məcrada getdiyini görürük.

İkinci Qarabağ müharibəsi zamanı təxminən 3 min şəhid verdik. Onların arasında Azərbaycanda yaşayan bütün etnik qrupların nümayəndələri var idi. Bu, etnik mənsubiyyətindən asılı olmayaraq, Vətən torpağı uğrunda şərəf mübarizəsi idi.

Ermənilər dinc şəhərləri, o cümlədən Gəncəni atəşə tuturdular. Münaqişənin getdiyi yerdən xeyli uzaqda yerləşən ondan çox şəhər ballistik raketlərlə atəşə tutuldu. "SKAD", "Elbrus" və hətta "İsgəndər" raketlərindən istifadə etdilər. Özü də "İsgəndər-M" raketi onlarda heç cür ola bilməzdi. Bu, yalnız Rusiyanın silahlı qüvvələri tərəfindən istifadə edilən raketdir. Şuşada aşkar etdiyimiz və hazırda Bakının Hərbi Qənimətlər Parkında nümayiş etdirilən raket "İsgəndər-M"dir. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır və hərbi cinayətdir.

Gürcüstan bizim strateji tərəfdaşımızdır. Gürcüstanla münasibətlərimiz bizim üçün və gürcü dostlarımız üçün strateji əhəmiyyət kəsb edir. Enerji və daşımalar layihələri sahəsində yeni imkanları nəzərə alaraq, birgə əməkdaşlığımızınçox yaxşı nəticələri var. Azərbaycan və Gürcüstan üçün əməkdaşlıq coğrafiyasını, Qara dəniz-Xəzər dənizi əlaqəsini, Mərkəzi Asiya-Avropa əlaqəsini nəzərə alaraq, layihələrin icrasında Ermənistansız da keçinmək mümkündür.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında əvvəlki illərlə müqayisədə daha fəal dialoqun şahidiyik. Sonuncu Zirvə Toplantısıbunun bariz təzahürü idi. Türk dövlətləri arasında əməkdaşlıq Orta Dəhliz layihəsinə əsas töhfə olacaqdır. Çünki coğrafiyaya nəzər saldıqda Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Xəzər dənizinin bu sahilində Azərbaycan, Gürcüstan və Türkiyənin olması əlavə imkanlar yaradır.

Azərbaycan ilə İtaliya arasında yaxın tərəfdaşlığın növbəti əlaməti. İtaliya Avropa İttifaqının 9 üzvündən biridir ki, Azərbaycan onunla Strateji Tərəfdaşlıq Bəyannaməsi imzalayıb. Strateji tərəfdaşlığın gündəliyiartır və genişlənir. İtaliya-Azərbaycan Universitetinin yeni binasının tikintisinin maliyyələşdirilməsi nəzərdə tutulub.

Azərbaycanın ixrac qazının həcminin artırılmasına tələbat var. Həcmin artırılması üçün TAP boru kəmərinin imkanlarının genişləndirilməsi zəruridir. Nəzərə alsaq ki, Azərbaycanın TAP layihəsindəki payı cəmi 20 faizdir, biz bu işi təkbaşına yerinə yetirə bilmərik.

Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Azərbaycan ondan çox Avropa ölkəsindən sifarişlər alıb. Bu sifarişlərdə ya mövcud təchizat həcmini artırmaq, ya da yeni qaz həcmlərini təmin etmək xahiş olunur.Eyni zamanda, ölkəmiz ixracın coğrafiyasını genişləndirməyiplanlaşdırır. Azərbaycan interkonnektorların tikintisi ilə bağlı Avropadan daxil olan təşəbbüsləri tam surətdə dəstəkləyir.

Avropa ölkələrinin qaz təchizatı ilə bağlı önəmli layihələr. Bolqarıstan və Serbiyanı birləşdirən digər interkonnektor isə gələn ilin sonunda hazır olacaqdır. Hazırda biz Albaniya hökuməti ilə bu ölkənin qazpaylayıcı şəbəkəsinə sərmayə qoyuluşları barədə müzakirələr aparırıq. Albaniyada belə şəbəkə mövcud deyil, çünki Albaniya yalnız tranzit ölkəsidir. Lakin onların da yerli tələbatı təmin etmək üçün qaza ehtiyacı vardır. Digər bir layihə də İon-Adriatik qaz boru kəməri layihəsidir ki, üç Balkan ölkəsini əhatə edir. Lakin bu layihəni həyata keçirmək üçün onda maraqlı olan hər kəs gözləyir ki, Avropa İttifaqı müvafiq addımlar atacaq və layihə ilə bağlı öz mövqeyini bildirəcək. Azərbaycan, həmçinin Avropaya elektrik enerjisi təchizatının həcmini artırmağı planlaşdırır".

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# MEDİA Agentliyi ilə Azərbaycan Dillər Universiteti arasında görüş keçirilib

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla arasında görüş keçirilib.**



Agentlikdən Adalet.az-a bildirilib ki, görüş zamanı Əhməd İsmayılov tədris prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və yeni media mühitinin tələblərinə cavab verən kadr potensialının artırılmasının önəmini vurğulayıb, ali təhsil müəssisələri ilə media sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib. Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla media sahəsində islahatlar prosesinin geniş vüsət aldığını qeyd edərək əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əminliyini ifadə edib, qarşılıqlı inkişaf perspektivləri barədə fikirlərini diqqətə çatdırıb.

Universitetin tələbə və müəllim heyətinin iştirak etdiyi görüşdə Medianın İnkişafı Agentliyinin Layihələr şöbəsinin müdiri Ləman İsgəndərova "MEDİA Lab" layihəsinin təqdimatını edib, layihənin təşkili mexanizmləri müzakirə olunub.

*Aqil ABBAS*

# Bəyannaməni Ermənistan yox, Rusiya yerinə yetirmir

*10 noyabr Bəyannaməsində tərəflərin üzərinə şərtlər qoyulub. Və indi hamımız düşmüşük Ermənistanın üstünə ki, bəyannamənin şərtlərini yerinə yetirmir. Əslinə baxsaq görərik ki, bir-iki maddədən başqa Ermənistan üzərinə götürdüyü şərtləri yerinə yetirib. Açıq qalan dəhliz məsələsidi, kommunikasiya məsələsidi.*

*Deyə bilərsiz ki, şərtlərdən biri də o idi ki, Ermənistan öz Silahlı Qüvvələrini Qarabağdan çıxartsın, amma hələ çıxarmır. Əslində isə bu missiya Rusiya sulhməramlılarının üzərinə düşür, erməni silahlı birləşmələrinin ərazidən çıxarılması onların vəzifəsidi. Onlar isə öz üzərilərinə düşən vəzifələri yerinə yetirmək əvəzinə Ermənistanın Qarabağdakı Silahlı Qüvvələrinə təlimlər keçib, Laçın dəhlizindən gətirilən silah-sursata təchiz olunmasına göz yumur, öz missiyasını yerinə yetirmək əvəzinə Qarabağda ermənilərə nökərçilik edir, ev tikir, yol çəkir, kilsə tikir, day nə bilim nə qələt edir.*

*Maddələrdən biri o idi ki, qaçqınlar öz doğma yurd-yuvalarına qayıtsınlar. Bugünədək hələ bir azərbaycanlı qaçqın da öz doğma yurd-yuvasına qayıda bilmir. Amma sülhməramlılar qaçqın olmayan erməniləri də Ermənistandan maşın-maşın Qarabağa daşıyır.*

*Ağdamdan Şuşaya 37 km yol hələ də bağlıdır. Məcbur olub Fizulidən Şuşaya 85 km yol çəkmişik. Əslində isə sülhməramlılar şərait yaratmalı idilər, onların müşayiəti ilə Şuşa yolu istifadə olunmalı idi. Eləcə də Ağdərə-Kəlbəcər yolu. Hərdənbir bir-iki yük maşını buraxırdılar, o da Qarabağdakı erməni milislərin yekə-yekə yoxlamasından sonra. Bu vəzifə sülhməramlılarının üzərinə düşür, Qarabağdakı erməni milislərin yox. Yenə də məcbur olub Toğanadan Kəlbəcərə gediş-gəliş çətin olan yol çəkirik, tunellər çəkirik. Və bu yolda baş verən qəzalardan da xəbərimiz var. İndi də qış düşüb, gediş-gəliş lap çətinləşib. Qışın qarında-qiyamatında bu yoldan istifadə təhlükəlidir. Bəyannamənin şərtlərinə görə, Kəlbəcər, Laçın və Ağdam rayonları tam azad olunmalıdı. Amma bu şərt də yerinə yetirilməyib. Ağdamın da, Laçının da, Kəlbəcərin də bir çox kəndləri sülhməramlıların nəzarəti altındadır və bizləri ora buraxmırlar.*

*Kəlbəcər necə azad olunub ki, Azərbaycanın Aşıq poeziyasının klassiki, görkəmli aşıq və şair Dədə Şəmşirin doğulduğu və son məskəni olduğu Ağdaban kəndi hələ də işğal altındadır.*

*Demək olar ki, son zamanlar hər gün Qarabağdakı erməni silahlı qüvvələri Ağdamı, Şuşanı, Füzulini atəşə tutur. Sülhməramlılar isə yalnız müşayiət edir. Hələ bilmək olmaz, bəlkə mərmiləri də, silahları da elə sülhməramlılar özləri verirlər.*

*İçi mən qarışıq yazırıq ki, sülhməramlıların komutanı, adı da yadımdan çıxdı. Putin eşitmir. Yəni Putinin qol çəkdiyi bəyannaməyə əməl etmir. Boş söhbətdi. Putin eşitməsə, Çar baba dartıb o generalın xayalarını çıxardıb özünə yedizdirər.*

*Qarabağda nə baş verirsə, bütün məsuliyyəti şəxsən Putin daşıyır. Üzdə bir cür, arxada başqa cür hərəkət edir. Belə olmasa Vardanyanı ora göndərməzdi və müəyyən səlahiyyətlər verməzdi. Arayik kimdir ki, Vardanyana səlahiyyət verə?! Arayik də Moskvanın, Putinin əmrlərini icra edən bir adamdı.*

*Qarabağda dişə vurmağa bir rus yaşamayıb. Amma indi Qarabağda rus icmaları yaranıb. Ruslar üçün kilsə tikilir, qəsəbə salınır, erməni qızları ilə rus əsgərlərinin toyları təşkil olunur və sair və ilaxır. At gəldi örkən apardı, it gəldi çarıx. İstədim yazım ki, rus gəldi örkən apardı, erməni gəldi çarıx. Qorxdum, yazmadım ki, birdən Qarabağdakı sülhməramlıların xoşuna gəlməz. Mən də tez-tez Ağdama gedirəm, tapşırarlar ki, onu bu şəhərə buraxmayın.*

*Rusiya planlı şəkildə Qarabağı 1988-ci ilə qaytarıb. Əvvəl mitinqlər, sonra müharibə. O vaxt komutan Volski idi, indi isə, hə, adı yadıma düşdü, general Volkovdu.*

*Ümid yenə qalır Ali Baş Komandan İlham Əliyevə, onun dəmir yumruğuna və Azərbaycan əsgərinə.*

*Tanrı Azərbaycan əsgərini qorusun!*

*Tanrı Ali Baş Komandanı qorusun!*

# QÜDRƏT HƏSƏNQULİYEVİN TƏKLİFİN NİYƏ SÜNGÜ İLƏ QARŞILAYIRLAR?!

**Bütöv Azərbaycan Xalq Cəbhəsinin sədri, millət vəkili Qüdrət Həsənquliyev parlamentdə respublikamızın Şimali Azərbaycan adlandırılması ilə bağlı təklif irəli sürdü. Uzun zamandır Qüdrət müəllim bu məsələni qaldırır. Və təbii ki, öz arqumentləri ilə.**

**Bununla bağlı bu gün azı 7-8 sayt zəng edib münasibətimi öyrənmək istəyib. Makedoniyanı məcbur elədilər ki, adını dəyişib Şimali Makedoniya qoysun. Təbii ki, bizi heç kəs məcbur edə bilməz. Xoş bir təklifdir də, Qüdrət müəllim deyib.**

**Əvvəla, lazım olsa 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini quranda respublikanı Şimali Azərbaycan Xalq Cümhuriyyəti adlandırardılar. Düzmü ediblər, səhvmi ediblər, onu deyə bilmərəm.**



**Son bir əsrdə dörd dəfə əlifbasını dəyişən, üç dəfə adını dəyişən bir millətik. Yəni ad dəyişməyə öyrəncəliyik.**

**Heç "Quran" ayələrinə əməl etmirik. Qüdrət müəllimin dediyi də heç "Quran" ayəsi deyil. Amma süngü ilə də qarşılamaq lazım deyil.**

**Yadıma dəfələrlə yazdığım bir hadisə düşdü. Qoy yenə də yazım.**

**Laçına Mərkəzi Komitədən məsul bir şəxs gəlir. Rəhmətlik Muradxan Cabbarov onu uzaq kəndlərin birinə aparır, camaatı da yığıb deyir ki, bu yoldaş Mərkəzi Komitədən gəlib. Sizin problemləri həll edəcək. Nə təklifiniz var, söyləyin.**

**Hərə bir təklif söyləyir, Bakıdan gələn yoldaş da dəftərçəsinə qeyd edir. Axırda Məmməd kişi deyir:**

**- Yoldaş Cabbarov, mənim də bir təklifim var. Bizim kənddə məktəb yoxdu, uşaqlar iki kilometrlikdəki qonşu kəndə gedirlər. Bunun qışı var, palçığı var, yağışı var, çox əziyyət çəkirlər. Xahiş edirəm, o kəndə gedən yolun üstündə naves qursunlar, uşaqlar əziyyət çəkməsin.**

**Cabbarov hirslənir:**

**- Məmməd kişi, ağsaqqal adamsan, elə bir təklif ver ki, onu eləmək mümkün olsun də. İki kilometr naves tikmək olar?!**

**Məmməd kişi:**

**- Guya o biri təklifləri yerinə yetirəcəksiniz ki?! Dedim birini də mən deyim, deməsinlər ki, Məmməd kişi təklif vermədi.**

**İndi Qüdrət Həsənquliyev parlamentdə o qədər problem qaldırır ki. Onları həll ediblər ki, bu təklifi də həll edələr. Ona görə də hirslənməyin.**

# Odessada partlayış: ölənlər var

**Ukraynanın Odessa şəhərinin küçələrindən birində qumbara partladılıb. Bu barədə Teleqram kanallarında məlumat yayılıb.**

Yerli sakinlər qumbara partlayışı nəticəsində ölənlərin olduğunu bildiriblər. Qumbaranı partladan şəxsin isə saxlanıldığı məlumatı verilib.Hadisə ilə bağlı hələlik rəsmi açıqlama verilməyib.

Aqil ABBAS

# Ə, bayıssı göyçək, qoy biz də oynayax dana

*Argentina ilə Polşanın oyununa baxanda yadıma Füzulidən olan məşhur söz ustası Poçtalyon Qadirin bir hadisəsi düşdü. Bu adam duz idi başdan-ayağa, yeri behişt olsun. Seyran Səxavətin də yaxın dostudu. Mənlə də münasibəti yaxşı idi. Hərdən xeyirdə, şərdə dərdləşərdik.*

*Cavan yaşlarında futbolçu olmuşdu. Bir ara Ağdamın ”Qarabağ” komandasında da oynamışdı.*

*Deməli belə. Füzuli komandası başqa bir rayona yarışa gedir. Qadir danışırdı ki, birinci katib futbolçuları yığıb kabinetinə və deyib ki, əgər uduzub gəlsəz, sizin hamınızın var-yoxunu ...*

*Futbolçular dilxor yola düşürlər həmin rayona. Oyun başlayır.*

*- Müəllim, onnarın bir 9 nömrəsi vardı, Banişevski onun yanında yalanıydı. Köpəyoğlu bizə göz açmağa imkan vermir. Elə bil od-yalodu. Yaxınlaşdım bunun yanına, dedim, ə, bayıssı göyçək, qoy biz də oynayax dana. O da çöndü mənə elə bir yumrux vurdu ki, ürəyim getdi, yıxıldım yerə. Sudya da bilmədi məni niyə vuruf. Ona qırmızı kart çıxartdı. 9 nömrəni meydandan qovdular.*

*Mənim söyüşümü sudya eşitməsə də, azarkeşlər eşitmişdi, nə qədər bağırdılar, xeyri olmadı. Oyunu uddux, katibinki də əlində qaldı. Oyunnan sonra həmin rayonun milisləri məni də, bizim futbolçuları da zorla azarkeşlərin əlindən aldılar, sora da bizim avtobusu Füzuliyə qədər müşayət elədilər. Çünki azarkeşlər arxadan gəlirdi, milis olmasa mənim leşimi atacaydılar.*

*Argentinalılar da həmin 9 nömrə kimi qoymadılar polşalıların ayağına top dəyə. Polşalıların ayağına top dəysəydi, daha doğrusu, topu tapa bilsəydilər, Argentinanı Səudiyyə Ərəbistanı kimi darmadağın edərdilər.*

*Ermənilərin Qrant Matovosyan adlı bir maraqlı yazıçısı vardı. Bəri başdan da qeyd edim ki, 1988-ci ildə Qarabağ hadisələrinə qarışmadı, yəni ermənilərin tərəfini saxlamadı. Onun bir əsəri var, deyəsən Natiq Səfərov tərcümə etmişdi.*

*Erməni tələbə təəssüf ki, adı yadımdan çıxıb, Moskvaya boks yarışına gedib. Çıxıb döyüşə, sevdiyi qız da tamaşaçıların arasında onu izləyir. Bu dünyada kimi dindirsən heç kim heç vaxt döyüldüyünü etiraf eləmir. Hamı deyir ay belə vurdum, ay belə yıxdım. Bir də görürsən ki, biri birini yıxıb yerə mal kimi çırpır, birtəhər aralayırlar, döyülən durur ağzının, burnunun qanını silir və camaat eşitsin deyə döyənə deyir:*

*- Get, get, sənə altdan iki dənə elə yumruq qoymuşam ki, səhərədək yata bilməyəssən.*

*İndi erməni tələbə də döyüşü belə təsvir edir:*

*- Mənim yaxşı solaxayım var. Məşqçi də kənardan elə çığırır ki, ”levıy, levıy”. Sevdiyim qız da qıraqdan baxır. Mən də özümü düzəldirəm ki, rəqibə bir ”levıy” udar vurum. Ha axtarıram, kanatların arasında yoxdu. Sudya da nə isə sayır. Ə, nə sayırsan, qoy bir onu tapım. Nə qədər axtardım, tapa bilmədim. Sonra sudya onu hardansa tapdı, əlini qaldırdı. Mən tapsaydım, leşin atacaqdım.*

*İndi polşalılar da ha axtardılar, topu tapa bilmədilər. Hakim fit verib oyunun qurtardığını bildirdi və argentinalıları qalib elədi.*

*Allah Qadirə rəhmət eləsin. Yeri gəldikcə onun bəzi anektodlarını yazacam. Amma bir az kobud alınır, görüm redaktə edə biləcəmmi?! Anektodu da redaktə edəndə duzu gedir.*



Vüqar Abbasov

# Gəlin başlayaq

*Mövzu çoxdur, o qədər çoxdur ki, bəzən bu çoxluğun içərisində itib batır, nədən yazacağımı bilmirəm. Bir mövzudan yazmaq istəyirəm ki, ağlıma başqa bir mövzu gəlir və əlimdəki yazını tamamlamaqda çətinlik çəkirəm. Əlbətdə ki, bunda sosial şəbəkələrin rolu da az deyil. Yazılan statuslar, müxtəlif paylaşımlar cəmiyyətin vəziyyətini çox bariz surətdə ortaya qoymuş olur, əgər diqqətlə oxusan. Mənə ən çox təsir edən isə ciddi məsələlərə belə, bir çox halda, lağlağı ilə yanaşmağımızdır. Yumor hissi ilə yanaşmaq başqadır, lağlağı etmək isə başqa və bu fərqi izah etməyə ehtiyac görmürəm. Bir insan, ziyalı niyə cəmiyyəti ciddi narahat etməli olduğu məsələyə lağlağı etsin ki...*

*...Cəmiyətimizin ən böyük problemlərindən biri də rüşvət, korrupsiyadır. "Biri də" ona görə yazdım ki, bundan başqa problemlərimiz də var. Problemlərin həlli yolları təbii ki, mövcuddur, ən azından bir çoxunun. Amma gərək bu yolu düzgün seçəsən. Məsələn, məmləkətimizdə son illərdə bir neçə yüksək vəzifəli şəxsə qarşı əməliyyatlar keçrildi. DTX bir neçə icra başçılarını, nazirlik işçilərini həbs etdi. Bununla rüşvətin qarşısını ala bildilər? Ümumiyyətlə, bu kimi addımlarla rüşvətin qarşısını almaq olar? Şəxsi fikrimə görə, yox. Əksinə, bu kimi əməliyyatların rüşvətin məbləğinin qalxmasına səbəb ola biləcəyini düşünürəm. Məqsədi nə qədər xoş olsa da, belə əməliyyatlar rüşvətin qarşısını ala bilməz, qeyd etdiyim kimi, mənim fikrimcə. Bəs rüşvətin qarşısını necə almaq mümkündür? Fikrimcə bunun üçün zaman lazımdır. Amma biz bu işə başlamalıyıq. Əsas başlamaqdır. Rüşvətin qarşısını almaq istiqamətində fəaliyyətə lap elə günü bu gündən başlamaq olar və bu, hardasa 20-30 il sonra öz nəticəsini göstərməyə başlaya bilər.*

*Azərbaycan rüşvətsiz, ədalətli bir cəmiyyətə "hamiləlik dövrünü" yaşamalı və sonra o cəmiyyəti dünyaya gətirməli, böyütməli, ərsəyə çatdırmalıdır. Bu dövr nə qədər əzablı, əziyyətli olsa belə bunu etmək lazımdır. Yoxsa rüşvət, acgözlük və.s. bu kimi neqativ hallar bu ölkəni şikəst edir...*

*... Uşaq ana bətində olanda ətrafda baş verənləri duyur, deyirlər. Bunun belə olub olmadığnı bilmirəm. Bir anlıq təsəvvür edək ki, belədir. O zaman uşaq ana bətnində olanda valideynlərinin doğum evinə vermək üçün pul dərdi çəkdiyini duymamalıdır, yəni uşaq dünyaya rüşvətlə gəlməməlidir. Burdan başlamaq olar. Uşaq dünyaya gələn kimi dövlət uşağın qayğısına qalmalı, valideynlərə uşaq pulu verilməldir və heç bir valideyn uşağının maddi təminatı ilə bağlı narahatlıq keçirtməməlidir. Uşaq bağçaya, məktəbə pulla getməməlidir, yəni rüşvətlə. Universitetlərə, texnikumlara, peşə məktəblərinə öz istəyinə, qabiliyyətinə görə seçim etməlidir, kiminsə istəyinə, pulun gücünə deyil. Haqq etdiyini əldə etməlidir, rüşvətə, tapşırığa ehtiyac olmadan. Sonradan əmək fəaliyyətinə də qabiliyyətinə, bacarığına, savadına, ixtisasına uyğun yerdə başlamlıdır və yenə də öz gücünə, rüşvətsiz filansız. Yəni hələ bağçadan, ibtidai sinifdən haqq etdiyini almalı və belə də davam etməlidir. Kimsə onun haqqını nə almalı, nə də haqq edtiyindən artığını verməldir. Çalışdığı yerdə alacağı əmək haqqı da ona öz həyatını rahat yaşamağa, ailə qurduqdan sonra isə ailəsini maddi cəhətdən təmin etməyə yetərli olmalıdr. Belə bir şəraitdə böyüyən biri gələcəkdə öz övladının da rahat, ədalətli bir cəmiyyətdə yaşayacağını bilər və "uşaqlarına gün ağlamaq" üçün başqalarının uşaqlarının haqqını yeməz, ölkəni çapıb-talamaz...*

*Əlbətdə ki, bütün bunlar mənim burada yazdığım qədər sadə deyil, uzun bir prosesdir. Bunun üçün çox işlər görülməlidir. Amma əsas başlamaqdır. Bu gün qibtə ilə baxdığımız bütün Avropa dövlətləri bu yerlərə gəlib çıxmaq üçün çox mərhələri keçiblər və bu gün də dayanmadan mərhələlər keçməkdədirlər...*

*...Gəlin başlayaq.*

*Niderland.*
*vugarabbasov@hotmail.com*

# «Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamə siyasi riyakarlıqdır»

**”Fransa Senatının 2022-si il noyabrın 15-də məlum qətnaməni qəbul etməsinin ardınca bu ölkənin Milli Assambleyası da noyabrın 30-da Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil etmiş, beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirən, dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf alan qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt qəbul etmişdir. Fransa Senatı və Milli Assambleyasının qəbul etdiyi bu qətnamələr Fransa qanunverici orqanlarının siyasi avantüra meydanına çevrilməsindən xəbər verir. Fransa Milli Assambleyasının bu qətnaməsini də qəti şəkildə rədd edir və siyasi riyakarlıq kimi qiymətləndiririk”.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Milli Məclisinin Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamə ilə bağlı 2022-ci il 1 dekabr tarixli açıqlamasında bildirilib.

”Danılmaz faktdır ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı dövründə münaqişənin dinc yolla nizama salınması üçün göstərilən səylərin nəticə verməməsinin əsas səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, vasitəçilik vəzifəsini öhdəsinə götürən dövlətlər, xüsusən Fransa tərəfindən ikili standartlara yol verilməsi, işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməməsi, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyətin göstərilməməsi, bir sıra hallarda isə onun açıq-aşkar şirnikləndirilməsi olub. Təəssüflə qeyd edilməlidir ki, bu gün Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə, münasibətlərin normallaşmasına zərbə vurur, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, revanşist və aqressiv separatçı qüvvələri həvəsləndirir, regionu yeni təhlükələrə yönləndirir. Populist siyasi baxışlar əsasında Fransanın daxili siyasi gündəliyi və müxtəlif lobbi dairələrinin maraqlarının Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir.



Qətnamədə Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalçılıq və etnik təmizləmə siyasəti, Xocalı soyqırımı, 44 günlük müharibə zamanı Azərbaycanın şəhərlərinin ballistik raketlərlə atəşə tutulması, işğal dövründə ölkəmizin 9 şəhəri və 300-dən artıq kəndinin viran edilməsi, total minalama və mina terroru siyasəti, 4000 nəfərə yaxın vətəndaşımızın itkin düşmüş hesab olunması, kütləvi məzarlıqların yerləri barədə Ermənistan tərəfindən məlumat verilməməsi kimi faktların yer almaması onun ucuz siyasi sifarişdən başqa bir şey olmadığını açıq şəkildə göstərir.

Digər tərəfdən, Azərbaycanı Ermənistana qarşı müharibə cinayətləri törətməkdə əsassız ittiham edən Fransanın öz tarixi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə zəngindir. Dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmiş və açıq şəkildə qul ticarəti ilə məşğul olmuşlar. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir.

Fransa hələ də dekolonizasiya kateqoriyasına aid edilən bir sıra əraziləri qanuni sahiblərinə qaytarmır və neokolonializm siyasəti əsasında həmin ərazilərin anneksiyası xəttini yürüdür. Fransada irqçilik, islamofobiya və antisemitizmin ifrat həddə çatdığı artıq danılmaz bir faktdır. Fransa siyasətçiləri unutmamalıdırlar ki, müstəmləkəçilik insanlıq əleyhinə cinayətdir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq, bütün ölkələrlə münasibətləri bərabərhüquqluluq və qarşılıqlı hörmət əsasında inkişaf etdirir. Hər kəs anlamalıdır ki, 2020-ci ilin payızında xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər Azərbaycan Respublikasının ərazi bütövlüyünün və haqq-ədalətin bərpasını təmin etmişdir. Əzəli tarixi torpaqları olan Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etməklə Azərbaycan dövləti BMT-nin və digər beynəlxalq təşkilatların qərarlarının icrasını öz gücü ilə təmin etmişdir. Beləliklə, Ermənistanın Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasətinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilib.

Bununla əlaqədar olaraq, Fransa parlamentinin üzvləri Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi praktikasından əl çəkməli, Azərbaycanla Ermənistan arasında sivil dövlətlərarası münasibətlərin qurulması üçün yaranmış tarixi imkanın qarşısını ala bilən ritorikaya və hərəkətlərə son qoymalıdırlar.

Fransa Milli Assambleyasının Fransanın müstəmləkəçilik tarixinə ədalətlə yenidən baxması və ona düzgün siyasi-hüquqi qiymət verməsi, Fransada tüğyan edən irqçilik, islamofobiya və antisemitizm hallarının qarşısını almaq üçün üzərinə düşən öhdəliklərini yerinə yetirməsi və sadə Fransa vətəndaşlarının problemlərini dinləməsi daha faydalı və səmərəli olardı”, - açıqlamada vurğulanıb.

# Kriminal xəbərlərin yayılması cəmiyyəti cinayətə sürükləyirmi?

**Kriminal xəbərlərin sayı gündən-günə artır. Xüsusən də son günlər yayılan kriminal xəbərlər müzakirələrə səbəb olur. Azyaşlıların bir-birini bıçaqlaması, tanınmış meyxanaçının qətl törətməsi və s. Bu kimi xəbərlərin saytlarda, TV-lərdə tirajlanması nə dərəcədə düzgündür? Cəmiyyəti daha da kriminal ab-havaya sürükləmirmi?**

Adalet.az saytı bu mövzu ilə bağlı sayt redaktorlarının, psixoloqların fikrini öyrənib.

**Mətbuat Şurasının sədri Rəşad Məcid** bildirib ki, media kriminal hadisələrin işıqlandırılmasına həssas yanaşmalıdır. Xüsusən qətl törədilməsi anlarına dair görüntülərin yayılmasından uzaq durmaq lazımdır. Jurnalistlər nəzərə almalıdırlar ki, belə təqdimatlar əksər hallarda hər hansı ictimai motivə əsaslanmır, cəmiyyət üçün zərərli mahiyyət daşıyır- həm insanların psixoloji, emossional durumuna mənfi təsir göstərir, zərərçəkənlərin doğmalarına və yaxınlarına mənəvi sarsıntı yaşadır, cinayəti təbliğ edir, həm də gələcəkdə hadisəyə hüquqi baxımdan ədalətli və obyektiv yanaşma üçün şübhə yeri qoyur.Təcrübə göstərir ki, qətllə bağlı video görüntülərin yayılmasında jurnalistlərlə yanaşı, hadisənin təsadüfi şahidləri də iştirak edirlər. Belə şəxslərin də məsələnin həssaslığına düzgün yanaşmaları, sadaladığımız məqamları nəzərə almaları vacibdir.



Medianın belə hallarda məsuliyyət hissini unudaraq öz ”reytinqini” ictimai maraqlardan üstün tutması, habelə informasiya mənbəyi rolunda çıxış edən şəxslərin, sosial şəbəkə istifadəçilərinin bu cür xəbərlərin cəmiyyətə təsir yükünü düzgün qiymətləndirməməsi təəssüf doğurur.

**Millət vəkili Fazil Mustafa** kriminal xəbərlərin məhdudlaşdırılmasının əleyhinə olduğunu vurğulayıb. O deyib ki,əslində bir sahədən xəbərlər çox yayılanda insanlar bu xəbərlərə öyrəşirlər. Heç nəyin psixoloji təsirini ölçmək mümkün deyil. Xəbəri başlasan çeşidləməyə bütün xəbərlərin yayılması problemdir. Ailə, uşaq, kiminsə kimisə bıçaqlamağı, hansısa məhkəmənin qanunsuz qərar çıxarması və s. Bunlar hamısı neqativ sayıla biləcək xəbərlər kateqoriyasına daxildir. Amma nə etməli? Xəbər pampıq deyil ki çeşidləyəsən. Xəbəri həddən artıq məhdudlaşdırmaq olmaz. Təbii ki cinsəl xarakterli, insanların əxlaq və



başqa dəyərlərinə toxuna biləcək məsələlərdə diqqətli olmaq lazımdır.

Məsələn, korrupsiya da kriminaldır da, bu məntiqlə korrupsiya faktı aşkarlananda, kimsə buna görə həbs olunanda verilməməlidir?

Azərbaycanda informasiyanın təsirindən çox, verilən informasiyaya laqeydlik problemi var. Laqeydlik qoymur ki, hansısa tendensiyanın qarşısı alınsın. Deyək ki, məktəbdə idmançı bir uşaq başqa uşağı bıçaqlayıbsa, bununla bağlı görüləcək profilaktik tədbirlərin əksəriyyəti görülmür. Məncə biz burada başlasaq daha doğru olar, nəinki xəbəri məhdudlaşdırmaq. Bunu doğru seçim kimi görmürəm.

**Psixoloq Fərqanə Mehmanqızının** sözlərinə görə isə hər bir xəbəri biz özümüz yayırıq. Hər hansı bir hadisə baş verdisə, istər mənfi, istərsə də müsbət, bunu saytlar olmasa belə hər bir sosial şəbəkə istifadəçisi təbliğ edir, hətta hadisəni pisləmək belə təbliğ etməkdir. Və bugün insanlar artıq qətlə, cinayətə, adam öldürməyə adi baxırlar. Bir şey ki, çoxalmış formada göstərilirsə, bu təbliğat xarakteri daşıyır. Bir hadisə baş verir, sosial şəbəkədə n qədər istifadəçi ilə qarşımıza çıxır. Hər kəs öz sözünü demək, özünü göstərmək, ”mən də varam” demək üçün hadisəyə bir-iki cümlə ilə şərh verir. İstər haqq qazandırsın, istərsə də pisləsin, artıq şüiraltı təbliğat maşınının bir parçasına çevrilir.

Fakt bunu göstərir ki, yeniyetmələr və gənclər cəmiyyət kimi



təbliğ edirsə özlərinə o şəxsi kumir seçirlər. Çox təəssüf, əgər bugün gənclər kriminal aləmin nümayəndələrini özlərinə kumir seçirsə, deməli bunun günahı ətrafdakı insanlardır, cəmiyyətdir. Bu kumirlər vasitəsilə hər bir yeniyetmə, hər bir uşaq seçdiyi kumiri kimi lider olmaq istəyir. Bu da cinayət törətməyə, yaxud da cinayətə meyilliliyə gətirib çıxara bilir.

**Eminquey**

# Ekspert: "Görün elm və təhsilimizi kimlər idarə edir"

**Xəbər verdiyimiz kimi Elm və Təhsil naziri Emin Əmirullayev mətbuat konfransı keçirib. Təhsil üzrə ekspert Kamran Əsədov konfransla bağlı sosial şəbəkə hesabında kəskin fikir bildirib.**

Ekspert, keçirilən brifinqdə bəzi səhv qərarların verildiyini qeyd edib:”Görün elm və təhsilimizi kimlər idarə edir.

Bildiyiniz kimi, dünən Elm və Təhsil naziri Emin Əmirullayev mətbuat konfransı keçirib.Cənab nazir konfransda çox ciddi qanunvericilik aktlarına səhv, praktiki yanlış onlarla fikir ifadə edib.Amma brifinq bitən kimi, təhsilin T-sından xəbərsiz yaltaq əsabələri nazirin çıxışından tezislər hazırlayıb paylaşırlar.Guya bu çıxışlarda hansısa gələcək plan, elmi tezislər var. Emin Əmirullayev yaxşı insandır, amma onu sizin kimi savadsız yaltaqlar məhv edəcək.Nazirin çıxışındakı səhvləri ayrı-ayrı yazacam.

Birinci başlayım ibtidai sinifdə xarici dilin tədrisi ilə bağlı. Mən bir dənə məktəb direktoru, bir dənə müəllimdən bir sətr yazı görmədim dünəndən bəri ki, axı nazir, onun kursdan tutub gətirib əvvəl müşavir, ardınca isə ümumtəhsil şöbəsinin müdiri təyin etdiyi Elnur Əliyevin fikri səhvdir. Belə çıxır ki, ya hamısı savadsızdır, ya da hamısı yaltaq.

Hörmətli Emin Əmirullayev özü bu ilin, 2022-ci ilin 28 iyulunda təsdiq etdiyi tədris planında nəzərdə tutulub ki, ibtidai (1,2,3,4-cü) siniflərə həftədə BİR



DƏFƏ xarici dil fənni tədris olunsun.

1 dəfə İngilis dili fənni tədris olunur. Düzdür, bəzi məktəblərdə pilot olaraq 1 saat rus dili də tədris olunur.

Yəni hörmətli Emin müəllim, hazırda ibtidai siniflərdə həftədə bir dəfə xarici dil fənni tədris olunur.

Hardadır o həftədə iki dəfə xarici dil fənninin tədrisi?

Siz vəziyyətə baxın, nazir təstiq etdiyi tədris planını bilmir, hələ 1 gün belə sinifə girməyən, tədrisdən xəbəri olmayan kursdan tutub gətirib ümumtəhsil kimi geniş, ağır şöbəyə müdir təyin etdiyini Elnur Əliyev israrla deyir ki, iki dəfə tədris olunur. Hətta cənab nazir tapşırır ki, bəs araşdırma aparın ki, niyə bir dəfə tədris olunur.

Niyə olacaq cənab nazir? Çünki tədris planında belədir.

Hələ bu ümumtəhsildən xəbərsiz Elnur Əliyevi yeni strukturda agentliyin rəisi təyin etmək istəyirlər.”

**Əntiqə Kərimzadə**

Səxavət Məmməd



# Qonşu ölkələrdəki vəziyyətin aktuallaşdırdığı Qarabağ dalanı

**Bir qonşuda ”yanğın”, biri yaralı, digəri seçkilər ərəfəsində, o biri isə ”üç meymun”u oynayır.**

**10 noyabr bəyanatı imzalanan günün səhərisi yazımda belə bir cümlə işlətmişdim ”müharibə hələ indi başlayır”. Eyforiyada olanlar təbii ki, bu cümləni mənasız adlandırdı. Ancaq reallıqlar məna və mənasızlıqdan çox üstədir.**

**Bizim cəmiyyətdə bir çoxları nədənsə müharibəni ancaq silahların ”danışdığı” bir nəsnə hesab edir. Məsələ ondadır ki, müharibə bitdi deyilən gündən psixoloji, hibrid savaşına start verilmişdi.**

**Nədənsə, Rusiya sülhməramlılarının etdikləri indi daha çox gözə batır. Ancaq ruslar ilk gündən gözə batacaq hərəkətlər edirdi. Ruslar ermənilər üçün evlər tikəndə, qeyri-qanuni erməni silahlı dəstələrinə təlimlər keçəndə, öz dahilərinə abidlər ucaldıb, kilsə inşa edəndə sonu necə olmalı idi? İndi yer adlarını dəyişdirəndə sərt reaksiyalar verilir. Əla! Ancaq həmin Rusiya Müdafiə Nazirliyi qondarma rejimin ”polis”i ilə Azərbaycana məxsus maşın karvanını yoxlayıb videosunu yayımlayanda guya qanuni işləyirdilər? Hər həftə ruslar bəyanatın şərtlərini pozacaq cinsdən fəaliyyətlə məşğul olurdu. Ağdərədə rus icması yaradıldı. Yenə reaksiyasızlıq. Bu o qədər təkrarlandı, o qədər adiləşdi ki, Azərbaycan ictimaiyyəti olanlara reaksiya verməkdən bezdi. Media isə mövzu xətrinə bunu işləməkdən o yana keçmədi. Bezdirmək psixoloji müharibənin əsas hədəfi idi. Yuxarıda saydıqlarım sülhməramlıların etdiklərinin kiçik bir hissəsidir. Təkcə bunlar onu deməyə əsas verirdi ki, ruslar müvəqqəti sözü ilə razılaşmayacaqlar. Ruben Vardanyan adlı milyarderi Xankəndinə göndərərək, ruslar əsl niyyətlərini ortaya qoymuş oldular.**

**Həmin Rusiya Ukraynada nə qədər çətin vəziyyətdə olsa da, Cənubi Qafqazı əldən vermək niyyətində deyil. Ukraynada hər nə qədər bunu bir çoxları həzm etməsələr də, Rusiya faktiki olaraq ABŞ və Avropa ölkələrinin bir çoxu və NATO ilə üz-üzədir. Ukraynanın yanında bu güclər olmasa, Ukrayna Rusiyanın qarşısında nə qədər dözüm gətirə bilərdi? Başqa bir sual, Cənubi Qafqazda Rusiyanın qarşısında kim dayanacaq? Həmin güclər Ukraynaya olduğu kimi hərbi texnika, silah, raket, kəşfiyyat məlumatları, maliyyə yardımları edəcəklər? Azərbaycan indiki duruşundan geri çəkilməməlidir, eyni zamanda, bəzi qarantiyalar almalıdır.**

**Niyə bu qədər qaramat düşünürəm?**

**Hesab edirəm ki, bundan sonra Qafqazda, konkretləşdirsək, Ermənistanla Azərbaycan arasında müharibə alovlansa, bu dəfə mütləq şəkildə bu iki ölkə arasında olmaqdan çıxacaq. Türkiyə Azərbaycanın əlini nə qədər gücləndirsə də, seçki ərəfəsində olmaqları, hazırkı hakimiyyətin daha çox daxilə yönəlik işləyəcəyi anlamına gəlir. Çünki Türkiyədəki seçkilərin nəticəsi türkiyəlilər qədər elə böyük güclərin də marağındadır.**

**İran ”yanır”. Bəli, İrandakı daxili çaxnaşma, üsyanlar bir çoxlarını məst edə bilər. Ancaq onu da düşünmək lazımdır ki, qonşudakı yanğın hər zaman zərər verir. Evə yanğın keçməsə də, tüstüsü boğur. Ona görə də strateji hədəfləri açıqlamaqla yanaşı, təhlükəsizlik qaydalarına da nəzarət etmək lazımdır.**

**Həmişə Azərbaycanın Rusiya və İranla qonşuluğunu bədii ifadə vasitəsi ilə ifadə edəndə ”iki od arasında” adlandırırdılar. Bu əvvəl nə qədər bədii ifadə vasitəsi kimi görünsə də, indi reallıqda iki od arasında qalmışıq. Biri yanır, digəri də yaralı və yanmağa hazırlanmış vəziyyətə yaxınlaşır. Yanğını ya söndürmək lazımdır, ya da kontrol altına alıb yanıb bitməsini gözləmək. Azərbaycanın gələcəyi ilə bağlı hədəfləri yaxın, orta və uzun vədəli olmalıdır.**

**Yaxın vədəli hədəf Xankəndidir. Çünki Xankəndinə nəzarətin ələ alınmadığı hər gün sözügedən şəhərin siyasi mərkəzə çevrilməsinə gətirib çıxarır.**

**Orta vədəli hədəf Ermənistanla Azərbaycan arasında sülhün imzalanması olmalıdır. Açıq görünür ki, Ermənistan vaxtı uzatmaq üçün çalışır. Ən effekiv masalardan sayılan Brüssel masasının gələcək taleyi sual altına düşüb. Faktiki olaraq, Paşinyanın Makron gedişi Azərbaycana ”oynamıram” demək idi. Rəsmi Bakı da ”oynamadığını” bəyan etdi. Əslində, bu Moskvanın da arzuladığı bir variant idi. Hazırda iki masa qalıb - Moskva və Vaşinqton.**

**Uzaq vədəli plan isə Cənubi Azərbaycan ola bilər. Çünki o planın atılması üçün təməllər qoyulmalıdır. Cənubdakı soydaşlarımızın nə istədikləri də çox önəmlidir. Təkcə Azərbaycan dövlətinin istəməsi, hədəflərini açıqlaması hər şey ”tamam”dır anlamına gəlmir.**

# GÜNAHKAR MƏTBUAT VƏ İCTİMAİYYƏTDİR

**İdman komplekslərinin birində 16 yaşlı bir gənc idmançını özündən yaşca böyük bir nəfər döyür, sonra da bıçaqla vurub öldürür. Özü də hadisə hamının gözü qarşısında olur. Ətrafdakılar heç bir müdaxilə eləmir, qoyun kimi gözlərini döyüb baxırlar.**

Əslində bu qətl hadisəsini kənardan müşahidə edənlər də cinayətə cəlb olunmalıdırlar. Onlar da bu qətlin iştirakçılarıdırlar.

Yadınızdadırsa bu yaxınlarda Sabirabad rayon İcra Hakimiyyətinin qarşısında bir qazi hamının gözü önündə üzərinə benzin tökərək intihar etmişdi. Və hətta bir nəfər də laqeydcəsinə bu hadisəni telefona çəkib sosial şəbəkədə yaymışdı. Bilmirəm hadisəni telefona çəkənə cinayət işi qaldırdılar, ya yox, amma qaldırmalıydılar. İnsanlarda bu laqeydlik nədən yaranıb? Fikirləşmirsiniz ki, sabah elə ictimaiyyətin gözü qarşısında sizin övladınızı da bıçaqlaya bilərlər və onda da necə indi sən laqeydsən, hamı da laqeyd qalar.



Gənclər arasında belə bıçaqlanma hadisələrinin sayı artır. Bunun bir günahkarı mətbuatdır, bir də bu məsələlərə laqeyd qalan ictimaiyyət.

Mətbuat kriminal aləmdən bəh-bəhlə o qədər materiallar verir, gənclər də həvəsə düşür.

Bu yaxınlarda Rəşad Dağlı bir nəfəri bıçaqlayıb öldürüb. Saytlar, sosial şəbəkə hamı qalxıb Rəşadın müdafiəsinə. Hamı onu haqlı sayır.

Allahın verdiyi canı bircə Allah ala bilər. Ona görə də Azərbaycan daxil olmaqla bütün sivil ölkələrdə ölüm hökmü ləğv olunub.

İndi öldürən oğlan da idmançıdı, yəqin idmançılar da yığışıb onu müdafiə edəcəklər. Belə şeymi olar?

Daha ciddi tədbirlər görülməlidir, xüsusilə bu işdə televiziyalarımız fəallıq göstərməlidir, maarifçilik proqramlarının sayı artırılmalıdır.

Saytlar, sosial şəbəkələr də bu məsələyə birtərəfli yanaşmamalıdır. Şərh yazanlar bilməlidirlər ki, bu, onların özlərinin də, övladlarının da, yaxınlarının da başına gələ bilər.

**Nə isə, yazılası çox şey var, yazmaq olmur.**

**Nicat Novruzoğlu**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Biz əsgəri türklər qədər sevmirik

## *Sevsəydik onları yolda qoymazdıq*

*...Ordu və əsgər həmişə millətin ümid və güvənc yeridir. Ordusu və əsgəri olmayan xalq başqa ölkələrin qapazı altında qalır və onlar hansı mahnını çalır ona oynayırlar. Amma nə yaxşı ki, qüdrətli Azərbaycan dövlətinin güclü ordusu və döyüşkən əsgəri var! İkinci Qarabağ savaşında bir daha Azərbaycan ordusu və əsgəri 44 günlük müharibədə hansı qüdrətə malik olduğunu nəinki bizə, dünyaya sübut elədi! Sübut elədi ki, Azərbaycan ordusu və əsgəri dünyanın ən güclü ordusudur!...*

*Düşünürdüm ki, orduya və əsgərə münasibət xalqımız arasında 44 günlük tarixi Zəfər günündən sonra daha da artacaq. Bəli, bu gün millətimizin əksər hissəsi ordunu və əsgəri sevir, onu çox istəyir. Bu, danılmaz həqiqətdir! Amma bəzən də görürsən ki, ayrı-ayrı insanlar, ayrı-ayrı adamlar əsgərə çox soyuq münasibət göstərir. Bugünlərdə gördüyüm bir hadisə məni bir ziyalı və vətəndaş kimi narahat eləməyə bilməzdi. Rayondan qayıdanda Bakı-Astara yolunun kənarında bir əsgərin durduğunu gördüm. Amma bir sürücü belə avtomobili saxlayıb onu götürmürdü. Əsgər isə qürurunu sındırmadan heç bir sürücüyə əl eləmir, getmək istədiyini bildirmirdi. Biz ordan xeyli aralanmışdıq, amma ürəyim yenə həmin əsgərin yanında idi; deyirdim görəsən, o əsgəri kimsə maşınına mindirdi, ya yox?!*

*...Bizdənsə 15 dəqiqə arxada yaxın tanışlarımızdan biri gəlirdi. Ona telefon açdım. Dedim ki, qardaş, yolun kənarında çiynində çanta, bir əsgər durub. Onu götürərsən. Dostumuz da dedi ki, mənim gözlərim üstdə! Sürücü düz gəlib maşını əsgərin yanında saxlayıb və onu maşına əyləşməyə dəvət edib. Əsgər də təşəkkür edib və çox sağ ol deyib! Sonradan tanışım deyir ki, həmin əsgərlə xeyli söhbət elədim. Bu əsgər yox, zabit imiş. İkinci Qarabağ savaşında düz Şuşaya qədər gedib və böyük qələbənin qazanmasında bir zabit olaraq öz xidmətini göstərib. Hətta ölkə prezidenti tərəfindən üç medalla mükafatlandırılıb. Amma həmin zabit yolda durub maşın gözləyəndə avtomobili saxlamayan sürücülərin heç birindən gileylənməyib və deyib ki, hər kəsin özünə görə bir sıxıntısı, bir dərdi var! Bu, Azərbaycan zabitinin düşüncəsi, vətənpərvərliyi və insani hissləridir. Amma biz hər zaman, hər an o əsgərə, o zabitə sevgi ilə, məhəbbətlə yanaşmalıyıq. Gəlin onunla razılaşaq ki, biz türklər qədər Azərbaycan əsgərini çox sevmirik, çox istəmirik. Onlar türk əsgəri görəndə az qala canlarını onların yolunda qurban verələr. Biz isə bəzən yolda durub maşın gözləyən əsgəri görməməzliyə vurur, çıxıb gedir və düşünürük ki, qoy onu başqası götürüb aparsın!...*

*Yaxın dostlarımdan olan, Birinci Qarabağ savaşının veteranı, əslən Laçında dünyaya göz açan Elbrus deyir ki, bir dəfə Bərdəyə getmişdim. Gördüm ki, əsgər bir taksiyə yaxınlaşdı. Sürücü də ondan Tərtərə getmək üçün bir "şirvan" pul istədi. Əsgərin geri döndüyünü və qanını qaraldığını görüb taksiyə yaxınlaşdım, istədim dişimin dibindən çıxanı deyim, amma özümü birtəhər saxladım. Çıxarıb sürücüyə iki "şirvan" verdim ki, bu əsgəri hara deyir ora apar!*

*Görürsünüzmü, bəzən biz əsgərə qarşı belə bir laqeyd və soyuq münasibət bəsləyirik! Və onu da düşünmürük ki, bizim də övladımız, doğmalarımız və nəvələrimiz əsgər olub. Deməli, Azərbaycan əsgərinə biz hamımız böyük sevgi ilə, məhəbbətlə yanaşmalıyıq. Çünki onlar hər an, hər dəqiqə savaş başlayanda döyüşə atılacaq, bu xalqın və bu millətin yolunda sinəsini güllənin qabağına verəcək, bu Vətəni, bu torpağı və bizim hamımızı qoruyacaq! Allah Ali Baş Komandan, Prezident İlham Əliyevi, Azərbaycan ordusunu və Azərbaycan əsgərini qorusun! Biz onları qorumalıyıq ki, onlar da bizi qorusunlar!!!*

## *Havalar kəskinləşir*



**Hidrometroloqların verdiyi məlumata görə, noyabrın 28-dən respublika ərazisində havalar kəskin dəyişəcək. Hətta onların dediklərinə inansaq, temperatur 7-8 dərəcə aşağı düşəcək. Başqa sözlə desək, havanın hərarəti elə o dərəcədə olacaq. Üstəlik də bir çox rayonlara sulu qar və fasiləsiz yağış yağacaq. Təbii ki, belə bir mürəkkəb hava şəraitində nəqliyyat vasitələrini idarə etmək bir qədər də çətinləşəcək.**

Ona görə də həmişə Baş Dövlət Yol Polisi İdarəsi mürəkkəb hava şəraiti ilə əlaqədar öz tövsiyələrini və məsləhətlərini verir. Biz də metroloji şəraitə uyğun olaraq təhlükəsizliyin təmin edilməsi üçün Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis kapitanı Toğrul Nəsirli ilə əlaqə yaratdıq. Cənab kapitan bildirdi ki, yağışlı, yağmurlu və dumanlı hava şəraitində, xüsusən dağ yollarında və sərt döngələrdə sürücülər daha diqqətli olmalıdılar. Onlar ara məsafəsi saxlamalı, sürət həddinə əməl etməli, qatı duman olanda işıq cihazlarını yandırmalıdılar.

Toğrul Nəsirli onu da dedi ki, bütün sürücülər bu cür hava şəraitində piyadalarla bağlı diqqətlərini bir qədər də artırmalıdılar. Çünki heç kimə sirr deyil ki, dumanlı havada avtomobil yolu yaxşı görünmür, bəzi hərəkət iştirakçıları isə məsuliyyətsizlik edərək yolu keçməyə çalışırlar. Bu isə hər hansı yol-nəqliyyat hadisəsinin baş verməsinə zəmin yaradır. Ona görə də bir daha yol polisi olaraq sürücülərə və hərəkət iştirakçılarına tövsiyyə edirik ki, metroloji şəraitə uyğun sürət həddi seçsinlər və piyadalar yol hərəkəti qaydalarına əməl eləsinlər.

## *Saxla, dincəl!*



**Respublika əhəmiyyətli avtomobil yollarının kənarında xeyli müddətdir ki, xüsusi dayanacaqlar tikilib. Bu da ona görə inşa edilib ki, hər hansı sürücü yorularkən avtomobili saxlasın və orda dincəlsin. Digər avtomobil yolları kimi Bakı-Astara yolunda da bu cür dayanacaq inşa edilib. Hətta orda yazılıb: "Saxla, dincəl!". Təəssüf ki, həmin yerə giriş yoxdu və bağlıdı! Belə də olanda bu addım təhlükəsizlikdən çox hər hansı sürücüdə qıcıq yaradır. Əgər ora bağlıdırsa və fəaliyyət göstərmirsə, onda zəhmət çəkib "Saxla, dincəl" sözlərini ordan götürsünlər! Bunu hansı qurum və hansı təşkilat yaradıbsa, onlar da tezliklə bu yerlərin istifadəyə verilməsini təmin etməlidir. Yoxsa görüntü yaratmağın heç bir mənası yoxdur.**

Belə baxanda əgər həmin dayanacaqlar istifadəyə verilsə, sükan arxasında yuxulayan və yorulan sürücülərin dincəlməsi üçün çox yaxşı şərait yaranmış olar. Təəssüf ki, bu şərait olsa belə hələ də respublika əhəmiyyətli yollarda bu cür dayanacaqlar istifadəyə verilmir və sürücülər ora baxa-baxa gedirlər! Nə vaxta qədər baxa-baxa gedəcəklər, onu bilmirik!

**Emil FAİQOĞLU**

# On milyonluq xalq...

## Prezident İlham Əliyevin yanındadı

**Sülh müqaviləsindən boyun qaçıran Ermənistan öz havadarlarının qucağına sığınıb və bu havadarlar da onları zaman-zaman "fitilləyir" ki, qorxmayın, biz sənin yanındayıq. Bunu tək Fransa demir, bunu Rusiya deyir, bunu Amerika deyir, bunu erməni lobbisi deyir, bunu həm də Avropanın digər ölkələri də deyir. İran isə ermənilərlə can bir olub və həmişə onun yanında və onun ətrafında fırlanıb. Bu gün də elə İran ermənilərin yanındadı. Başqa cür də ola bilməz!...**

...Birinci Qarabağ savaşında torpağımızın 20 faizi işğal olunanda İran ermənilərlə birləşib şəhərlərimizi, kəndlərimizi viran elədi. Evlərimizi, eşiklərimizi, qəbir daşlarımızı bir yerdə söküb apardılar. Və gözləri də doymadı. İranlılar fikirləşmədilər ki, balam, heç olmasa biz müsəlmanıq. Müsəlmanın əli müsəlmanın qanına batmaz. Amma bu ölkə onu heç vaxt düşünmədi. Bir onu düşündü ki, ermənilərlə birləşib uzun müddət torpaqlarımızı işğal altında saxlasınlar. Düz 30 il belə elədilər və axırda da Azərbaycan xalqı, Azərbaycan ordusu, Azərbaycan Prezidenti çıxış yolu tapdı. İşğal altında olan rayonlarımız, kəndlərimiz, qəsəbələrimiz və müqəddəs ocaqlarımız 44 günlük İkinci Qarabağ savaşında azad olundu...

İndi yenə ermənilər və onların havadarları it kimi qudurub düşüblər bizim üstümüzə! Ora ağız atılar, bura ağız atırlar və ağızlarına da bir şey keçmir. Heç ağızlarında qudurmuş itlər kimi dişləri də qalmayıb ha! Sadəcə olaraq hürürlər və hərdənbir hürürlər, qorxub geri çəkilirlər, qudurmuş it kimi qorxularından quyruqlarını bulayırlar; ya deyirlər sülh müqaviləsi bağlayırıq, ya deyirlər Fransa bizim yanımızda olmalıdır, ya da deyirlər yox ey, müharibə eləmək istəyirik! Bilmirsən, bunların hansı sözünə, hansı vədinə inanasan və biz də heç vaxt ermənilərin və onların havadarlarının sözlərinə inanmamalıyıq. Necə ki, 2020-ci il



noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə bəyannamə imzalandı. Azərbaycan bütün öhdəliklərini yerinə yetirdi. Və yerinə yetirməkdə də davam edir. Amma nə Rusiya, nə də Ermənistan götürdükləri öhdəliklərin bir bəndini belə icra eləmək istəmirlər. Əksinə min bir bəhanə ilə vaxt udmağa çalışırlar. Yəni zamanı süründürüb öz hiylələrini həyata keçirməyə can atırlar.

Bütün bu oyunları da Azərbaycan Prezidenti İlham Əliyev çox yaxşı bilir və ona qarşı adekvat tədbirlər həyata keçirir. Artıq dünya siyasətində nə Ermənistana inanırlar, nə Rusiyaya, nə də Fransaya. Çünki o ölkələrin prezidentləri tüpürdüklərini yalayan dövlət başçılarıdır. Bunu heç kim bilməsə də, biz yaxşı bilirik. Yeganə söz sahibi dediyinə əməl edən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevdir. Cənab Prezident həm beynəlxalq təşkilatlardakı çıxışlarında, həm də digər mötəbər tədbirlərdə sülh missiyasına sadiq olduğunu dəfələrlə təsdiq edib. Prezident konkret faktlarla sübut edib ki, sülh müqaviləsini pozmağa can atan Ermənistan və onun Fransa kimi havadarlarıdır. Bunlar hamısı dünya tərəfindən, ağıllı və müdrik siyasətçilər tərəfindən çox yaxşı görünür və bilinir. Bilinməyən odur ki, Ermənistan o oyunu nə vaxta qədər davam etdirəcək və onların ədalətsiz mövqeyini Fransa, İran, Rusiya haçana kimi müdafiə edəcəkdir?!

Bu xalq, bu millət və cəmiyyətimiz Prezident İlham Əliyevə çox böyük inam bəsləyir. Nə az, nə çox, düz 10 milyonluq xalq Vətənin ən ağır günündə cənab Prezidentin ətrafında olub. Orduya, Azərbaycan əsgərinə dəstək verib. Biz bu dəstəyi 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-a qədər gedən 44 günlük ikinci Qarabağ savaşında gördük. Milyonlarla insanlar əllərində bayraq "Azərbaycan Prezidenti, Azərbaycan ordusu" deyib hayqırırdı. Tək hayqırmırdı, on minlərlə gənc könüllü surətdə çağırış məntəqələrinə gedir, Vətəni müdafiə qalxırdı. Hələ nə qədər də insanlar cəbhəyə getmək üçün növbə gözləyirdi.

Bu gün də həmin möhtəşəm xalq yenə cənab Prezident İlham Əliyevin və Azərbaycan ordusunun yanındadır. Başqa sözlə desək olsaq, Prezident İlham Əliyev nə vaxt əmr versə, on milyonluq xalqın hamısı onun ətrafında birləşəcək, bir əsgər kimi döyüşə atılacaqdır. Çünki Azərbaycan xalqı ən ağır, ən çətin və ən məşəqqətli dövrdə həmişə öz dövlətçiliyini, Prezidentini və xalqını qoruyub. Deməli, kimlərinsə bizə hədə-qorxu gəlməsi və eyni zamanda hərbə-zorba göstərməsi heç nəyi dəyişə bilməz və bu hərbə-zorbanı bizə ermənilərin havadarları Fransa da, Rusiya da və digər dövlətlər də göstərir və cavablarını da alırlar. Çünki cənab Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bəyan edib ki, heç bir xarici dövlət bizim daxili işimizə qarışa bilməz və tutduğumuz haqq-ədalət yolundan döndərməyi bacarmaz!

**Müdrik Azərbaycan Prezidenti İlham Əliyev və qüdrətli Azərbaycan ordusu hər an dəmir yumruğu düşmənə və onun havadarlarına göstərə bilər. Sadəcə olaraq biz müharibə istəmirik. Əgər ermənilər və onların havadarları müharibə istəyirlərsə, bundan da qorxmuruq, on milyonluq xalq bir yumruq kimi birləşib onların başına elə bir zərbə endirəcək ki, bir də qiyamətə qədər yerlərindən qalxa bilməyəcəklər! Bax, onda da yağı düşmən it kimi peşman olacaq. Necə ki, ikinci Qarabağ savaşında məğlub olub yalvardılar, dil çıxardılar və axırda da it kimi peşman oldular!!!**

**Faiq QİSMƏTOĞLU**

# Şagirdlərə və tələbələrə hazır bilikləri mənimsətmək...



*Etibar Əliyev*

**Böyük yazıçı və maarifçi Yusif Vəzir Çəmənzəminli yazırdı: "Bir çox tərcümeyi - hallar göstərir ki, təbii vergilər ilk uşaqlıqdan büruzə verilməyə başlayır. Burada da ana yada düşür. Bu böyük məsul vəzifə də ona həvalə olunur. Çünki analar övlada tərbiyə verib həmişə ömürlərini onlarla keçirirlər. Tərbiyədən də ümdə məqsəd uşaqlarda olan təbii vergilərə meydan verib onların tərəqqisinə çalşmaqdır."**

Çəmənzəminli bu fikirləri 112 il bundan öncə yazıbdır.

İndi məktəblə birlikdə çalışan, bütün səylərini əsirgəməyən, tələb edən, kömək edən, bu sahədə nə etməyin lazım olduğunu xeyli dərəcədə bilmiş olan valideynlər dövrüdür. Onların vəzifəsi oxutmağa razılıq verməklə bitmir, oxutmaq həm də onların birbaşa vəzifəsidir, üstəlik, buna şərait yaratmaqla kənarda durmur, təhsil prosesinin bir komponenti, iştirakçısıdır.

O, artıq "Oxutmasam əl çəkməm!" deyən və bunun necə edildiyini yaxşı bilən valideyn olmalıdır!

O, səriştəli valideyn olmalıdır!

Valideynlərin təhsil prosesindəki roluna yeni baxışlar hazırda bir mədəni qavramdan kifayət qədər uzağa gedib. Valideynlərin təhsil prosesinin fəal iştirakçısına çevrilməsi pedaqoji və tərbiyə psixologiyası zərurətlərini də aşır. Dünyada formalaşan yeni trendə görə, onlar məktəbə kömək etməklə yanaşı, təhsil prosesinin ayrılmaz iştirakçısı olurlar. Pedaqoji amillər və tərbiyə psixologiyası da bunu zəruri edir, amma müasir baxışlara görə, valideynlər təhsil prosesində hüquqi tərəfdir, onların bur prosesdə yaxından iştirak etmək üçün qanuni haqqı var və təhsil müəssisəsi qarşısında tələblərlə çıxış edə bilərlər. Onların öz övladlarının nəticələri ilə bağlı hesabat tələb etməyə haqqı var.

Ata-ana və ya valideyn hüququnu daşıyan şəxs kimi, bu, onların mənəvi borcudur, həm də vergiödəyənlər qismində buna hüquqları var. Amma təhsil müəssisəsi də öz vəzifəsini yerinə yetirməyin mümkün və effektli yolunu valideynlərin təhsil prosesində səriştəli iştirakında görür. Təcrübə göstərir ki, bunsuz həmişə yüksək nəticəyə nail olmaq çətindir. Əksinə, valideynlər "pedaqojiləşdikcə" uğurlar artır.

Söhbət valideynlərin tədris prosesinə, fənn tədrisinə yönləndirilməsindən getmir, onlar təhsil prosesinin yaxın və pozitiv iştirakçısı olmaqla hətta övladlarının tədris prosesində çətinliklərinə necə kömək etməyin yollarını bilirlər. Onlar bacarıqlı müəllimlərin bacarıqlı tərəfdaşı olur, yeni təhsil mühiti yaratmış olurlar.

Təhsil hazırda həm də sosial və iqtisadi amildir, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, insan kapitalının inkişafı, ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması təhsil sisteminin başlıca vəzifəsini təşkil edir. Təhsil artıq ictimai və tarixi paradiqmaya çevrilib. Dövlətin və cəmiyyətin bütün göstəricilərində onun təməl payı var. XVII əsrdə çex pedaqoqu və yazıçısı Yan Amos Komenski indi də mövcud olan sinif-dərs sisteminin əsasını qoymuş, sonrakı dövrlərdə isə tədrisin alman modeli formalaşmışdır. Alman modeli Vilhelm Homboltun təşəbbüsü ilə universitet təhsilini mütərəqqi formasına ( mühazirə -seminar) çevrildi və bütün Avropaya yayıldı. Alman modeli müəllim və tələbələr arasında qarşılıqlı ünsiyyəti yeni mərhələyə qaldırdı və təhsil azadlığı ideyasına söykənirdi. Alman modeli və klassik təhsil sistemi dayanmadan, bizim dövrümüzə qədər dəyişməyə başladı. Dəyişməyən forma və cəhətlər də qalmaqdadır, amma innovasiyalarla yanaşı, yeni paradiqmalar və ideyalar da ortaya çıxmışdır.

**Hazırda bütün dünyada səriştələrə yönəlik təhsilin qurulması bizim çağın yeni təhsil ideyasına çevrilib. Şagirdlərə və tələbələrə hazır bilikləri mənimsətmək modeli artıq səriştə və bacarıqların yaradılması ilə əvəzlənir. Biliklər səriştələrə keçməli, təcrübədə özünü doğrultmalıdır.**

# Lavrovun «dəfn edilib» - dedyi Minsk Qrupu ilk «ölümcül» zərbəni Bakıdan alıb...

**Xatırlayırsınızsa, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışında ATƏT-in Mins Qrupunun izahını vermişdi: "Biz uzun illər, 30 il gözlədik ki, beynəlxalq ictimaiyyət tərəfindən bu məsələnin həlli tapılacaq və işğala son qoyulacaq", - deyən Prezident İlham Əliyev qeyd edib ki, bu məqsədlə 1992-ci ildə ATƏT-in Minsk qrupu təsis olunmuşdu. Qrupun funksiyası münaqişənin həlli, işğala son qoymaq idi. Lakin əksinə, ATƏT-in Minsk qrupu, sadəcə, bir alətə çevrilmişdi".**



Və elə o gündən ATƏT-in Minsk qrupu dünyanın gözündən düşməyə, təsir qüvvəsini itirməyə başladı

Rusiyanın Azərbaycanla-Ermənistan arasındakı münasibətlərin normallaşmasında vasitəçilik missiyasına paralel olaraq, biz digər oyunçuların bu prosesə maneə olmaq cəhdlərini görürük. Adalet.az panorama.am -a istinadən xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bu gün keçirdiyi mətbuat konfransında bildirib:

"Biz bununla bağlı heç bir problem yaşamamışıq. Qərb xüsusi hərbi əməliyyat başlayandan sonra Paris və Vaşinqtonun dili ilə rəsmi bəyan edib ki, onlar Rusiya ilə heç bir formatda əməkdaşlıq etməyəcəklər. Bununla da onlar ATƏT-in Minsk Qrupunun fəaliyyətinin bitdiyini elan ediblər. Ona görə də, bizim erməni həmkarlarımız hərdən Minsk Qrupunu xatırlayanda, biz onlara deyirik ki, sualı bizə yox, ABŞ-a və Fransaya verin. Əlbəttə ki, sual həm də Azərbaycanadır.

Ona görə ki, Azərbaycanın iştirakı olmadan hansısa vasitəçilik missiyası mənasızdır. İndi amerikalılar, fransızlar, ümumilikdə Avropa İttifaqı özləri tərəfindən dəfn olunan Minsk Qrupunu hazırki vasitəçilik xidmətlərinə maneə olmaqla kompensasiya etməyə cəhd edir və Rusiyanın iştirakı ilə tərəflər arasında əldə olunan razılaşmaları özəlləşdirməyə çalışırlar. Misal üçün, Brüsseldə sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın iclasını keçirirlər. Azərbaycanlılar və ermənilər mədəni insanlardır. Onlar ora gedirlər. Amma mənə təsəvvür etmək çətindir ki, ancaq Rusiyanın Baş Qərargahında mövcud olan keçmiş sovet respublikalarının xəritəsi olmadan, delimitasiya məsələsini və eyni ilə sülh müqaviləsini necə müzakirə etmək olar", - Lavrov deyib.

Lavrov onu da bildirib ki, hazırda Minsk Qrupunu heç kəs xatırlamır: "Hərdən Ermənistanda siyasi xadimlər xatırlayırlar. Minsk Qrupunu fransızlar və amerikalılar dəfn ediblər. Bizim burada heç bir günahımız yoxdur".

***P,S.** Əgər bu gün Qarabağ müharibəsinin 27 il uzanmasında xüsusi rolu olan ATƏT-in Minsk qrupu Lavrovun dediyi kimi dəfn edilibsə, deməli, bu qurum ilk "ölümcül" zərbəsini məhz Azərbaycan Prezidentindən alıb.*

**Əntiqə Rəşid**

*Fazil Mustafa*



# XORUZLARIN TOYUQLARI DƏSTƏKLƏMƏSİ

*Fransa Erməni Assambleyası Azərbaycanı təcavüzkar adlandıran və sanksiyalarla hədələyən qətnamə qəbul etdi. Bundan əvvəl Senat da belə bir qətnamə qəbul etmişdi. Hər ikisi də hardasa yekdilliklə.*

*Təbii ki, Fransanın bizə açıq düşmənçilik mövqeyi göstəməsinin və 256 xoruzun 44 günlük savaşda məğlub etdiyimiz toyuqlarını dəstəkləmək üçün çıxardığı qərarın İranın Qafandakı konsulluğunu bacasından çıxan tüstü qədər Azərbaycan üçün əhəmiyyəti və təsiri olmayacaq. Ona görə də bu kimi qərarları daha soyuqqanlı qarşılamalı və xeyrimizə işləyən variantlar üzərində düşünməliyik. Xeyrimizə olan nədir? Bütün hallarda bir çox dövlətlər Ermənistana nə qədər rəğbət bəsləsələr də irəlidə bütün danışıqların subyekti birmənalı şəkildə Azərbaycan olmalıdır. Baxın ABŞ və Rusiya da ermənilərin xeyrinə çalşır, ancaq gələcək danışıqlarda kənarda qalmamaq üçün bu cür münsibətləri kəsəcək addımlar atmırlar.*

*Ən azı açıqlamalarda müəyyən dərəcədə balansı saxlamağa çalışırlar. Fransa artıq düşmən dövlət olduğuna görə bizim Avropa Birliyi, Rusiya və ya ABŞ-ın iştirakı ilə sülh üçün aparacağımız hər hansı bir vasitəçilik müzakirələrində birmənalı kənarda saxlanacaq. Necə ki, Avropa Birliyi ilə müzakirələrdə Makronun iştirakı tələbinə Azərbaycan Prezidenti haqlı olaraq rədd cavabı verdi və müzakirələr kəsildi. Əslində bu addımı ilə Fransa Avropa Birliyinin Rusiya qarşısında mövqeyinə öldürücü zərbə vurmuş oldu. Artıq Fransanın hər hansı bir formatda yer alması həmişə Azərbaycan üçün olmazsa-olmaz məsələsi kimi baxılacaq. Necə ki, İran atdığı düşmənçilik addımı ilə bizim İzraillə əməkdaşlığımızı ən yüksək səviyyəyə qaldırdı. İllər öncə Türkiyənin də üzərində bir soyqırım kabusu dolanırdı. ABŞ-dan tutmuş Fransaya qədər hamısı həvəslənib bir-birinin mətnini təkrarlayan qərarlar qəbul etdilər. Nə oldu? Türkiyə ondan sonra bölgədə və dünyada öz gücünü daha da artırdı. Silah embarqosu qoydular, əvəzində özü ən modern silahlar istehsal edərək milli maraqlarını qətiyyətlə qorumağa davam etdi.*

*Bir şey unudurlar ki, biz xarakterdə olan dövlətlər üzərinə nə qədər ədalətsiz hücumlar olacaqsa, nə qədər üzərimizə bu cür xoruzlanacaqlarsa, o halda daha qətiyyətlə öz milli marağımız uğrunda dirənişimizi göstərəcəyik.*

*Rüstəm Hacıyev*

# ABŞ qarışdırdığı "zibili" Dnepr çayı da yuya bilmir



**ABŞ və Avropa ölkələri, Rusiya-Ukrayna münaqişəsi bitdikdən (?) sonra, tərəflər arasında dialoqda iştirak edəcəklər. Qərbin bu planları barədə Tagesspiegel qəzetinə müsahibəsində Mərkəzi Kəşviyyat İdarəsinin eks rəhbəri, general Devid Petreus məlumat verib.**

**"Ukraynada döyüşlər başa çatdıqdan sonra (...), münaqişə danışıqlar yolu ilə davam etdiriləcək. Lakin, hələ ki, nə Vladimir Putin, nə də Volodimir Zelenski bu danışıqlara hazır deyillər. Vaxtı gələndə (...) ABŞ, Böyük Britaniya və digər ölkə liderləri Ukrayna və Rusiya ilə, qərarların hazırlanması və həyata keçirilməsi üzərində birgə çalışacaqlar"- deyə MKİ-nın eks rəhbəri bildirib.**

**Əslində Müharibənin ən qızğın dövründə Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan, Vladimir Putin və Volodimir Zelenskiylə apardığı danışıqlar zamanı hər iki lideri İstambulda bir araya gətirməyi razılaşdırmışdı. Lakin, indi əl-ayağa düşən ABŞ və Qərb bütün səylərilə buna mane oldular və danışıqlar baş tutmadı.**

**ABŞ və Avropa ölkələri Zelenskiyə "başa saldılar ki", Rusiya İşğal etdiyi ərazilərdən çıxmayanadək, danışıqlar masasına oturmamalıdır. Zelenski də onların bu "əmrini" yerinə yetirdi və Ərdoğana söz verməsinə baxmayaraq okeanın o tayındakı xozeynlərinin tapşırığı ilə danışıqlardan imtina etdi.**

**Bir tərəfdən güya müharibənin dayandırılmasına çalışdıqlarını nümayiş etdirdiklərini gözə soxan Qərb və ABŞ, digər tərəfdən Ukraynanı ən müasir silahlarla təhciz etməkdədir. Yəni bürün münaqişələrdə olduğu kimi ikili, bəzən isə üçlü oyun oynayırlar.**

**Ukraynada isə qanlı müharibə davam etməkdədir. Şəhərlər, kəndlər xarabalığa çevrilir, infrastrukturlar məhv edilir, həm hərbiçilər, həm də mülki əhali arasında itkilərin sayı artıq yüz minlərlə ölçülür. Müharibə sanki sonsuzluğa qədər uzanmaqdadır...**

**Rusiyanın atom bombası təhdidlərindən sonra, təlaşa düşən ABŞ və Avropa, artıq müharibənin uzanmasında Ukraynanı və onun prezidenti Volodimir Zelenskini ittiham etməkdədirlər. Amerika kəşviyatının keçmiş əməkdaşı Filip Ceraldi Ukrayna prezidentini NATO-nu bu müharibəyə qoşmağa çalışmaqda günahlandırıb. Ceraldi bəyan edib ki, Zelenski Polşa ərazisinə raket atmaqla Şimali Atlantika alyansını nizamnamənin beşinci maddəsini yerinə yetirməyə məcbur etmək istəyir : "Zelenski cox çalışır ki, ABŞ və NATO silahlı münaqişəyə qoşulsun".**

**Görünən odur ki, ABŞ yüz illərdi əzəli və əbədi rəqibi Rusiyanı çökdürmək iqtidarında deyil, gücü yalnız nisbətən iqtisadi cəhətdən zəiflətməyə çatır və bununla yanaşı, eyni zamanda öz iqtisadiyyatınıda zərbə altına salmış olur.**

## *Narkomaniya ilə mübarizədə üzücü statistika*



**Azərbaycanda dövlət səviyyəsində narkomaniya ilə mübarizə aparılsa da, istifadəçilərin sayı artır.**

Adalet.az xəbər verir ki, bunu "Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti" adlı tədbirdə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Səbinə Əliyeva deyib:O bu haqda danışarək qadınların arasında bu sayın olduqca çoxaldığını deyib.

"Cəzaçəkmə müəssisələrinə baş çəkən zaman narkotiklə bağlı cinayətlərə görə saxlanılan qadın məhkumları görmək mənə çox pis təsir edir. Statistikaya görə, 2020-ci ildə ümumi 33788 nəfər narkotik istifadəsi kimi rəsmi qeydiyyatda olubsa, 2022-ci ildə bu rəqəm 34602 nəfərdir", - deyə Səbinə Əliyeva qeyd edib.

**Əntiqə Kərimzadə**



Cəlil Cavanşir

# Yazmaq və xilas olmaq...

**Uşaqlığım sovet nəşrlərini oxumaqla keçdi. Məlum, nə internet, nə başqa əyləncə vardı. Bəzən günlərlə elektrik olmazdı, qaz yerli-dibli yox idi. Hansısa bir filmin, cizgi filminin ortasında işıq sönür, sonra günlərlə mən o filmərin sonunu xəyal edir, özümdən sonluqlar uydururdum. Məlum, müstəqilliyin ilk illəri, imperiyadan qopmuş, Qarabağ daxil bütün problemlərdə dünyada təklənmişdik. Hələ Sovet mirası bölünməmişdi, dünya bazarına neft-qaz çıxarmırdıq. Ölkəyə turist nədir, heç qonaq da gəlmirdi. Afrikanın müstəmləkələrindən bir fərqimiz yoxdu. Amma ümidimiz vardı. O ehtiyacın, o yoxluğun içində atamın göy gözləri daim parıldayırdı. Nənəm, anam daim əndişə içində olsa da, atam durmadan hərəkətdə və ümidli idi...**

**Sovet nəşri olan təbliğat kitablarını, jurnaldakı məqalələri oxuyurdum. Kapitalizmə nifrət aşılayan o kitablar, kapitalla ilk dəfə tanış olanda dünyanın heç də gözəl bir yer, kapitalizmin də ədalətli bir sistem olmadığını anladım.**

**Məktəbdə isə bizə nimdaş geyimli, ayaqqabıları yamaqlı, maaşını aylarla ala bilməyən, dərsilik olmadığı üçün əlinə nə keçsə ordan bizə dərs yazdıran müəllimlərimiz azadlıqdan, demokratiyadan, müstəqillikdən danışırdı.**

**Ayaz Mütəllibov devriləndə, Surət qiyamında, Elçibəy Kələkiyə gedəndə, Heydər Əliyev Bakıya gələndə, Rövşən Cavadov qiyam qaldıranda, torpaqlarımız işğal ediləndə, Əsrin müqaviləsi bağlananda uşaqdım.**

**Atamın əlimdəki kitabı odun peçinə atdığı da olub, ev işlərini görməyib kitab oxuduğum üçün cəzalandırdığı da...**

**Sürətlə baş verən dəyişikliklər, bəzilərinin sürətlə varlanıb, bəzilərinin dilənçi kökündə yaşaması, sosial bərabərsizlik və ədalətsizlikləri görə-görə böyüdüm...**

**Gəncliyim ölkəyə neft pullarının axdığı, oliqarxiyanın, rüşvətxorluğun, məmur özbaşnalığının tüğyan etdiyi dövrə düşdü.**

**Oxuduqlarım, gördüklərim zehnimi tətiklədi. Bəlkə bir az da istedadım vardı, bilmirəm. O vaxtdan yoluxdum yazmağa.**

**...Tələbəydim. İndi ciddi biznesmen və iş adamı olan bir tələbə yoldaşımla bir evdə qalırdıq. Məlum, mən qələm adamlarına, şairlərə, jurnalistlərə, yazıçılara qoşulmuşdum. Özüm kimi idealistlərlə oturub- dururdum. İlk dəfə ev yoldaşım məni "danladı". İlk dəfə "ədəbiyyatdan, yazıdan bir şey çıxmaz, pul qazanmaq üçün biznes qurmalısan, başqa işlər görməlisən" dedi.**

**Bir ara cəhd etdim. İnternet klub işlətdim, hazırlıq kursu açdım, jurnal-qəzet nəşriylə məşğul oldum. Ancaq olmadı. Hər şeyi atıb Bakıya gəldim. O zaman da atam "danladı". "Başqa bir iş tap, sonra yenə yazarsan" dedi. Amma mən dəfələrlə eşitdiyim bu sözü həzm edə bilmirdim. Bildiyim yolla gedirdim. Həyatımda olan bütün yaxşı şeylərə görə ədəbiyyata, kitablara borcluyam.**

**İllərlə dözdüyüm məhrumiyyətlərin, yaşadığım sıxıntıların, ehtiyacların bir dəyəri olduğunu düşünürdüm. Çünki mənim oxuduğum kitablar mənə bunu öyrətmişdi. Tapmasan belə ömür boyu ədaləti axtarmalı və mübarizə aparmalısan...**

**Bir az romantik, bir az idealist, bir az ümidli adamam. Məndən biznesmen, iş adamı, şirkət rəhbəri, məmur, bənna, dülgər, suvaqçı, usta olmaz. Yarıtmaram, yetərli ola bilmərəm bu işlərdə. Oxuduqlarımın, öyrəndiklərimin içində rahatam. Faydalı və dəyərli işlərin altında imzam var, bu mənə yetər. Valideynlərim, övladlarım, qohum-qardaşım, dostlarım çox dəfə məni qınayıb. Bir faydam olmayıb, olmayacaq. Varlığımla kifayətlənirlər.**

**Son vaxtlar hər şey üst-üstə gəlir, problemlər, sıxıntılar və s. Zərrəcə umrumda deyil. Özüm üçün, gələcək üçün bəzi qənaətlərim, düşündüyüm bir gedişat var. Heç nəyə mane olmaq istəmirəm, heç nəyi dəyişmək istəmirəm. Zatən istəsəm də, mümkün deyil. Axarına buraxmışam həyatı...**

**Son vaxtlar dəlicəsinə yazmaq istəyirəm...**

**Yazmaq və xilas olmaq.**

**Hə...mən sovet nəşrlərindən kapitalist ölkələrdə istismar olunan insanların acınacaqlı halına üzülən, kapitalist ölkələrdə ac, oyuncaqsız, ehtiyac içində və səfil böyüyən uşaqlara ağlayan, sovet dövründə doğulmuş kapitalist sistemdə böyüyən bir uşaqdım... və yeganə məşğuliyyətim oxumaqdı.**

# Şəmkirli Hovannes: Marşal İvan Baqramyanın erməni xisləti

*Əziz oxucularım, növbəti dəfə sizə məşhur bir erməninin "erməniçiliyi " haqqında danışmaq istəyirik.*

*İki dəfə Sovet İttifaqı Qəhrəmanı, Sovet İttifaqı marşalı İvan Baqramyan xislətçə digər məşhur ermənilərdən heç nə ilə seçilmədiyinin şahidi olacağıq.Müsahibim, dəyərli araşdırmaları ilə oxucularının qəlbində taxt quran, Azərbaycanın tanınmış yazarı, hərbi jurnalisti, doqquz kitab müəllifi İlham Cəmiloğludur. İlham müəllimlə birlikdə sizi bir ermənininin iç üzü ilə tanış edəcəyik.*

**- İlham müəllim, müşahidələrimə əsasən bu qənatə gəlmişəm ki, Azərbaycanın torpağında doğulmuş (təbii ki, ermənilərin hamısı Azərbaycan torpaqlarında doğulub ) ermənilər bizə qarşı Ermənistanda doğulmuş ermənilərdən daha çox nifrət edir, daha böyük düşmənçilik edir. Elə bu Baqramyan kimi...**

- Əslində ermənənin harada doğulmasından, harada yaşamasından asılı olmayaraq türk xalqlarına qarşı bunlarda genetik bir nifrət var. Sadəcə, Azərbaycanın içində , süfrəmizin başında oturan, çörəyimizi yeyən, dövlətimizin hesabına "adam" olan ermənilərin zərbəsi bizi daha çox incidib. Məsələn, Xocalı qətliamının günahkarları olan Serj Sarksyan, Robert Köçəriyan, Kamo Ağacanyanın qəddarlığı bizi daha çox ağrıdıb. Qaldı Sovet İttifaqı marşalı İvan Baqramyana, o da 2 dekabr) 1897-ci ildə Azərbaycanın Şəmkir rayonunun Çardaxlı (Çənlibel) dağ kəndində anadan olub. Bax həmin Hovannes adlı erməni uşaq ömrünü nəinki Azərbaycana, eləcə də bütün insanlığa qarşı nifrətlə yaşayıb.

**- İlham müəllim, təəsüf ki, ermənilələ 200 ildir bir torpağı bölüşürük, bir məkanda yaşayırıq, amma onların iç üzünü son 30 ildə yaxşı tanıdıq. Çardaxlıda doğulan erməni marşalın xislətində nəsə bir dəyişiklik vardımı? Yoxsa oda"genetik zəhərlə" zəhərlənmiş bir erməni idi?**

- İvan Baqramyan haqqında araşdırma apararkən müxtəlif dilli mənbələrə müraciət edərkən, Azərbaycanda doğulmasına, o mühitdə böyüməsinə baxmayaraq Hovannesin erməni xislətini aydın gördüm. Baqramyan şəxsi maraqları üçün hər an mövqeyini dəyişməyə qadir bir şəxs olub. "Çevik" transferlik qabiliyyətinə malik Baqramyan əvvəlcə Rus imperiyası ordusunda, sonra daşnak ordusunda, daha sonra isə Qızıl orduda xidmət edib. Baqramyan öz rahatlığı və karyerası üçün bütün vasitələrə əl atıb, hiyləgər manevrləri ilə özünü və hərbi karyerasını qoruya bilib. Düzdür, o, həmişə istədiyinə nail ola bilməyib. Xüsusilə də Stalinin nüfuzlu hərbçilər siyahısında onun adı əks olunmayıb. O, nə qədər canfəşanlıq etsə də, Stalindən nə marşal rütbəsi, nə də "Qələbə" ordeni ala bilməyib. Mikoyan bir neçə dəfə Stalindən bunu xahiş etsə də, Baqramyanın arzuları gerçəkləşməyib.

**- Bayaq bir -iki erməni mənbəsinə baxdım, ermənilər yazır ki, guya Baqramyan Stalinlə çox yaxın dost olub.**

- *(Gülür)* Növbəti erməni uydurmaları... Bəli, erməni tarixçiləri onun haqqında az qala əfsanələr yaradıblar, alman faşizmi üzərində qələbənin təmin olunmasında onu müharibə qəhrəmanına çeviriblər, hətta İvan Baqramyanı İosif Stalinin yaxın silahdaşlarından biri kimi təqdim ediblər. Sözsüz ki, bu cür təqdimat mifdən, əfsanədən başqa bir şey deyil. Bir neçə tarixi fakta nəzər salsaq, söylənilənlərin heç bir həqiqətə uyğun olmadığının şahidi olarıq.

**- Məsələn...**



- Müharibə başlananda Baqramyan şimal-şərq cəbhəsinin qərargah rəisinin müavini vəzifəsində xidmət edib. Almanların hücumu zamanı o, öz əməliyyat rayonunda vəziyyəti düzgün qiymətləndirə bilməyib, son dərəcə təhlükəli əməliyyat şəraiti haqqında Baş qərargaha vaxtında məlumat ötürməyib. Bu cür qeyri-peşəkar yanaşma Baş qərargahda Stalinin iştirakı ilə keçirilən əməliyyat müşavirəsində sərt tənqid olunub.

**-Daha sonra?**

- İkinci dəfə o, öz qeyri-peşəkarlığını 1942-ci ildə Xarkov əməliyyatında nümayiş etdirib. Həmin ərəfədə cənub-qərb cəbhəsinin qərargah rəisi olan Baqramyanın uğursuz əməliyyatı SSRİ-yə baha başa gəlib. Əməliyyat zamanı sovet ordusunun 180 minə qədər döyüşçüsü, 900-dən artıq texnikası



məhv edilib, 250 min nəfər əsir götürülüb. Bununla da alman qoşunlarının Stalinqrada və Qafqaza yolu açılıb. Bu uğursuz əməliyyat Dövlət Müdafiə Komitəsində müzakirəyə çıxarılıb.

Stalin cənub-qərb cəbhəsinin hərbi şurasına məktub ünvanlayıb: "Uğursuz Xarkov əməliyyatı üç həftə ərzində 20 diviziyanı alman qoşunlarına təslim etdi. Bu məğlubiyyət Baqramyanın qeyri-peşəkarlığının nəticəsidir. Onun bu gündən sonra cənub-qərb cəbhəsinin qərargah rəisi vəzifəsində xidməti məqsədəuyğun sayılmır..."

**- İlham müəllim, sözünüzü kəsmək kimi olmasın, bir dəfə bir Rusiyaya məxsus TV-kanalda Böyük Vətən müharibəsindən bəhs edən verlişdə Baqramyanın xəyanəti haqqında özüm dinləmişdim..**

- Baqramyan uğursuz Xarkov əməliyyatından sonra tutduğu vəzifədən azad olunub. Əslində, dövrün mövcud Stalin qanunlarına görə, Baqramyan güllələnməyə məhkum olunmalı idi. Amma bu dəfə də erməni həmrəyliyi onu xilas edib. Mikoyan Baqramyan üçün Stalinə ağız açıb. Həmin hadisələrdə Georgi Jukov da Stalindən Baqramyan üçün möhlət istəyib.

Baqramyan hədsiz dərəcədə pafoslu bir şəxs olub, ən kiçik hadisələri belə, "təmtəraqla" təqdim etməyi bacarıb. Çoxlarının bildiyi bir hadisə də buna sübutdur.

**-Sizin mətbuatda Baqramyan haqqında bir lətifənizi də oxumuşdum... o qədər gülmüşdüm ki...Onu xatırladarsınızmı?**

- Müharibə vaxtı Baltik sahilində ilk olaraq Baqramyanın başçılıq etdiyi hərbi birləşmə mövqe tutub. Erməni general qürrələnərək Baltik dənizinin suyunu şüşə qaba doldurub və adyutantına tapşırıb ki, təcili Moskvaya uçub, suyu Stalinə çatdırsın. Adyutant təyyarədə uçarkən almanlar Baqramyanın qoşunlarını geri çəkilməyə məcbur edib. Təbii ki, bu məsələdən Stalin də məlumatlı olub.

Bunlardan xəbərsiz olan adyutant isə Stalinin qəbuluna gəlib və suyu ona təqdim edib:

*- Yoldaş Stalin, qabda Baltik dənizinin suyunu gətirmişəm.*

Stalin bir-neçə dəqiqə diqqətlə və eyhamla suya baxdıqdan sonra onu adyutanta qaytarıb:" Siz bu suyu Baqramyana qaytarın və deyin ki, suyu haradan götürübsə, elə ora da boşaltsın".

*- Ay Allah mən buna nə qədər gülmüşdüm...*

Stalin heç vaxt Baqramyanı ciddi qəbul etməyib.Hətta ziyafətlərin birində Stalin üzünü ona tutaraq bu məsələni zarafata salıb: "Gürcülərdən bir marşal var. Amma o həqiqi marşal deyil, "parket" marşaldır (Beriya nəzərdə tutulub). Ermənilərdən isə marşal yoxdur, "parket" marşal olmaqdansa, həqiqi marşal olmağın vaxtını gözləmək lazımdır". Baqramyanın həyat yoluna diqqət etsək, görərik ki, Stalinin hakimiyyəti dövründə o, Mərkəzi Komitənin üzvü seçilməyib. Jukovun, Mikoyanın, Vasilevskinin xahişlərini belə, Stalin nəzərə almayıb. O, cümlədən Stalin ona marşal rütbəsi verməkdən də imtina edib. Baqramyanın karyerasında Xruşovun hakimiyyətə gəlməsi növbəti uğur mərhələsini açıb.

**- İlham müəllim, Rusiya , eləcə də dünya mediası Azərbaycan oğlu general Həzi Aslanovun vaxtsız ölümündə Baqramyanın əli olduğunu iddia etdi. Mediamız da bu haqda yazdı:" 1943-cü ildə isə 1-ci Baltik cəbhəsinin komandirliyinə keçir və burada xidmət edən general-mayor Həzi Aslanovun da rəisi olduğu 35-ci tank briqadası ona tabe olur.Bir azərbaycanlının yüksəlməsi heç vaxt bir ermənini sevindirə bilməzdi. 1944-cü ildəki Belarus kampaniyalarında xüsusi uğur qazanan Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adını almağa namizəd göstərilir. Amma məhz 29 iyul günü Ovanes (Hovannes) Baqramyan Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Belarus kampaniyasının əsas uğur meyarı olan Aslanov isə ikinci dəfə "Qırmızı Ulduz " medalı ilə təltif edilir.**

**Aslanovun qəhrəmanlıq adını mənimsəmək istəyən Baqramyanın kini bununla da bitmir.**

**SSRİ hərbi rəhbərliyində təmsil olunan erməni generalı onunla bağlı ciddi qərar verməyə tələsir.**

**Çünki general Aslanov artıq Baltik cəbhəsinin əsas hərbi lideri və söz sahibinə çevrilirdi.**

**Burada isə artıq 4 ay idi ki, Aslanov Baqramyanın tabeliyində xidmət edirdi. O, xırda yara almışdı, yaxınlıqdakı hərbi xəstəxanada yatırdı. 1945-ci il yanvarın 23-də Baqramyan H.Aslanovu xəstəxanadan yanına çağırıb deyir: "Biz bu gün-sabah böyük hücum əməliyyatlarına başlamalıyıq. Yaxşı olardı ki, sən özün gedib hücum sahəsini təyin edəsən". "Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945-ci ildə Latviyanın Liepay rayonunda almanlarla döyüşdə qəhrəmancasına həlak olur". Bu rəsmi açıqlama idi.**

**Həzinin dostu Klimenkonun dediyinə görə, Aslanov Baqramyanın yanından çıxıb, öz hissəsinə gəlir və dincəlmək üçün həyətdə içində isti soba olan budkalı maşına girir. Aradan 10-15 dəqiqə keçməmiş H.Aslanov olan maşın altı lüləli minaatandan atəşə tutulur. H.Aslanov ağır yaralanır. Məsələ burasındadır ki, həmin minaatanı almanlardan bizim döyüşçülər qənimət kimi götürübmüşlər. O silah bizim öz ərazimizdə imiş, ondan ancaq bizim tərəfdən atəş açıla bilərdi. Elə təəccüb doğuran da budur". Əsl erməni məkri...**

- Haqlısınız, əsl erməni xisləti... Şəxsi ambisiyalarına görə xəyanət yolunu rahatlıqla seçən Baqramyan 1964-cü ildə, bu dəfə Brejnevə dəstək olaraq Xruşovun devrilməsində fəallıq göstərib və yeni komandada mövqelərini möhkəmləndirib. Brejnevin hakimiyyəti illərində o, müdafiə nazirinin müavini və Müdafiə nazirliyinin Baş inspektorlar qrupunun baş inspektoru vəzifələrində xidmətini davam etdirib.

Baqramyan öz hiyləgərliyi sayəsində yeganə yüksəkçinli hərbçilərdən biri olub ki, ölən gününə, 21 sentyabr 1982-ci ilə, 84 yaşına qədər hərbi mundirdə vəzifə başında olub.

**- İlham müəllim, maraqlı müsahibəyə görə sizə təşəkkür edirik!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**



Zaur Əhməd

# Susaraq danışanlar

*İnsanı möhkəmləndirən, onu mübariz edən, ayaqda qalmasına zəmin yaradan acıdır, iztirabdır, çətinlikdir, həyatın enişyoxuşlarıdır. Bunu hansısa kitabdan oxumaqla anlamaq mümkün deyil.*

*Gərək özün bu ağrı-acını yaşayasan, bərkə-boşa düşəsən, sənə dəyən zərbələrdən yıxılanda özünü toparlayıb ayağa durasan ki, güclənəsən.*

*Arxanda, yaxud yanında kimin olmasından asılı olmayaraq, öz içində təpər olmasa, heç vaxt güclü ola bilməyəcəksən. Bunu mənə keçdiyim həyat yolu öyrədib. Çünki güvəndiyimiz dağlara biz uşaq ikən qar yağmışdı. Yıxıldıq, əzildik, silkinib durduq, böyüdük, öz ayağımız üstə dayanmağı öyrəndik. Nə yanımızda, nə də arxamızda bir kimsə var idi. Bircə başımızın üstündəki Allahdan başqa...*

*İndi yerimizdə qaya kimi möhkəm dayanmışıq. Odur ki, heç bir dağın qarlı havası bizi üşüdə, heç bir güc bizi yerimizdən tərpədə bilməz.*

*Bu böyüklüyə, bu mətinliyə, bu möhkəmliyə sahib olmaq bizə çox baha başa gəlib. Bunun bədəlini çox ağır ödəmişik. Hər zaman o fikirdə olmuşam ki, dərd insanı əzmir, əzilməyə qarşı daha davamlı, daha müqavimətli, daha güclü edir. Təbii ki, heç kimə belə güclənməyi, belə möhkəmlənməyi arzulamıram. O ağır mərhələni keçmək elə də asan olmur. Bəzən insan yarı yolda məğlubiyyət bayrağını qaldırmaq, dərdə, qəmə tabe olmaq məcburiyyətində qalır. Amma üsyankar ruhlular heç vaxt məğlubiyyəti qəbul etmirlər. Və beləcə bərkiyirlər...*

*Dərdli adam dərdlini uzaqdan tanıyar. Bəzən mənə elə gəlir ki, bütün dərdli, sınıq adamların ruhlarını bir-birinə hansısa tellər bağlayır. Aralarında uzaq məsafələr, uzun fasilələr olsa da, gözlərindəki iztirabdan anlayırlar eyni olduqlarını. İllərdir ki, bir xalq olaraq itkilərimiz, acılarımız olur. Hər şəhid xəbəri gələndə hamımız yanmışıq, qovrulmuşuq, amma əzizi şəhid olanlar həmişə ikiqat yanıblar. Atamın şəhid xəbərini aldığım gündən 30 ilə yaxın vaxt keçib, amma hər dəfə başqa bir evə şəhid xəbəri gələndə o günü bir daha yaşayıram. O acını bütün hüceyrələrimdə yenidən hiss edirəm. "Zaman dərdləri unutdurur" deyirlər, amma... düz demirlər, elə şey yoxdur. Zaman, sadəcə, dərdləri, yaraları qaysaqladır. Eyni dərddən görəndə, qaysağımız qopur, yaramız qanayır, dərdimiz təzələnir...*

*Bu günlərdə əməkdaşlarımız "Qaraheybət" aviasiya poliqonunda təlim zamanı şəhid olmuş zabitimiz Cavid Bayramlının evindən reportaj hazırlamışdılar. Şəhidin qızı Mira Bayramlı atası üçün necə darıxdığını ifadə etdiyi üç cümlənin əks-sədası hələ də qulağmdan getmir. Dünyanın bütün acılarını özündə təcəlla etdirən gürz kimi ağır cümlələr... O qızcığazın: "Atamla vidalaşmaq üçün Şəhidlər Xiyabanına gedəndə artıq yolda darıxmağa başladım", - deyərək kövrəldiyini, amma yenə də özünü qürurlu aparmağa çalışdığını, yəqin ki, hələ uzun müddət unuda bilməyəcəyəm.*

*Sosial şəbəkədəki hesabımda sözügedən paylaşıma olan 30 mindən çox baxış, yüzlərlə üzgün rəylər bizim bir millət olaraq nə qədər yaralı olduğumuzu bir daha göstərdi.*

*Dostumuz, Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədlinin də həmin paylaşımdan təsirlənib mənə telefon açması "eyni dərdi olanlar bir-birini anlayar" həqiqətinin üzərinə işıq saldı. Axı o da əzizini vətən uğrunda şəhid verib. Belə baxanda, biz dərddaş sayılırıq.*

*Bəli, eyni dərdi olan adamlar bir-birini sözsüz də anlayırlar. Natiq bəylə telefon danışığımız elə bu cür oldu. Titrək səslə: "Şəhid qızının danışığı məni çox təsirləndirdi..." - dedi və sonra... danışa bilmədi. Heç mən də nəsə deyə bilmədim. İkimiz də kövrəldik, özümüz danışmadıq, amma ruhlarımız bir-birinə çox şey dedi. Kim bilir, bəlkə də, ən dərin, ən dəruni söhbətlər beləcə - bir yerdə susmaqla edilir.*

Şamil Sadıq

# Mənə görə ayıbdır!



*Bilirsiniz nədir ayıb olan, bir insanın, yazıçının görkəmindən, geyim tərzindən, yaşam tərzindən istifadə edib onu dilənçi obrazında təqdim etmək. Görürəm naşirindən tutmuş oxumayan oxucusuna qədər hər kəs Əlisa Nicatın şəklini paylaşıb, bank kartı paylaşıb ürək ağrısı ilə dəstək istəyirlər. Bu bilirsiniz nədir, millətin özgüvənini, ruhunu sındırmaq, bunu görəndə heç kim heç kimi yox birinci özünü qınamalıdır. Dövlət bababın günahı öz boynuna. Bəs sən vətəndaş olaraq, boy-boy şəkil paylaşıb yazıq kimi təqdim etdiyiniz Yazarın kitabını nə vaxt almısan? Tutuquşu kimi 100 kitab müəllifi deyib, özünüzümüzü ağıllı aparmaqla deyil ki... Bu bizim reallıqdır, bəzən adam öz reallığından belə utanır və bunu sillə kimi adamın üzünə vurmaqla xalq qazanmaq lazım deyil. Dəyəri belə vermirlər, dostlar, dəyər başqdır. Belə səmimisinizsə, həm Əlisa Nicatı çap edən naşirlərə, həm də bəh-bəhlə paylaşan oxumayan oxuculara üzümü tuturam və deyirəm, 2,3,4 dekabr tarixlərində Əlisa Nicatın kitablarının satışını qapaq qiymətinə Kitabevim.az da satışa qoyuruq. Kitabın satıldığı qiyməti olduğu kimi, Əlisa bəyin özünə veririk. Hədəf Nəşrləri olaraq 2021-ci ildə 85 illik yubileyinə həsr edilmiş Xatirələr kitabını təqdim edirik. Çox ürəyiniz yanır, kitabın alın, oxuyun, həm yazara dəstək olsun, həm də sizin əlinizdə onun kitabı, heç olmasa bir vərəqinə göz atasınız. Buyurun, cəsarətli naşir və oxucu dostlar. Səmimiyyətimizi ortaya qoyaq. Naşirlərdən kim bu şərtlə razıdırsa, elə buradaca yazsın, biz də kitabevim.aza tapşırıq verək. Hələlik biz çap etdiyimiz kitabı hesabatı ilə təqdim edirik.*

*Əlisa Nicat - Keçmişlə köçənlər ("Xatirə ədəbiyyatı" silsiləsinin 55-ci kitabı)*

*Nəşriyyat: "XAN Nəşriyyatı"*
*Tiraj: 500 ədəd*
*Anbarda qalan say: 348 ədəd*
*Satılan say: 152 ədəd (Bu anbardan mağazalara veriləndir, 152 kitabın satılıb satılmadığını dəqiq demək olmaz.)*
*Çap qiyməti: 2,4 AZN*
*Qapaq qiyməti: 7 AZN*
*Topdansatış qiyməti: 3,5 AZN*
*Çapdan çıxma tarixi: 07.09.2021*
*Hesabat tarixi: 01.12.2022*
*1 il 3 ay ərzində satılan kitabdan gələn gəlir: 167,2 AZN*
*Çap edilməmişdən öncə verilən qonorar: 200 AZN*
*Hesabatı, 5 dekabr tarixində verəcəyəm. Özümüzü görəcəyik aynada.*

## "İş insanın cövhəridir"



**Həyatını əməyə, zəhmətə həsr edən insanlar yanılmırlar. Bu mənada gənclərin işə, zehni və fiziki əməyə önəm verməsi vacib işdir. Gəncluk hər bir dövlətin aparıcı və potensial imkanlarına malik qüvvəsi olduğuna görə onun imkanlarından düzgün bəhrələnmək və doğru istiqamətə yönəltməkdən ibarətdir. Günbəgün dəyişən dünya reallığı bunu tələb edir. Dövlətimizin də siyasəti gənclərin əməyə, işə cəlb olunmasından ibarətdir.**

Bu günlərdə Masazır qəsəbəsində gördüyümuz mənzərə bu sahədə aparılan işlərin hədər getmədiyinin göstəricisidir. Əslində belə hallarla çox rastlaşırıq və gənclərimizin gənc yaşlarından əməyə, işə maraq göstərməsi bizləri sevindirməyə bilməz.

Üç gənc, üç dost - Mahmud Mustafayev, Vüqar Salahov, Sakit Bağırov qəsəbədə yaraşıqlı bir meyvə-tərəvəz mağazası açıb əhaliyə xidmət göstərirlər. Mağazada fəhləlikdən tutmuş, satıcılığı, mağazanın təzə məhsullarla təmin olunmasına qədər bütün işləri özləri görürlər.

Sevindirici hal odur ki, bəzən rastlaşdığımız neqativ hallardan fərqli olaraq bu gənc dostlar, sahib olduqları potensialı düzgün qiymətləndirməyi bacarıblar. Potensiallarını əməyə, işə sərf edən belə gənclərə həyatda uğurlar qazanmalarını arzulayırıq.

**"Ədalət" qəzeti**

## "Qərb 300 min ukraynalı hərbçi hazırlaya bilər"



**2023-cü ilin yayın ortalarına qədər Qərb ölkələri 300 minə yaxın yaxşı təlim keçmiş ukraynalı hərbçidən ibarət qrupu yeni hücum əməliyyatları üçün hazırlaya bilər.**

Bu sözləri hərbi ekspert Aleksey Leonkov deyib. "NATO silahlarının artan həcmi, onların istifadəsi, koordinasiyası və əlaqələndirilməsi üzrə geniş təlim keçirilir. Bütün təlim və silah təchizatı proqramı çox güman ki, gələn yayın əvvəlinə qədər maksimuma çatacaq. Yayın ortalarında ola bilər ki, təxminən 250-300 min nəfərlik qrup artıq hazır olsun", - Leonkov bildirib.

# İrandan qərəzli addım: Ölkəmizə ermənicə yazılan mallar göndərildi...

**Yəqin ki, xatırlayırsınız: Bir neçə il əvvəl sosial şəbəkələrdə ilk dəfə Ermənistan Respublikasında istehsal edilən şirniyyat məhsulunun Azərbaycana gətirilməsi ilə bağlı məlumatlar yayıldı. Həmin məhsulu gətirən şəxs açıqlama verərək bəhs olunan qida məhsulunun Ermənistan mənşəli olduğunu bilmədən şəxsi istehlak məqsədilə ölkənin gömrük sərhədindən keçirdiyini bəyan etdi.**

Sonra belə hadisələr təkrar olunmağa başladı. Ötən ilin sonunda isə kütləvi informasiya vasitələrində bəzi qida və geyim məhsullarının Ermənistan Respublikasından Azərbaycana gətirilməsi və pərakəndə satışının həyata keçirilməsi ilə bağlı məlumatlar yayıldı. Dövlət Gömrük Komitəsi dərhal əməliyyat keçirərək məsələyə aydınlıq gətirdi. Məlum oldu ki, qurum tərəfindən 4600 qutu fişəng və 119 min 385 ədəd pirotexniki vasitələr, müxtəlif adda və vaxtı keçmiş dərman preparatları, 3 min 218,75 litr alkoqollu və kustar üsulla hazırlanmış içkilər, 162 litr sərinləşdirici içkilər, 361,14 kiloqram ərzaq və qeyri-ərzaq məhsulları, 107 kiloqram yuyucu vasitələr komissiya üzvlərinin iştirakı ilə məhv edilib. Məhv edilən mallar arasında Ermənistan istehsalı olan istifadəyə yararsız 37 ədəd suvenirlər, 32 qutu siqaret və 51,70 litr müxtəlif spirtli içkilər də olub.

Adalet.az xəbər verir ki, Azərbaycan gömrükçüləri indiyə qədər rastlaşmadıqları hüquqpozma faktı ilə üzləşiblər.

Məsələ ilə bağlı Dövlət Gömrük Komitəsi məlumat yayıb. Komitənin Bakı Baş Gömrük İdarəsinin "İpək Yolu" gömrük postunda digər malların içərisindən gömrük orqanına bəyan edilməyən, üzərindəki yazılara görə Ermənistan istehsalı olan inşaat malları aşkar edilib.




İndiyə qədər ölkə ərazisinə qanunsuz yolla gətirilməsinə cəhd edilən Ermənistan malları adətən qida məhsulları və alkoqollu içkilərdən ibarət olub. Bu dəfə aşkara çıxarılan mallar isə inşaat işlərində istifadə edilən silikon məmulatı üçün 24 820 ədəd qab və silikon məmulatı qablarının qablaşdırılması üçün nəzərdə tutulan 1 050 ədəd boş karton qutu olub.

Bu mallarn İranda fəaliyyət göstərən şirkətin Azərbaycanda fiziki şəxsin ünvanına göndərdiyi müəyyən edilib. Bəs üzərində erməni dilində yazıları olan bu mallar Azərbaycana nə məqsədlə gətirilib?Faktla bağlı Komitə və Dövlət Təhlükəsizlik Xidməti birgə araşdırma aparır.

Qeyd edək ki, hələ ötən ilin əvvəlində analoji hadisə baş verərkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov məsələyə aydınlıq gətirdi. O bu haqda danışarkən bildirdi ki, Ermənistan məhsulları ölkəmizə başqa ölkədən tranzit vasitəsilə də gətirilə bilər:"Ermənistanla Azərbaycan arasında heç bir əlaqə olmadığı kimi ticarət əlaqəsi də yoxdur. Bu səbəbdən ölkəyə Ermənistan məhsullarının gətirilməsi qadağandır. Əgər belə bir hal baş verirsə, bu yalnız qaçaqmalçılıq yolu ilə edilir. Digər tərəfdən ola bilər ki, başqa dövlətlərdən tranzit vasitəsi ilə gətirilsin.

Heç bir siyasi, iqtisadi əlaqə olmadığı üçün Ermənistan malları Azərbaycanda olmamalıdır. Ağıllı ticarətçi bunu heç zaman etməz. Bu malları gətirən Azərbaycan vətəndaşıdısa, başa düşməlidir ki, hələ danışıqlar gedir. Danışıqların sonun nə ilə nəticələnəcəyi bəlli deyil".

***P.S.** 30 ildir Ermənistana havadarlıq edən İrandan artıq hər hərəkət gözləmək mümkündür, Onun ölkəmizə qarşı namərdliyinə şahid olmaq isə gözləniləndir.*

**Əntiqə Rəşid**

## Saakaşvili siyasətdən getdi



**"Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili artıq Gürcüstanın siyasi həyatında iştirak etmək niyyətində deyil".**

Bu barədə Saakaşvilinin anası Giuli Alasaniyanın sabiq prezidentin "Facebook" səhifəsində dərc edilən bəyanatında deyilir. Həbsdə olan Saakaşvilinin anası qeyd edib ki, oğlu vəkillərinin əvvəllər danışdıqları zəhərlənmə ehtimalına görə Gürcüstan hakimiyyətini günahlandırmır.



Əbülfət MƏDƏTOĞLU

# Candan-cana köçmək

## Və yaxud da hər son yeni bir başlanğıcdır

**Əvvəlcə onun özündən başlayım. Hər dəfə barəsində söhbət düşəndə həmin çöhrəsi, həmin təbəssümü və həmin çox-çox uzaqlara söykənən baxışları gəlib durur qarşımda. Elə bil indicə fikir bildirəcək. Hansısa bir məsələyə münasibətini təmkinli şəkildə şərh edəcəkdir. O, hamı üçün belə idi. Sadə, təmkinli, bir az da mənim öz düşüncəmə görə həssas. Çünki istər publisistikasında, istər poeziyasında, istər nəsrində dediyim bu çalarların hamısı özünü ehtiva etmişdir. Həm də o, xalqı, torpağı, onun mədəniyyətini, tarixini zərgər dəqiqliyi ilə öyrənməyə, təbliğ etməyə köklənmiş adam idi.**

**Barəsində fikirlərimi yığcam ifadə etdiyim bu şəxs Azərbaycan ədəbiyyatında, Azərbaycan söz məkanında öz imzası, öz dəsti-xətti, öz yeri olan Azər Abdulladı. Bu həmin Azər Abdulladı ki, onun yaradıcılığı təkcə öz çevrəsində, öz ədəbi mühitində deyil, bütövlükdə Azərbaycanın söz arenasında həmişə diqqəti çəkibdir və bir də Azər müəllim sözə son dərəcə həssaslıqla yanaşan, hər söz barəsində söz deməyən müəlliflərdən idi. Ruhu şah olsun.**



**Bu gün "Bir şairin bir şeiri" layihəmdə Azər Abdulla ilə həmsöhbətəm. Onun mənə avtoqrafla bağışladığı 2019-cu ildə işıq üzü görmüş "Havalı sular, sevdalı sular" kitabı əlimdədir. Azər Abdulla avtoqrafında yazıb: "Şeirlərini həvəslə oxuduğum gözəl şair Əbülfət bəy Mədətoğluna dərin sayqılarımla. Müəllifdən". Bax, bu kitabda bir-birindən maraqlı şeirlər var. Amma nədənsə bu gün ruhuma, könlümə yaxın olan bu şeir çəkdi məni. Azər müəllim yazıb ki:**

**Zaman-zaman hərləndim**
**Su idim, quruya döndüm.**
**Arındım, təmizləndim**
**Liliydim, duruya döndüm.**

**Yəqin ki, siz də oxudunuz bu bəndi və xəyal sizi də həmin o hislərə köklədi və hər birimiz, elə mənim özüm də ayrı-ayrılıqda düşündük ki, kim idik, nə idik, nəçi idik, necə idik və kim olduq, nə olduq, nəçi olduq, necə olduq... Bütün bu suallar Azər Abdullanın təqdim etdiyi şeirin birinci bəndində hər kəsə ünvanlanır və hər kəs də hardan-hara yol gəldiyini artıq düşünməyə, araşdırmaya başlayır. Bax, mən də bu ovqatın içində qoşuluram Azər Abdullaya. Üzümü Tanrıya və bir də onun bəndəsinə tutub içimdə pıçıldayıram:**

**Ay bu dərdin sahibi,**
**Öldürür dərdin məni.**
**Göz dustağı eləyib,**
**Qoyduğun şərtin məni.**

**Təbii ki, bu ovqat hardasa Azər Abdulladan gələn sualların yaratdığı məntiqi düşüncənin yazılı formasıdı. Özüm də bilmədən həmin o suallara cavab kimi dərdinin sahibinə, məni göz dustağı edənə tərəf əl açılam, köklənirəm. Deməli, burda da bir daxili durulma, burda da bir özü-özünü sorğu-suala tutma var. Həmin o məqam da yenidən Azər Abdullanın artıq məni köklədiyi ovqatı yaşatmaqda, onun içərisində durulmaq və həyatı elə Azər Abdullanın təqdim etdiyi kimi görmək imkanını qabardır. Bir az da sərrast ifadə etsəm, hiss edirəm ki, Azər Abdulla o durulmanın haqdan gəldiyinə və qaçılmaz olduğuna əmindir. Ona görə də birmənalı şəkildə yazıb:**

**Yatsam da ayılsam da**
**Andan ana köçürəm.**
**Min illər adlasa da**
**Candan cana köçürəm.**

**Məncə, burdakı məntiq çox uzaqlara - folklorumuza, qədim yaddaşımıza gedib köklənir.**

**Ruhun əbədiyaşarlığı, insanın başqa bir aləmdə öz həyatını davam etdirməsi, eləcə də candan cana köçməsi, necə deyərlər, atadan oğula, oğuldan nəvəyə davam edən bir ruh yaşamının, bir soy yaşamının təzahürləri təqdim etdiyim şeirdə mənim üçün görünən və təsir edən məqamlardı.**

**Mən də o məqamların həm inancdan, həm də inamdan gəldiyinə söykənirəm. Ona görə də öz şeirimdə birmənalı olaraq əl açdığım ünvana fikrimi çatdırıram:**

**Nə insaf var, nə mürvət,**
**Tükənir canda qüvvət.**
**Açıq-aşkar, ya xəlvət,**
**Heç nəyə verdin məni.**

**Azər Abdullanın əvvəldə söylədiyim həmin o şeir aurası oxucunu sözün təkcə işığını yox, həm də fikir qatını görməyə hazırlayır. Sadə və kifayət qədər məntiqli bir şəkildə oxucuya çatdırılır ki, şeirin əvvəlindəki suallar sonundakı cavabın məntiqi yekunudur. Yəni başlanmışdan sona qədər məqsədli, həm də inaclı bir yol gedir. O yolu da nizamlayan, o yolun da bələdçisi hər kəsin öz içindəkidi. Bax, o iç dünyanın böyüklüyü, əzəməti, o vaxt barlı-bəhərli olur ki, o, anlaşılır, o dəyərləndirilir və deməli, "olum-ölüm" məsafəsi ilə yanaşı candan-cana köçmək haqqı da qaçılmaz olur. Mən də bax, bu son bəndin işığında həmin o gəldiyim qənaəti bir daha Sizə çatdırıram. Oxuyun:**

**Bulud oldum sıxıldım**
**Damcıtək yerə döndüm.**
**İsindim, buxarlandım,**
**Yenidən göyə döndüm.**

**Bəli, ilki ilə əvvəlinə dönüş bir inacdı. Biz bəzən buna biganə yanaşırıq. Amma yoxdan var olmaq mümkün olduğu kimi, vardan da yox olmaq bir həyat əlamətidi. Ona görə də Azər Abdullanın yenidən ən müqəddəs ünvana - yəni göyə dönməsi həm mənim inandığım, həm də onun haqq etdiyidi. Bax, bu məntiqlə də öz şeirimin sonunda sözümü artıq birbaşa deməyə qərarlıyam. İstəyirəm ki, sonumun necə olduğunu bildiyimi o da bilsin:**

**Mənə balta çalan, gəl,**
**Məni məndən alan gəl.**
**Gəl, halıma qalan gəl,**
**Belə də gördün məni.**

**İndi düşüncələrin, duyğuların bir-birinə qarışdığı bir ovqatın içində mən Azər Abdullanın ruhuna baş əyməklə paralelliyini apardığım şeirlərdən yaranan yazını Sizə təqdim edirəm. İmkanınız olarsa oxuyun və müqayisəmə öz münasibətinizi bildirmək haqqınızdan istifadə edin.**

# *AQTA ev şəraitində hazırlanan konservləşdirilmiş məhsullarla bağlı xəbərdarlıq edib*

**Ev şəraitində hazırlanan məhsulların qış aylarında istifadəsi halları daha çox müşahidə edilir. Bir çox insan meyvə və tərəvəzləri təkcə mövsümündə deyil, digər aylarda da istifadə edə bilməsi üçün ənənəvi üsullardan faydalanaraq, həmin məhsulları məişət şəraitində konservləşdirir. Bu kimi halların mövcudluğu qida təhlükəsizliyi ilə bağlı risk faktını ortaya qoyur.**

AQTA-dan verilən məlumata görə, konservləşdirmə prosesinin düzgün aparılmaması nəticəsində tibbdə "Botulizm" adlanan qida zəhərlənmələrinə gətirib çıxararaq ölümə səbəb olur. İstehsal zamanı sanitar-gigiyenik qaydalara, sterilizasiya parametrlərinə, saxlanma rejiminə və ya taranın hermetikliyinə düzgün əməl edilmədikdə konservlər xarab olur.

Məhsulların konservləşdirilməsində istifadə olunan meyvə-tərəvəz yaxşı yuyulmadıqda onların üzərində torpaq hissəcikləri qalır ki, bu da torpaqda "yaşayan" botulizmə səbəb olan mikroorqanizmlərin konserv məhsuluna keçməsinə şərait yaradır. Onlar sporlarla çoxalır və yalnız müəyyən bir müddət 100° S-də qaynadıldıqda məhv olur. Botulizm törədiciləri oksigensiz şəraitdə inkişaf edir. Bundan başqa, konservləşdirilmiş məhsullarda digər mikroorqanizmlərin mövcudluğu səbəbindən məhsulun qapağının şişməsi halları baş verir. Bu məhsullar xarici görünüşünə görə xarab (zay) təsir bağışlayır. Belə ki, toxumalar yumşalır, yad qoxu gəlir, qaz yaranır, məhsulun suyu bulanıq olur və dadı dəyişir. Bu zaman konserv bankaları şişir və "bombaj" əmələ gəlir. Ev şəraitində hazırlanan konserv istifadə edilərkən, müvafiq gigiyena və təhlükəsizlik qaydalarına çox ciddi şəkildə əməl edilməlidir. Qeyd edək ki, yalnız ev şəraitində hazırlanan konservlər deyil, ticarət obyektlərində satılan sənaye konservləri də saxlanma şəraiti, temperatur rejimi və s. tələblərə əməl olunmadıqda zəhərlənmələrə səbəb ola bilər. Buna görə də dükanlardan tərəvəz, balıq, ət və s. konservləri alındıqda, qablaşmaya fikir verilməlidir. Məhsul təzə olmalı (yararlılıq müddətinə diqqət edilməli), qapağı "şişməməli", metaldan olan konserv bankasının üzərində batıq yerləri olmamalıdır. Metal bankalarda olan balıq və ət konservləri açıldıqdan dərhal sonra digər qaba qoyulmalıdır.

Bununla əlaqədar olaraq, AQTA əhaliyə xəbərdarlıq edərək bildirir ki, konservləşdirilmiş məhsullardan istifadə zamanı həyat və sağlamlıq üçün tövsiyə olunan qaydalara ciddi şəkildə riayət olunmalı, bu cür məhsullarla bağlı hər hansı uyğunsuzluq aşkarlandıqda isə müvafiq dövlət qurumlarına və AQTA-nın "1003-Çağrı Mərkəzi"nə müraciət etsinlər.





# Bulaqlar bulandı, sən təmiz qaldın

*Asif Quliyev*

**Qəribə və maraqlı ömürdə ana kimi, vətən kimi, zəmanələr kimi insanın heç kimin görüb oxuya bilmədiyi alın yazısıdır, tale payıdır. Tanrının insanlara bəxş etdiyi bu alın yazısından heç kim nə qaça bilir, nədə ki, sonalayıb seçə, dəyişə bilir. Görkəmli yazıçı, dövrünün ən tanınmış jurnalisti, siyasi və ictimai xadim, ləyaqətli insan, yaşadığı keçməkeşli zəmanənin hər anında insanlara, xüsusilə gənclərə əl tutub, yol göstərməsi ilə yadda qalan Cəmil Əlibəyova da tanrı dünyanın nehrə kimi çalxalandığı bir zamanda enişli yoxuşlu bir ömür payı bəxş etmişdir.**

1927-ci ilin şaxtalı, boranlı bir qış günündə (5 dekabr) keçmiş Karyağın, indiki Füzuli rayonunun Dədəli kəndində varlı bəy ailəsində dünyaya göz açan Cəmil Əlibəyov yaşadığı 87 ildə həm zəmanənin ağrılı-acılı günləri ilə rastlaşmış, min bir zülmə, zillətə məhkum olunmuşdur.

... Heç beş yaşı tamam olmamışdı ki, Şura hökümətinin hərbə-zorbasına tab gətirməyən atası Ədil bəy kəndin digər varlıları ilə biri-birinə qoşulub uşaqlarını da, sayı-hesabı bilinməyən var-dövlətini də qoyub Xudafərin körpüsünü keçib İrana qaçır. Yeni yaranmış hökümət Ədil bəyin bütün var-dövlətini, hətta uşaqlarının yaşadığı evi də müsadirə edir. Bununla da bəy ailəsinin ağrılı-acılı günləri başlayır. Hər gün bir qoyun kəsdirib yediklərini yeyən, yemədiklərini də kəndin imkansızlarına paylayan ailənin bir qarın çörəyə möhtac qalması və digər dərd səri haqqında hər yerdə, ən çox da hüzür məclislərində hamı ürək ağrısı ilə danışır, ağılar deyib bayatılar səsləndirir. Anasının, bibisinin, böyük bacısının atası Ədil bəy haqqında ah-nalə çəkib dillə ağladıqları bayatılara qulaq asan, bu dərd-səri ürəyinə salıb gecə-gündüz atasını fikirləşən, hələ əməlli başlı yazıb oxumağı bilməyən balaca Cəmil qadınların şivən qoparıb, yana-yana dilə gətirdikləri bayatılardan və ağılardan eşitdiklərini uyğunlaşdırıb, atası haqqında bir neçə sətirdən ibarət bir şeir də dilə gətirir.

*Evin yıxılsın nadamat hökümət,*
*Atamı saldın qaçağa hökümət.*
*Bizləri qoydun yetim ay hökümət.*

Bu bir bəndlik şeir tezliklə kənddə hamının dilinin əzbəri olur. Hər evdə, hər məclisdə hələ əlifbanı əməlli başlı öyrənməmiş, oxumağı, yazmağı bacarmayan Cəmildən, onun şeirindən danışılır. Elə bu əl boyda tifilin başına ilk müsibətlər də onda, o şeirə görə gəlir. Günlərin bir günü qırmızı şapkalı iki atlı kənddəki məktəbin (o vaxt məktəb Cəmilgilin evində yerləşirdi) qapısını döyür. Əvvəlcə Nabat müəllimə ilə danışırlar, sonra da Cəmilin anası Qazı Mirzə Əlinin qızı Ziba xanımı sorğu-suala tuturlar. Vəziyyətdən çıxış yolunu da elə onlar, qırmızı papaqlılar özləri tapırlar. Nabat müəllimədən bircə cümləlik bir izahat alırlar: "Ədil bəyin oğlu Cəmilin yaşı azdır, heç yazıb oxumağı da bilmir". Cəmilə də dönə-dönə tapşırırlar ki, bir də belə şeir yazma, dilinə gətirmə, əgər belə şeir yazsan, haradasa danışsan, səni də, ananı da sürgün edəcəyik. Sibirə göndərəcəyik... "Sürgün" sözünü ürəyində bir neçə dəfə təkrar səsləndirib bu sözün başqa bir mənasının da elə qaçqın olduğunu başa düşəndə balaca Cəmilin dili tutulur, hüşunu itirib yağışın yaratdığı gölməçəyə sərilir. Bu hadisəni indi də yaxşı xatırlayan, həmin illərdə onunla bir məktəbdə oxuyan 98 yaşlı Nazənim xanım deyir: Qırmızı papaqlıların hədəsindən dili tutulub ürəkkeçmə tapan Cəmil bir müddət məktəbə gəlmədi, sonra eşitdik ki ...

... Hələ orta məktəbdəki təhsil illəri çalın-çarpaz dolayılarda dolaşıq düşən Cəmil ailə vəziyyətinin ağırlığına görə oxuduğu pedaqoji texnikomun sonuncu kursundan çıxıb bir müddət kənddəki kalxozda kotana gedir. Özünün "Zəmanələrlə üz-üzə" kitabında yazdığı kimi kənddəki bir nanəcibin Cəmilə qarşı olan haqsızlığına dözməyən, o vaxt qolunun gücü, həm də sözünün kəsərliliyi ilə təkcə Dədəlidə deyil, qonşu kəndlərdə də böyük hörmət sahibi olan Nəriman babanın həmin adamın dərsini yaxşıca verməsindən və sonra da Bakıya gəldiyindən ürək ağrısı ilə yazır.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə qəbul olunub sonuncu kursa kimi əla qiymətlərlə oxuyur, dövlət imtahanlarına hazırlaşanda necə deyərlər öz balasına da xəyanət etməkdən çəkinməyən hansısa bir şərəfsizin Cəmil Əlibəyovun bəy atasının Dövlət Təhlükəsizliyi Aparatında saxlanan bəylik qovluğuna tökdüyü xəyanət suyu Ədil bəyin bəyliyini yenidən cücərdib dilə-ağıza salır. İrana qaçmış bəyin oğlu şərqşünas olub "xaricdə işləyə bilməz" adı ilə onu universitetdən xaric edirlər. Amma, amması budur ki, nə tələbə yoldaşları sakit dayanır, nədə ki, ona dərs deyən müəllimlər. Bakıda M.C. Bağırova da yazırlar, Moskvaya Stalinə də məktub göndərirlər. Cəmilin əla qiymətlərlə oxuduğunu, vətəninə, dövlətinə sədaqətli bir gənc olduğunu bildirirlər. Onun haqqında qəbul edilmiş ədalətsizliyə son qoyulmasını dönə-dönə xahiş edirlər. Bir az dolaşıqlığı ilə də olsa haqq-ədalət öz yerini tapır. Cəmilə Bakı Dövlət Universitetinin tarix fakültəsində oxumağa icazə verirlər...

...Onda İkinci dünya müharibəsi cəmi dörd il idi ki, qurtarmışdı. Belə bir gündə Cəmil Əlibəyov "Azərbaycan gəncləri" qəzetində işə qəbul olunur. Elə ilk məqalələrini də müharibə illərində arxa cəbhədə işləyən kənd adamlarının göz-gözü görməyən qaranlıq gecələrdəki fəaliyyətindən, isti yay günlərində bicinsilərin fədakarlığından yazır. Cəbhədən sinəsi orden və medallarla dolu qayıdan qolunu, qıçını itirmiş gənclərin neft buruqları arasındakı fədakarlıqlarını oxuculara çatdırır. Tərbiyə mövzusunda yazdığı məqalələri əl-əl gəzir.

Bu yazılar Cəmili də sevdirirdi, qəzeti də. Çox qısa müddətdə Cəmil Əlibəyov adi ədəbi işçilikdən baş redaktor vəzifəsinə yüksəlir. Çətin redaktorluq vəzifəsini yerinə yetirməklə yanaşı ədəbi yaradıcılığını da davam etdirir. Yeri gəlmişkən bu kiçik məqalədə Cəmil Əlibəyovun uşaqlıq və gənclik illərində keçdiyi çətin yola bir az genişliyi ilə yer verməklə onu demək istəyirəm ki, uşaqlıq illərində başına gələn və gətirilən müsibətlər ikinci dünya müharibəsi illərində bir kalxozçu kimi əmək fəaliyyətinə başlaması, sadə insanlar arasında yaxşını, pisi seçməkdə ona yardımçı olmuş, torpağa, sadə insanlara yaranmış dərin sevgi onun yaradıcılığında da öz yerini tapmışdır.

Bir sözlə, Cəmil Əlibəyovun əsərləri onun keçməkeşli həyatının bədii güzgüsüdür. Həm mövzusuna, həm də dil və üslubuna görə biri-birindən fərqlənən, əsl həyatdan götürülmüş povest və romanlarında uşaqlıq illərində yaşadığı kəndin, onun adamlarının çətin gündə bir çörəyi dörd yerə bölüb biri-birinə əl tutduqlarını, özləri ac qalıb uşaqları tox, möhtacsız saxladıqlarını elə ustalıqla qələmə almışdır ki, o nəslin əsəri oxuyan nümayəndələri təsvir olunan kəndin onların kəndi olduğunu, əsərdəki qəhrəmanların birini özü hesab edir, başqa birisini də o mənim qonşumdur deyir.

Yaşlı və orta nəslin nümayəndələri C.Əlibəyovun "Azərbaycan gəncləri" qəzetindəki redaktorluq fəaliyyətini yaxşı xatırlayır. Məhz onun təşəbbüsü ilə hələ əllinci illərin axırlarında redaksiyanın nəzdində "Gənc qələmlər" ədəbi məclisi yaradılmış, Sabir Restəmxanlının dediyi kimi bu məclis Azərbaycanın hər tərəfindən istedadlı gənclərin yaradıcılıq ünsiyyətinə, gənc söz ustalarının ədəbi üfüqdə parlamasına imkan yaratmışdır. Bu gün xalq yazıçısı, xalq şairi kimi fəxri adlara layiq görülmüş, əsərləri xalq tərəfindən böyük məhəbbətlə sevilən neçə-neçə şairlər, yazıçılar məhz o məclisdə parlayıb ortalığa çıxmışdır.

Görkəmli yazıçı həmişə gülər üzü, xoş təbəssümü ilə seçilən yaxşını da, yamanı da öz adı ilə çağıran Seyran Səxavət Cəmil Əlibəyovun ədəbi gəncliyə göstərdiyi xidmətlər haqqında (6 dekabr 1914) yazır: onun redaktor olduğu qəzet "demək olar ki, yaradıcı gəncliyin ixtiyarına verilmişdir. Bu gün ədəbiyyatımızda külüng çalan şairlərin, yazıçıların, ədəbiyyatşünasların böyük əksəriyyəti C.Əlibəyovun redaktor olduğu "Azərbaycan gəncləri"nin köynəyindən keçmiş istedad sahibləridir. Bəkir Nəbiyev, Nəriman Həsənzadə, Fikrət Qoca, Fikrət Sadıq, Anar, Elçin, İsi Məlikzadə, Əkrəm Əylisli, Fərman Kərimzadə, Məmməd İsmayıl, Əşrəf Veysəlli, Musa Yaqub, Seyavuş Sərxanlı... Ramiz Rövşən, Sabir rüstəmxanlı, Tofiq Abdin, Nüsrət Kəsəmənli elə mən özüm ...".

Müstəqil Azərbaycanda buraxılan onlarla qəzetin sərbəst fəaliyyətinə diqqət yetirəndə adam istər-istəməz vahid ideologiyanın çərçivəsində qəzet buraxmağın çətinliklərini yada salır.

Redaktorluq şərəfli olduğu qədər də, çətin vəzifədir. Əsil redaktor gərək xalqla dövlət arasındakı tarazlığı düzgün nizamlaya bilsin, nəyə və kimə görəsə birinin təriflənməsinə, başqasının tənqid olunmasına yol verməsin. Çətinə düşənlərə arxa, dayaq olsun. C.Əlibəyov məhz belə redaktor idi.

Yaşlı nəslin nümayəndələri Cəmil Əlibəyovun redaktoru olduğu qəzet vasitəsi ilə kommunist ideologiyasının çərçivəsinə sığmayan yazıları ilə xalqın dərd-sərini ədəbiyyata gətirən və buna görə də hər yerdə tənqid edilən, təqiblərə məruz qalan qələm əhlinə arxa-dayaq olduğunu yaxşı xatırlayır. Xalq şairi Nəbi Xəzrinin "Alçaq təpə" poemasını, Qabilin "Tramvay parka gedir..." şeirini yuxarılar qılınc götürüb qılınclayanda, məhz yuxarıların tələbi ilə müzakirə obyektinə çevriləndə o, rəhbərlik etdiyi qəzet vasitəsi ilə onları necə müdafiə etdiyini və elə buna görə də özünün də tənqid hədəfinə çevrildiyini adamlar indi də unutmayıblar.

O çətin günlərdə arxa olduğu qələm əhlinin əksəriyyətinin göndərdiyi məktublar Cəmil Əlibəyovun arxivində indi də qorunub saxlanır. Xalq şairi Nəbi Xəzri yazır: "Alçaq təpənin böyük bəlasına şərik olan, mənə arxa olan, gənclikdən bəri əziz dostum Cəmil müəllim Əlibəyova həmişəki məhəbbətlə deyirəm: "Əzizim, sən uzaqdan görünən ən uca dağsan...". Xalq şairi Qabil ürək dolusu xoş sözlərlə yazdığı məktubda onun bir redaktor kimi, şəxsiyyət kimi xeyirxah əməllərindən yazır: "Cəmil, qardaşım, səni təkcə ona görə sevmirəm ki, "Tramvayı" relsdən çıxmağa qoymadın. Mənə qanad verdin, uçdum, həm də ona görə ki... sən Cəmilsən!"

Təbiətən çox sakit adam olan Cəmil Əlibəyov qorxmaz, cəsarətli redaktor idi, özü yazmaqla yanaşı redaksiyanın əməkdaşlarının da xalqı düşündürən mövzularda yazmalarına geniş imkan verib, şərait yaradırdı. Erməni vəhşilərinin torpaqlarımızı zəbt etmək üçün addımlar atdığı o ağır günlərdə C.Əlibəyovun baş redaktor olduğu "Kommunist" qəzetində dərc olunan "Topxana harayı" məqaləsi bütün xalqı ayağa qaldırdı. Əslində Azərbaycanda meydan hərəkatı elə bu məqalədən sonra başladı...

Azərbaycan Dövlət Radio və Televiziya verilişləri Komitəsi sədrinin müavini işləyəndə məhz Cəmil Əlibəyovun təşəbbüsü ilə efirə çıxan "Bulaq" verilişi milli ənənəmizə qayıdış üçün bir haray oldu. Azərbaycan radiosuna yeni danışıq tərzi gətirdi. Xalqın ruhunu oxşayan, milli şüurun dirçəlişinə öz töhfələrini verdi... Cəmil müəllimin oğlunun toy məclisində tanınmış artistlərdən biri "bulağ"ın dili ilə danışdı. Cəmil müəllimin gözləri yaşardı, Natiq Cəmil müəllimin oturduğu



stola yaxınlaşıb, əlindəki dolu qədəhlərdən birini Cəmil müəllimə uzatdı: "bu araq deyil, "bulağın" suyudur" - dedi.

Keçən əsrin 70-ci illərinin ortalarında Cəmil Əlibəyov təqribən 10 il C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına başçılıq etmişdir. Həmişə gənclərlə işləməyə üstünlük verən C.Əlibəyov bu vəzifədə işləyəndə də tanınmış qələm sahibləri ilə yanaşı gənc kinosenaristlərin əsərlərinin ekran yaradıcılığına da geniş yol açdı. Onun kinostudiyaya rəhbərlik etdiyi illərdə çəkilən "Babək", "Dədə Qorqud", "İstintaq", "Tütək səsi", "Dərviş Parisi partladır", "Nizami", "Ad günü", "Qaynana" kimi filmlər bir çox dillərə tərcümə olunaraq xalqımızın ənənəvi dəyərlərini dünya ictimaiyyətinə çatdırmışdır.

... Yuxarıda göstərdiyim kimi bəy atasına görə uşaqlıq və gənclik illərində başına gələn, daha doğrusu gətirilən müsibətlər onun bədii yaradıcılığında da öz əksini genişliyi ilə tapmışdır. Cəmil Əlibəyovun həyat həqiqətlərini bədii şəkildə obrazlaşdırdığı roman və povestləri təkcə Azərbaycanda deyil, respublikamızdan kənarlarda da, bir çox xarici ölkələrdə də böyük maraqla qarşılanmışdır. "Sınaq", "Mənim analı dünyam", "Həyatın özü", "Dözümlü məhəbbət" romanları, "Qayaların göz yaşı" povesti Moskvada "Sovetski pisatel" nəşriyyatında nəşr olunub, hər tərəfə yayılmışdır. Sevgiyə sədaqət mövzusunda yazılmış "İlk məhəbbət" romanı, ana məhəbbətindən, ananın vətənə, torpağa bağlılığından, övladlarına məhəbbətindən bəhs edən "Mənim analı dünyam", tarixi keçmişimizdən bəhs edən "Qızıl at və torpaq" romanları, haqqın, ədalətin tapdalanmasından bəhs edən "Özümü axtarıram" povesti Azərbaycan oxucularına dönə-dönə təqdim olunmuşdur.

Cəmil Əlibəyov hərtərəfli biliyə və yazmaq qabiliyyətinə malik olan böyük yazıçı olmaqla yanaşı, həm də yüksək səviyyəli, səliqəli tərcüməçi idi. Bu gün dünya ədəbiyyatının klassiki kimi qiymətləndirilən Çingiz Aytmatovun "Cəmilə", "İlk müəllim", "Ana tarla", "Ağ gəmi" povestlərini Azərbaycan oxucularına məhz o çatdırmışdır. Bu barədə Cəmil Əlibəyovun öz dilindən eşitdiklərim maraqlıdır: "... Moskvada "Moskva" mehmanxanasının yanındakı yeraltı keçiddən "Cəmilə" povestinin rus dilində tərcüməsini alıb bir gecəyə oxudum, mənə aydın olmayan bəzi ifadələrin altından xətt də çəkdim. Təsadüf elə gətirdi ki, səhəri gün elə mehmanxanada Çingiz Aytmatovla rastlaşdım. Elə bil kim isə məni onunla görüşüb tanış olmağa məcbur etdi. Özüm də hiss etmədən ona yaxınlaşdım, əlimdəki kitabı göstərib Azərbaycandan, jurnalist olduğumu dedim. "Cəmilə" haqqında xoş sözlər danışdım. Əlini çiynimə qoyub: - "Xoş sözlərinə görə çox sağ ol - dedi, indi ki bəyənmisən, özün də jurnalistsən, onda "Cəmilə"yə azərbaycanlı donu geydir, tərcümə elə, qoy sənin adına oxşar "Cəmilə"ni azərbaycanlılar da oxusunlar".

Bakıya qayıdan kimi böyük yazıçının sözlərinə əməl etdim....

Cəmil Əlibəyov kitablar haqqında məqalələr yazmağı xoşlamırdı, tamaşalar haqqında heç şey yazmazdı. Yazanda da yaxşı yox, əla yazırdı.

Günlərin bir günü Cəmil müəllimlə Azdramaya tamaşaya baxmağa getmişdik. Fasilə zamanı Bəxtiyar Vahabzadə ilə görüşdük. Cəmil müəllimi qucaqlayıb bərk-bərk bağrına basdı. Mənimlə də doğması kimi görüşdü və gözlənilmədən, özünəməxsus gülüşlə:

" Asif, sən Cəmilin bacısı oğlusan, yoxsa Cəmil sənin dayındır? - deyə qəh-qəhə çəkdi...

Cəmil mənim dayımdır - dedim. Bəxtiyar müəllim yenidən Cəmili qucaqladı və üzünü mənə tutub: - Mənim əsərlərim haqqında çox adamlar çoxlu məqalələr yazıblar - dedi - amma sənin dayının mənim "Dar ağacı" pyesim haqqında yazdığı məqaləyə qiymət verməyə söz tapmıram... Məqalə məni göylərə qaldırdı... Bəxtiyar Vahabzadənin bu məqalə ilə əlaqədar Cəmil müəllimə göndərdiyi məktubdan bəzi ifadələri yada salmaq istəyirəm: "Əzizim Cəmil,... Mənim atdığım oxu havada tutmusan. Məqalədə məni heyrətə gətirən əsas məsələ isə pyesi professional teatrşünas səviyyəsində təhlil etməyindir. İndi mən düşünürəm: niyə sən, məhz sən Cəmil Əlibəyov bu boyda ürək genişliyi ilə həmkarını görə bilir, o biri həmkarlarım yox? ... İndi əziz dost, əgər sənin məqalən olmasaydı, mən bu əsərdə uğur qazandığıma inanmaz və bəlkə də əsəbdən boğulardım...".

Cəmil müəllim yaxşı jurnalist, yazıçı olmaqla yanaşı, həm də el adamı idi, onun dilindən acı söz eşitməzdin, heç qələmindən çıxan yazılarda da qəlbə toxunan acı sözə rast gəlməzsən. Hələ gənc yaşlarında "Azərbaycan gəncləri" qəzetində onunla birlikdə işləyən rəhmətlik akademik Bəkir Nəbiyev Cəmil müəllimin 80 illik yubileyində çıxış edəndə keçmişi xatırlayıb onun xeyirxah əməllərindən ağız dolusu danışdı, gənclərə necə qayğı göstərdiyini faktlarla, misallarla yada saldı. Onun həyatını insanlar üçün bir universitet adlandırdı: "Cəmil Əlibəyov universiteti". Bu insanlıq universitetidir. Eyni zamanda adama tək yazmaq yox, adam olmağı öyrədən universitetdir. Böyük iftixarla deyə bilərəm ki, mən də bu universitetin məzunuyam.

Olduqca sakit təbiətli, səmimi və qayğıkeş, heç vaxt heç kimlə ucadan danışmayan Cəmil müəllim kimsəsizlərin kimsəsi idi. Rast gəldiyi hər hansısa bir adamda hansı sahədəsə adi bir işartı hiss edəndə dərhal qolundan tutub ayağa qaldırar, yol göstərər, inkişafı üçün kiminsə qapısını döyüb xahiş etməkdən çəkinməzdi. "Zəmanələrlə üz-üzə" kitabında göstərdiyi kimi haradasa rast gəldiyi cavan bir sürücünü əvvəl redaksiyada elə adi sürücülüyə işə götürür, sonra instituta qəbul etdirir... O da ona göstərilən qayğıdan bəhrələnir. Moskvada ən hörmətli institutda namizədlik dissertasiyası müdafiə edir, sürücü Mirzə dönüb universitet müəllimi olur. Fəhlə müxbiri Pirini "Kommunist"-in xüsusi müxbiri vəzifəsinə kimi yüksəldir...

Cəmil Əlibəyovun bu cür xeyirxah xidmətlərini layiqincə qiymətləndirən xalq şairi, necə deyərlər, "Azərbaycan gəncləri"nin köynəyindən çıxmış Nəriman Həsənzadə Cəmil müəllimə göndərdiyi, "Tariximiz, taleyimiz" ktabına yazdığı xatirə çox maraqlıdır.

***Kimsəsiz olanda, kimsəmiz oldun,***
***Bulaqlar bulandı, sən təmiz oldun.***
***Biz Allah çağırıb gəldik üstünə,***
***Sən onda yerdəki Bəndəmiz oldun.***

Cəmil Əlibəyov haqqında yazılmış cəmi üç xatirə məktubdan misal çəkdim, amma ötən illərdə ona ünvanlanmış yüzlərlə məktubu, kitablara yazılmış ürək dolusu xoş xatirələri nəzərdən keçirib saf-çürük etdikdə, bir daha yəqinləşdirdim ki, dünyanın çalxalandığı bir zamanda yaşayıb yaradan Cəmil Əlibəyov vəzifə pilləsində çox qalxıb-düşüb. Amma heç vaxt dəyişməyib. Həmişə olduğu kimi qalıb. Necə deyərlər, çox bulaqlar bulanıb, amma o, dup-duru, elə Cəmil kimi tərtəmiz qalıb.

... İndi dünya dəyişib... Çox arzular çin olub: bir vaxt gördüklərimizin və eşitdiklərimizin çoxu xatirələrə dönüb... Onda avqustun ortaları idi. Cəmil müəllimin Bilgəhdəki bağ evində dərdləşirdik. Erməni vəhşilərinin ayaqları altında tapdalanan Qarabağdan, Şuşadan, Füzulidən... danışırdıq. Bərk kövrəldi, hönkürməkdən özünü güclə saxladı. Nə vaxtsa yazıb cibində saxladığı bir vərəqi mənə verdi. "... Asif, mən Qarabağı da, Şuşanı da, kəndimizi də səndən tez görəcəm. Ruhum Bakıdan qanadlananda kəndimizə - Dədəliyə düşəcək... Bilirəm tezliklə Qarabağ azad olunacaq, onda anamın qəbrinin üstündən bir ovuc torpaq gətirib qəbrimin üstünə tökərsən...".

**İndi iki ildir ki, hər dəfə görkəmli yazıçı, jurnalist, xeyirxah insan, yaşadığı dövrdə hamıya dayılıq edən Cəmil Əlibəyovun Balaxanı qəbirstanlığındakı məzarını ziyarət edəndə o günü, o məktubu xatırlayıram. "Ruhun şad olsun böyük insan, artıq arzularımız çin olub: Qarabağ azaddır" - deyirəm.**

# "Dekabrda şaxta gözlənilmir"

**Dekabr ayının əvvəli hava daha çox tutqun keçəcək, fasilələrlə yağıntı olacaq, şaxta gözlənilmir.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva "Ekspert saatı"nda deyib.

O qeyd edib ki, dekabrın 1-dən temperaturun iqlim normasında 2-3 dəfə aşağı enməsi müşahidə edilir.

"Ayın 7-nə kimi hava soyuq olacaq. Paytaxtda bu müddət ərzində ən soyuq havanın ayın 4-dən 6-na kimi olacağı gözlənilir. Gecə və gündüz temperaturu biri-birinə yaxın - 3-6 dərəcə isti olacaq. Dekabrda şaxta gözlənilmir. Abşeronda yağıntılar yağış şəklində olacaq. Lakin qar görmək istəyənlər ölkənin digər ərazilərinə səfər edə bilərlər", - deyə o əlavə edib.




# Smartfonda casus proqramlarını necə aşkarlamaq olar?

**Dövrümüzün ən böyük kiber təhlükələrindən biri olan casus proqramlar istifadəçilərin xəbəri olmadan kompüter, planşet, smartfon kimi cihazlara sızan, istifadəçinin razılığı olmadan məlumatları toplayan və toplanmış məlumatları üçüncü şəxslərə satan bir növ zərərli proqramlardır.**

**Casus proqramlarını necə aşkar etmək olar?**

**1. Batareyanız həmişəkindən daha tez tükənir.**



**2. Normalla müqayisədə internet istifadənizdə artım.**

**3. Cihazınız heç bir səbəb olmadan sıradan çıxır və ya sönür.**

**4. Sosial media hesablarınızda anormal hərəkətlər olur.**

**Casus proqramlarının qarşısını necə almaq olar?**

**1. Antivirus proqramlarından istifadə.**

**2. Smartfonda zavod quraşdırmasının həyata keçirilməsi.**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 46 (2320) 3 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# İşğaldan xilas onu Azərbaycana tanıtdı

**Bu gün Azərbaycanda bu qəsəbəni demək olar ki, hamı tanıyır. Xüsusilə 27 sentyabr 2020-ci il tarixli Böyük Vətən Müharibəsi başlayandan sonra işğal altındakı ərazilərimiz birmənalı şəkildə gündəmi zəbt etdiyindən böyüklü-kiçikli hər kəs bölgəni bir növü "səyahət" etdi. Kimi xəritədə, kimi xatirələrdə, kimi də dost-tanışdan eşitdiyi söz-söhbətdə. Mənim də konkret şahidi olduğum mənzərə bu idi ki, "Ədalət" qəzetinin redaksiyasında divardan asılmış məmləkətin iki fərqli xəritəsinin önündə hər səhər az qala növbə yaranırdı. Hamı döyüş əməliyyatlarını bu xəritədən izləyirdi.**

Bax onda çoxlarının tanımadığı və yaxud harada yerləşdiyini bilmədiyi Hadrut qəsəbəsi də gündəmə gəldi...

Mən sovet dönəmində coğrafi ərazi vahidi kimi Dağlıq Qarabağ Muxtar Vilayətinin rayonlarından biri olan Hadrut rayonunda doğuldumdan bu rayonun mərkəzi olan Hadrut qəsəbəsini də çox gözəl tanıyıram. Necə deyərlər, az qala bütün ərazisini qarış-qarış gəzmişəm.

Xüsusilə xan çinarın altındakı çay evi hər zaman yuxuma girirdi. Ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunduğunu bəyan edəndə elə bildim ki, orta məktəb illərim, gəncliyim geri qayıtdı. Çünki...

Gözümün önünə gətirirəm... Son dərəcə qəribə mənzərəsi var Hadrutun. Dağların qoynunda yerləşir, bir az da dağların sinəsində. Buranın təbiəti elədir ki, dağlardan üzü aşağı meşə gəlir.

Lap gəlib daxil olur Hadrutun içərisinə. Aşağıdan üzü yuxarı üzüm bağları, tut bağları qollarını açır Hadruta tərəf.

Üstəlik, Hadrutun içərisindən axıb gedir Odlu çaya birləşən çay boyu qoz ağacları bir-birinə sarmaşıb. Arasından külək də keçmir. Bu, təbiətin bir möcüzəsidir. Elə yeri gəlmişkən, bir haşiyə çıxım. Nədənsə Hadrut qəsəbəsinə düşən hər kəs mütləq qəsəbənin mərkəzi sayılan çinarın dibində mütləq çay içməli idi. 30 qəpiyə bir çaynik çay alırdın və az qala indi satışda olan qəndlərin dörddə biri ölçüdə xırda qəndləri çayçı gətirib qoyardı nəzakətlə qarşına.

Biz də hərdən şıltaqlıq edərdik, qəndi üç-üç qoyardıq ağzımıza. Çayçı hay-həşir salardı və guya əzizləyirmiş kimi deyərdi:

- Ay tork, (yəni türk - Ə.M.) bu çay içmək üçündü, yemək üçün deyil...

Təsəvvür edin ki, biz gülürdük və onun bizi türk adlandırmasına o qədər də önəm vermirdik. Sən demə, elə həmin illərdə artıq erməni dəyirmanı öz işində imiş...

Bəli, Hadrutun coğrafiyası elədir ki, bir damla suyu da tutiyə sayıla bilər. Torpağının barı-bərəkəti yığıb-yığışdırmaqla bitən deyil. Təsəvvür edin ki, burada şərab emalı zavodu, şirə

zavodu, dəyirman, böyük və müasir xəstəxana, poçt rabitə mərkəzi, bank, üçmərtəbəli məktəb, eləcə də dövlət qurumlarına aid bütün inzibati binalar çox yüksək zövqlə inşa edilmişdi. Burada sovet sərhəd qoşunlarının zastavası da yerləşdiyindən qəsəbə daha çox müasirlik təsiri bağışlayırdı. Bir tərəfdən rus zabitlərinin ailələri burada yaşayır, övladları təhsil alır, digər tərəfdən rayonun aurası xüsusilə yayda çoxlu qonaq-qara cəlb edir. Və bu da qəsəbənin həmişə diqqətli olmasına, abadlıq-quruculuq işlərinin nəzarətdə saxlanmasına bir ipucu verirdi.

Bu gün işaldan azad edilmiş Hadrut qəsəbəsini mavi ekrandan izləyən hər kəs bu ərazinin hansı göz-könül oxşayan üstünlüklərə malik olduğunu artıq yəqin ki təxmin edibdi. Mən Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq iqtisadi gücünə və coğrafi üstünlüklərinə bələd olduğum Hadrut qəsəbəsi ilə bağlı düşüncələrini yazıya köçürərkən öncə iki məqamı önə çəkdim. Onlardan birincisi Hadrutun böyük turizm potensialına malik olmasıdı. Yəni bir tərəfi Ziyarət dağı, bir tərəfi İlanlı dağ, qarşı tərəfi Ərgünəş olan burada turizm inkişaf etdirilməsi üçün çox böyük imkanlar var. Sadəcə olaraq, Füzuli rayonunun Odlu çay dərəsi boyunca Hadruta doğru uzanan massivdə katejlərin tikilməsi, pansianatların salınması asan başa gələn bir işdir.

Sadəcə, bu işin qulpundan yapışmaq lazımdı.

Ikincisi, zənnimcə əgər (çox istərdim ki, bu arzum yerinə yetsin - Ə.M.) Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Hadrut qəsəbəsinə səfər edərkən bu qəsəbənin ölkəmiz üçün nə qədər önəmli olduğunu birmənalı şəkildə aidiyyəti qurumlara, xüsusilə ölkə iqtisadiyyatı və turizmlə məşğul olanlara göstərmiş olar.

Çünki həmin səfər zamanı xalqımıza təqdim ediləcək geniş informasiya Hadrut qəsəbəsinin bütün tarixini və perspektivlərini ortaya qoymuş olacaq.

Burada quşçuluğun, digər heyvandarlıq təsərrüfatlarının bəslənməsi. Eləcə də Hadrut qəsəbəsinin içərisindən keçən göz yaşından duru sularda balıq yetişdirilməsi bu ərazinin iqtisadi gücünü daha da artırar. Indiki kimi xatırlayıram, Sovet dönəmində Hadrut qəsəbəsinə Bakıdan, Sumqayıtdan, Füzulidən, Xankəndindən, hətta İrəvandan avtobuslar işləyirdi. Kiçik bir qəsəbəyə hər gün gəlib-gedən bu avtobusların sərnişinlərinin əksəriyyəti yay mövsümü turistlər olurdi. Deməli, tarix kitablarında adı hələ osmanlıların Dizak mahalı kimi qeyd etdiyi Hadrut kəndi 1939-cu ildə Hadrut rayon mərkəzi kimi formalaşmışdı. Bu ərazini də 1992-ci ilin oktyabr ayının 2-də ermənilər işğal etmişdilər.





Tarixi bir xoşbəxtlik və yaxud da tarixin təkrarıdı. Hadrut rayonu oktyabr ayında işğal olunmuşdu. Amma 28 ildən artıq davam edən, tam dürüstlüyü ilə ifadə etsən, 28 il 7 gün davam edən həsrətimiz 2020-ci ilin oktyabr ayının 9-da sona çatdı. Oktyabrda işğal olunmuş Hadrut oktyabrda da öz sahibinə qovuşdu.

Bu gün artıq qəsəbədə müəyyən işlər görülməkdədir.

Xüsusilə yol, işıq, digər infrastrukturlar. Həmçinin bankların filialları, səhiyyə xidməti artıq burada həyatı sanki oyadır, yaddaşa daş atır və Hadrutu yenidən qurub-yaradanlara xidmət edir.

**Bu da onu göstərir ki, biz qarşımıza qoyduğumuz məqsədə mütləq qovuşacağıq. Və onda məndə bir inam var ki, Hadrut da Azərbaycanın ikinci bir Şuşası kimi dilimizin əzbərinə çevriləcək, onda hər kəs azad və gözəl bir şəhər kimi gəzib seyr etməyə tələsəcəkdi. O gün uzaqda deyil. Bu qəsəbənin taleyinə şəhər günəşi də doğacaqdı. Mən buna inanıram. Bu inamımı Ali Baş Komandanımız cənab İlham Əliyevin Hadruta edəcəyi səfər yəqin ki, tezləşdirəcək.**

**Əbülfət MƏDƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# İnsan gəldi, insan getdi

**1940-cı ildə Ağcabədinin Kəbirli kəndində dünyaya göz açan Qənbər İsmayıl oğlu Əsgərov çox qısa və mənalı ömür yaşayıb. Ölkənin ən gənc və olduqca bilikli, istedadlı filosoflarından biri olan Qənbər müəllim Bakı Dövlət Universitetində dərs deyib.**

Olduqca böyük ürəyə sahib olan Qənbər müəllim fəlsəfə sahəsində dərin savada malik idi. Bununla bərabər o, vətənpərvər və çılğın idi. Bir-birindən ayrı düşən həmvətənlərimizin, ikiyə bölünən böyük Azərbaycanın böyük dərdi onu bir Vətən oğlu kimi yandırıb yaxırdı. O, haqsızlığa, ədalətsizliyə qarşı barışmaz, mübariz idi. Onu haqq, ədalət yolundan heç nə çəkindirmirdi. Saxta məmurları, yaltaqları, riyakar və şərəfsizləri Qənbər müəllim həmişə tənqid atəşinə tuşlayırdı. Bəziləri kimi, yaxşı oxuyan tələbənin qiymətini kəsməzdi. Özünü universitet müəllimi kimi dartmazdı. Universitetin yataqxanasında tələbələrlə yanaşı yaşayan bu böyük, dahi insan çox sadə idi. Və bizdə sadəliyi qəribəlik kimi qəbul edənlər bunu ona bağışlaya bilmirdilər. Axı həm də o, kəndli, əsl vətəndaş olan kasıbın balasına imkanı daxilində əl tutar, kömək edərdi. Haqq yolunda alnıaçıq, üzüağ idi. Amma sən saydığını say, gör düşmənlər nə sayır. Baxmayaraq ki, O, heç kimə düşmən deyildi. Qənbər müəllim, sadəcə olaraq, ulu Tanrı onu necə yaratmışdısa, O, da elə hərəkət edirdi. Şüuru vicdanın səsinə həmişə qulaq asar, onu diqqətlə dinləyərdi. Və əsl kişi kimi heç kimdən qorxmaz, çəkinməzdi. Axı haqqa,ədalətə vicdanla qulluq edursənsə ilk növbədə haqlısan.

Sözü üzə deyən cəsarətli, qeyrətli, qürurlu, mərd, məmurun kim olduğunu açıq deyib, iç üzünü göstərən, torpaq, Vətən sevgili bir insan idi Qənbər müəllim. Tanrı ona hər şey bəxş etmişdi. Fiziki güc üstəgəl fitri istedad, dərin və fenomen bilik. Və ən başlıcası isə insan adının şərəflə, qürurla daşıyan əsl kişi! Bu isə sovet rejiminin bir çox hiyləgər, ikiüzlü, riyakar, yaltaq, şərəfsiz, mənəviyyatsızlarının xoşuna gəlmirdi. Odur ki, onlar amansız, qarşısıalınmaz hücuma keçdilər. Qəddar sovet rejiminin insan adına layiq olmayan əlaltıları onu fiziki cəhətdən məhv etmək qərarına gəldilər. Ona şər yaxdılar. Bir tələbə qızı öldürüb, meyitini Yasamaldakı Qanlı Gölə atdılar. Guya bu qızla Qənbər müəllimin münasibəti varmış. Qənbər müəllimi günahlandırıb, öz alçaq niyyətlərinə nail oldular. Gündə neçə dəfə döyərək, qanına boyadılar onun köynəyini.



Əqidəsindən dönməz işıqlı çöhrəsini. Sonrada hökm verib 1978-ci ildə, 38 yaşında olan elm işığını, alimi güllələdilər... Bir neçə ildən sonra məlum oldu ki, qızı öz əmisi oğlu qətlə yetirərək, izi itirmək üçün gölə atıbmış. Ancaq işğalçı, qəsbkar rejimin nə vecinə. Axı Qənbər müəllim tariximizdəki "ağ ləkələri" görür, buna göz yummurdu. Və bir də O, mənsub olduğu xalqı təmiz qəlbdən, təmənnasız olaraq, dəlicəsinə sevirdi. Düşmənə qarşı üsyankar idi. Çılğın, emosional ruhu ilə Vətənin azadlığı üçün döyüşür, çarpışırdı. Hamı Azərbaycanın Rusiyaya qatılmasını bayram edəndə, Qənbər müəllim bunun əsl işğal olduğunu ucadan söyləyirdi.

... Tanınmış ziyalı, ixtisasca mühəndis olan Ələkbər Əsgərli mərhum qardaşı, filosof alim Qənbər Əsgərov haqqında 2018-ci ildə "Yarımçıq ömrün akkordları" adlı kitab çap etdirmişdir. Öz qardaşlıq borcunu ləyaqətlə yerinə yetirən Ələkbər müəllim kitabda Qənbər Əsgərovun keçdiyi qısa və mənalı həyat yolundan geniş və ətraflı söhbət açaraq, onu yaxından tanıyanların keçmiş tələbələrinin, müxtəlif insanların qardaşı haqqında fikir və düşüncələrini sistemləşdirib kitab şəklində oxuculara çatdırmışdır. Nə gizlədək, ruhu həmişə başımız üzərində olan Qənbər müəllim barəsindəki kitab geniş rezonansa səbəb oldu. Və bu yaxınlarda Ələkbər müəllimin qardaşı, əsl azərbaycanlı olan, qısa ömrünü Vətənə, insanlara həsr edən, haqq yolunda qürurla gedən və canını ədalət uğrunda fəda edən alim, unudulmaz insan Qənbər Əsgərov haqqında "Hamı gül əkdi, gül dərdi..." adlı ikinci kitabı işıq üzü görüb.

Qənbər müəllimin günahsız olduğunu, onun ölümünü sifarişlə, qəsdən qurğu düzəldiyini təsdiqləyən tək bircə faktı xatırlamaq istərdik. 1976-cı ildə, hələ Qənbər Əsgərov içəridə, həbsdə olub, minbir işgəncəyə məruz qalan zaman atası İsmayıl kişi, anası və qardaşı Moskvaya ümid və pənah aparırlar. Onlar SSRİ Ali Sovetinin deputatı, dağıstanlı şair Rəsul Həmzətovla görüşüb, ədalətin bərpası üçün, Qənbər müəllimin günahsız olduğunu sübut etməkdən ötrü kömək göstərməsini xahiş edəcəkdilər. Görüş sabahı gün baş tutmalı idi, Rəsul Həmzətovdan razılıq alınmışdı. Ancaq axşam Dövlət Təhlükəsizlik Komitəsindən R. Həmzətova bir bəhanəylə bu görüşdən vaz keçməyi tələb edirlər. O da görüşdən imtina edir...

Qənbər müəllimin qısa həyat yoluna ekskurs edək. O, 14 yaşına kimi doğulduğu Ağcabədinin Kəbirli kəndində yaşamış və oxumuşdur. Bir Kəbirli balası kimi, oxumağa böyük həvəsi olan Qənbər Kəbirli kənd məktəbində yeddiillik təhsil aldıqdan sonra doğma kənddən ayrılmalı olub. Füzuli, Şuşa və Bakı şəhərlərində təhsilini davam etdirir. O, Şuşa Pedaqoji Texnikomunu və Bakı Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişdir. 1967-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirdikdən sonra təyinatla Beyləqan rayonunun Təzəkənd və Xalac kəndlərində orta məktəblərdə tarix fənnini tədris etmişdir. 1969-cu ildə Bakı Dövlət Universitetinin aspiranturasına daxil olmuş, 1972-ci ildə dərin zəhmət bahasına elmi işini müdafiə edərək, "fəlsəfə elmləri namizədi" alimlik dərəcəsi almışdır. Bundan sonra qısa ömrünün sonuna qədər Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasında baş müəllim kimi fəaliyyət göstərmişdir. 1978-ci ilin mart ayında "dissident" damğası vurularaq həbs edilib, çoxsaylı əzab və işgəncədən sonra güllələnmişdir.

Beləliklə, xalqımızın qeyrətli, savadlı, təəssübkeş oğullarından biri olan Qənbər İsmayıl oğlu Əsgərovun ömrü gənc yaşında alçaq, riyakar, şərəfsiz bir qrup məxluq tərəfindən yarımçıq qalmışdır. Onun insanlar, tələbələri, kütlə içərisində qazandığı hörmət çoxlarını qıcıqlandırırdı. Odur ki, xainlər, satqınlar onun şəxsiyyətini, dərin bilik və bacarığını, təmiz mənəviyyatını, parlaq filosofluğunu, nitq və sanballı elmi yazılarını qəbul edə bilmədilər. Xaincəsinə onu susdurdular, bizdən ayırdılar. Ancaq həqiqəti heç zaman, heç yerdə susdurmaq, yox etmək mümkün deyil. Qənbər müəllimə şər atıb aradan götürsələr də, hamı bildi ki, o, günahsızdı. Və onun əziz,unudulmaz xatirəsi yaxınları, onu tanıyanların yaddaşında dərin, silinməz iz buraxaraq hər zaman, hər yerdə anılır. Xatirələr çözələndikcə Qənbər müəllimin işıqlı, nurlu surəti gözlərimiz önündə canlanır. Ağrılı-acılı, dərdli, keşməkeşli, əzablı və xoş xatirələr bir-birini əvəz edir. Çümki Qənbər müəllim əsl kişi ömrü yaşadı. Həyatdan köçəndə yaşı az olsa da O, təmiz, pak alim, kişi adı qoyub getdi.

Ondan sonra bir təmiz ruhlu ad qaldı. Biz hamımız dünyada təkcə ad qoyub gedə bilirik. Amma insan adını hamı daşıya, yaşada bilmir bu dünyada. Adamların qəlbinə yol taparaq, orada cığır salan, şüurlarda, qəlblərdə pozulmaz iz salan Qənbər müəllim yaxınları və onu tanıyanlar tərəfindən bir an olsa belə unudulmur. Onun adının işığına toplaşaraq Qənbər müəllimi xoş niyyətlə xatırlayır, keçdiyi qısa və məşəqqətli ömür yolu keçən bir İnsan olduğunu vurğulayırlar.

**... Onu heç kəs unutmur. Həmişə hər yerdə adını anırıq. Qənbər müəllimin istəkli qardaşı Ələkbər müəllim qardaşlıq borcunu yerinə yetirərək daha bir addım atmışdır. Ziyalı, vətənpərvər Ələkbər Əsgərov qardaşı Qənbər İsmayıl oğlu Əsgərov haqqında "Hamı gül əkdi, gül dərdi..." adlı kitabı ərsəyə gətirmişdir. Çünki Qənbər müəllim təkcə onun qardaşı deyildi. O, Kəbirli mahalının, Azərbaycanın qeyrətli oğluydu. Qənbər müəllim insan adını qürurla daşıyan,bu adı əlçatmaz zirvələrə ucaldan layiqli şəxsiyyət, İNSAN idi:**

**Yaranmışın yüzdən biri**
**İnsan gəldi, insan getdi...**

**Adil MİSİRLİ**

# Şirindil Alışanlının yubiley tədbiri keçirilib

**Azərbaycan Yazıçılar Birliyində Filologiya üzrə elmlər doktoruŞirindil Alışanlının 70 illik yubileyi qeyd olunub.**

Tədbiri Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açıq elan edib. O, yubliyarın yaradıcılığından, elmi fəaliyyətindən söhbət açıb. Onun yaradıcılığında ilk məqalələrinə diqqət yetirib. Xalq yazıçısı Anar daha sonra sözü Xalq yazıçısı Elçinə verib. Elçin çıxışında yubliyarın elmi fəaliyyəti ilə bağlı geniş mühazirə oxuyub. Yubliyarın ədəbi mövqeyi Xalq yazıçısı Elçinin nəzərindən yayınmayıb. Sonra digər tanınmış elm xadimlərinin Şirindil Alışanlı haqda söylədiyi fikirləri səsləndirib.



Millət vəkili, AMEA-nın prezidenti İsa Həbibbəyli ədəbiyyat institutunun və AYB-in birgə əlaqələrinin sağlam məcrada inkişaf etməsinin tərəfdarı olduğunu qeyd edib: " Bu qarşılıqlı əlaqədən həm ədəbiyyatşünaslıq elmi, həm də Yazıçılar Birliyi uğur qazana biləcəyini düşünürəm. Hesab edirəm ki, bu əlaqələr ədəbiyyat elminin inkişafına öz töhfələrini verəcək. Bununla yanaşı, ədəbi proseslərin inkişafında da öz əksini tapacaq. Mən də öz növbəmdə Şirindil Alışanlını təbrik edirəm. Hesab edirəm ki, Şirindil Alışanlı o miqyasda elm adamlarındandır ki, AYB ilə AMEA arasında möhkəm və etibarlı körpülər qurmağa onun əsərləri, fəaliyyəti tam əsas verir. O, eyni zamanda ayrı- ayrı elm adamları ilə ədəbiyyatşünaslıq elmi arasında çox qabliyyətli bir ötürücüdür. Azərbaycan ədəbiyyatının son 50 ildəki yaradıcıları haqqında yazıb nəşr etdirdiyi əsərlər, ədbəiyyatşünaslıq elminə mislsiz töhfədir".

Filologiya elmləri doktoru,Əməkdar Elm Xadimi Qəzənfər Paşayev yubliyarın yaradıcılığı haqda geniş məlumat verib. Şirindil Alışanlı ilə tanışlıq tarixçəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Şirindil Alışanlının elm adamlarına layiqincə dəyər verməyi Professor Qəzənfər Paşayevin diqqətindən yayınmayıb.

Tənqidçi Tehran Əlişanoğlu da yubliyarı təbrik edərək, onun elmi fəaliyyətindən söz açıb. " Şirindil Alışanlı nəzəriyyəçi, tənqidçi və alim kimi Azərbaycan Ədəbiyyatında əsas xidmətləri olan şəxsiyyətdir. Bu tədbirin əsas mahiyyəti isə mənalı bir ömrün səhifələrini göz önündə canlandırmaqdır. Şirindil müəllim, ədəbiyyatşünaslıq elminin sütunlarından biridir. O, yalnız ədəbiyyat institutunun əsas-aparacı şöbəsinə rəhbərlik etmir, həm də elm adamlarının, gənc nəzəriyyəçilərin inkişafında xüsusi əməyi var".

**Tədbirdə İlqar Fəhmi, Əsəd Cahangir, Nəriman Həsənzadə, İlham Rəhimov, İntiqam Qasımov, Ələmdar Cabbarlı, Vaqif Yusifli, Günlar Səma və digər tanınmış ədəbiyyat nümayəndələri iştirak edib.**

**Əntiqə Kərimzadə**

# Damlataş mağarası

**Antalyanın Alanya rayonunda yerləşən Damlataş Mağarası mağara turizmi ilə maraqlananlar və Antalyanın tarixi və təbii gözəlliklərini araşdırmaq istəyənlərin diqqət mərkəzindədir. Damlataş mağarası turizm baxımından əhəmiyyətlidir və astma müalicəsi üçün çox sayda insan tərəfindən ziyarət edilir. Damlataş Mağarası mütləq Antalyada görməli yerlər siyahısında olmalıdır.**

Adalet.az xəbər verir ki, damlataş mağarasının hekayəsi və necə kəşf edildiyi ilə maraqlanırsınızsa, mağaranın 15.000 il əvvəl yarandığını deyə bilərik. Mağara çoxdan dəniz suyunun qayaları aşırması nəticəsində yaranıb. Yağış yağanda mağaranın tavanından təbaşirli sular axır. Sarkıtlardan damlayan təbaşirli su damcılarına görə bu mağara Damlataş mağarası (damlataş) adlandırılmışdır. Damlataş mağarasındakı əhəngli su temperatur və rütubət səbəbindən zamanla stalaktitlərin əmələ gəlməsinə səbəb olub. Lakin stalaqmitlər təbaşirli su damcılarının yerdə yığılıb donması nəticəsində əmələ gəlmişdir. 1500 ildə stalaqmitlərin əmələ gəlməsi



və onların indiki vəziyyəti təbiətin inanılmaz işinin nəticəsi kimi dəyərləndirilə bilər. Mağaranın kəşf hekayəsi çox maraqlıdır.

Damlataş mağarası ilk dəfə 1948-ci ildə bərə limanının inşasında istifadə edilmək üçün karxana olaraq təyin olunmuş yerdə dinamit partlaması nəticəsində təsadüfən kəşf edilmişdir. Mağaranın turistik baxımdan maraqlı olmasının səbəbi Türkiyədə turistlərin üzünə açılan ilk mağara olmasıdır. Damlataş mağarası mağara turizmi ilə maraqlananların ən çox sevdiyi yerlərdən biridir. Antalyaya hava yolu ilə səyahət edirsinizsə, mağaranı araşdırmaq və ora asanlıqla çatmaq üçün Antalya hava limanı avtomobil icarəsi şirkətlərinin xidmətlərindən istifadə edə bilərsiniz.

Damlataş mağarasının tam olaraq harada və hansı vilayətdə olduğunu merak edirsinizsə, Alanya mərkəzindən 3 kilometr uzaqlıqda və Alanya qalasının qərbində yerləşir. Antalyanın Alanya rayon mərkəzinin sahil hissəsində yerləşən mağaranın uzunluğu 30 metrdir və üfüqi görünüşə malikdir. Yuxarıda qeyd etdiyimiz kimi, mağara müalicəvi xüsusiyyətlərinə görə də ziyarət edilir. Damlataş mağarasının xüsusilə astma və tənəffüs yolları xəstəliklərində təsirli olduğuna inanılır. Turistlərə bağlı olan mağaraya səhər saat 06:00-10:00 arası astma və tənəffüs yoluxucu xəstəliklərdən əziyyət çəkənlər baş çəkir. Xəstələr mağarada gündə 4 saat olmaqla cəmi 21 gün qala bilərlər. Onun xəstəliklərə faydası mağaranın xüsusiyyətləri ilə bağlıdır. Mağaradakı karbon qazı 8-10 dəfə yüksəkdir, az səssizliyə, yüksək rütubətə malikdir, radioaktiv elementlər kimi xəstəliklərin müalicəsində kömək edir. Alanya Marinadan (liman) 4 kilometr aralıda olan mağaraya rahat və sürətli çatmaq üçün əvvəlcədən avtomobil icarəsi xidmətini yoxlamağı və daha sonra tətilinizi planlaşdırmanızı tövsiyə edirik.

# "Hər səhnə göz yaşı, faciə, hiss edirəm ki, ürəyimdə problemlər yaranıb"

## Aktrisa Rada Nəsibova ilə SÖHBƏT

***Həmsöhbətimiz Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisası, həmçinin seriallarda oynadığı obrazları ilə sevilən Rada Nəsibovadır.***

***Adalet.azmüsahibəni sizə təqdim edir.***

**- İlk dəfə 2008-ci ildə beş seriyalıq "Gürzə" filmində çəkilmisiniz. Orada gözləri görməyən bir qadını oynayırdınız. Sonralar sizi "Qaynana" serialında Sədaqət, "Bir ailəm var" serialında da Nazlı kimi tanıdılar. Rejissorlardan gələn təklifi hansı meyarlar əsasında dəyərləndirirsiniz?**

- "Gürzə" serialının çəkilişləri zamani eyni anda "Qaydasız döyüş" serialına da çəkilirdim. İlk öncə ifa edəcəyim rol önəmlidir. O rolu sevməliyəm və inanmalıyam. Bu tamaşaçılara da yansıyır. Sən inanırsansa onları da inandıra bilirsən. Rejissorla söhbət əsnasında uğurlu bir işbirliyinə inanəb qəbul edirəm. Arada istisnalar da olur, bəzən düşündüyüm olmaya bilir.

**- İstisnalar nədən irəli gəlir? Maddi ehtiyac üzündən sevmədiyiniz rola çəkilərsiniz?**

- Çəkilmərəm, çəkilməmişəm də. O cür təkliflər çox olub, bir də aktrisa kimi mənim öz baryerlərim var, açıq səhnələrə çəkilmərəm, əvəzində istədiyim pulu versələr də. Bəzən bu çoxuna qəribə gəlir, amma mən bunu qəbul etmirəm. "Aktrisa hər rola çəkilə bilər". Təmənnasız tariximizi əks etdirən bəii film olarsa, mənə ehtiyac duyularsa, çəkilərəm. İstisna onu nəzərdə tuturdum ki, bəzən obrazı başqa cür təsəvvüründə canlandırırsan amma iş prosesində ssenaridən gələn bəzi nüanslar olur, obrazın xarakteri dəyişir...

**-Sizcə çəkildiyiniz seriallar nə dərəcədə uğurlu alınıb? Yoxsa sizə maraqlı olan təkcə öz obrazınızı yaratmaqdır?**

- Çəkildiyim seriallar demək olar ki, mənə uğur gətirib. Əgər mənə ifa etdiyim obrazın adı ilə müraciət edirlərsə, o adı övladlarına qoyurlarsa, demək ki bu sevgini qazanmışam. Mən reytinqi düşünmürəm, bəli, mənə ifa etdiyim obrazın doğru-düzgün ifası maraqlıdır.

**- Aktyor, aktrisa tamaşaçıya obrazı necə sevdirməlidir? Bunun konkret bir düsturu var?**

-Aktyor, aktrisa obrazı necə sevdirməlidir... Mən düşünürəm, yaşanan hadisələrə, keçirdiyi hisslərə inanmalıdır. Özü onu yaşayırmış kimi. Bəzən olur ki, deyirsən ssenaridə bu belə ola bilməz axı, bu necə yazıla bilər, bu absurddur. Bunu düşündünsə, o səhnə istədiyin kimi alınmır, çünki özün inanmırsan. Həm də düşünürəm ki, aktyor, aktrisa



ifa etdiyi obrazlara görünüş baxımından da uyğun gəlməlidir.

**- Tanınırsınız, seriallarda oynamısınız, teatrda işləyirsiniz. Naxışınız yaxşıdır, yoxsa belə də olmalı idi?**

-Naxışım yaxşıdır? Kənardan bəlkə də elə görünür, amma zəhmətim çox olub.

Qazandığım uğurları zəhmətimə, səbrimə, hər atılan daşa reaksiya verməmdiyimə görə nail olmuşam. Qəlbimdə həmişə xırda bir sevincə, uğura görə Allaha təşəkkür etmişəm.

**- Elə obrazınız olubmu daxili vicdan səsiniz deyib ki, Rada, boynuna al, obrazı yola verdin?**

- Heç vaxt heç bir işimi yola verməmişəm. Məndən asılı olmayan səbəblər olub. Misal üçün, sən baş verən hadisəni başqa cür duyursan, çəkiliş zamanı vəziyyətə uyğun olaraq başqa cür quruluş verilir, ya o səhnə çox tələsik çəkilir, məkanı tez tərk etməli oluruq, hiss edirəm ki, o səhnə ürəyimcə olmadı. Efirə baxanda hansısa səhnə xoşuma gəlməyəndə evdə oturub uşaq kimi ağlayıram. Amma düşünürəm ki, hər işimizdən məmnun olsaq, inkişaf edə bilmərik. Səhvin olanda növbəti səhnələrə daha diqqətli yanaşırsan. Eləcə də teatrda tanaşalarda eyni məsuliyyəti daşıyırsan.

**- Sizcə sənətçi neçə yaşına kimi səhnədə qalmalıdır? Məsələn, elə rejissorlar, aktyorlar var ki, ölənə kimi səhnədədirlər. Amma tükənmişliklərini görəndə adam təəssüf hissi keçirir.**

- Sənətçi müəyyən mənada mühafizəkar olmalıdır. Səhnədə texnika deyilən bir şey var. Mən roldayam, nəzarəti itirib qarşımdakı insanı vurmalıyam. Həqiqətən vurub, xətər yetirim, olmaz. Eləcə də müəyyən səhnələr var ki, aktyor özünü qorumalıdır. Elə səhnələr var ki, soyuq havalarda nazik paltarla küçələrdə çəkilirsən. Bu sənin səhhətinə ziyandır. Elə olur dəfələrlə xəstələnirəm, dərhal isti ədyala bürünməlisən, isti çay içməlisən. Bir-birinin ardınca bəxti gətirməyən,

**- Nə zamansa əməliyyat masasına uzana bilərsinizmi?**

- Əməliyyat masasına dəfələrlə uzanmışam, amma gözəlliklə bağlı deyil (gülür). Düşünmürəm ki, nə vaxtsa estetik əməliyyat etdirərəm. Çünki özümə çox diqqət edirəm, qidamı kontrol edirəm, sağlam qidalanıram, idmanla məşğul oluram, üzümə baxım edirəm hər gün. Burun əməliyyatı etdirmişəm, avtomobil qəzası keçirmişdim, sınıq var idi burnumda, bircə onu düzəltdirmişəm.

**- Rada xanım, fəxri ad sizin üçün önəmlidirmi? Bu ad sənətçi üçün hansı dəyəri kəsb edir və nəyi dəyişir?**

-Zamanla düşünürdüm ki, önəmli deyil. Bu sənəti sevdiyim üçün işləyirəm. Sən belə düşündükcə görürsən, elə insanlar fəxri ad alır, mükafata layiq görülür ki, xəyal qırıqlığına uğrayırsan. Və zamanla titula görə ayrıseçkiliyin yarandığını görürsən. Amma tamaşaçıya sənin titulun var, ya yox, fərqi yoxdur. Onlara ifa etdiyin obraz maraqlıdır. O rola görə ya sevirlər, ya da sevmirlər.

**- Tamaşaçılarınızdan reaksiyalar necə olur? Nə yazırlar? Nə deyirlər?**

- Tamaşaçılardan həmişə sevgi dolu mesajlar alıram. Kədərləndirən bir nüans var ki, çoxu yazır mənim taleyimi oynayırsınız. Sizə baxanda özümü görürəm.

Buna çox üzülürəm. Qadınlarımızı, ümumiyyətlə hər kəsi xoşbəxt görmək istəyirəm. Sevməyən də olur, bir insanı hər kəs sevə bilməz. Və düşünürəm bu insanların ruhu ilə bağlıdır. İfa etdiyim rol onun ruhuna uyğundur, ya yox. Məsələ budur.

**Eminquey**

## Onların DÇ-2022 favoritləri hansı ölkələrdir?

**Hər kəsin diqqəti Futbol üzrə Dünya Çempionatına kəsilib. Bu ilin favoritləri Braziliya və Fransa millisi olsa da, hər kəsin öz favoriti var.**

Adalet.az bu barədə sorğu keçirib.

**"Xəzər TV"nin idman şərhçisi Ceyhun Rzayev:** "Favoritim Braziliya yığmasıdır. Təcrübəli və keyfiyyətli futbolçulardan təşkil olunub. Braziliyalılar əzəldən hücum futbolu oynayıblar. Bu yığma




isə kollektiv şəkildə əla müdafiə olunmaq bacarığı ilə də seçilir. Çox balanslaşdırılmış və komplektləşmiş komandadır".

**"CBC Sport" kanalının idman şərhçisi Elnur Məmmədli:** "Konkret bir komanda adı çəkmək çətindir. Ümumiyyətlə, dünya çempionatında ənənəvi favoritlər var. Sadəcə qrup mərhələsindən sonra müəyyən fikirlər bildirmək olar. Braziliya, Fransa indi qələbəyə da çox şanslı sayılır. Amma İngiltərəni də hesabdan silməzdim. Sautqeytin komandası pillə -pillə inkişaf edir. DÇ-2018-də yarımfinala kimi gəldilər.

Son Avropa çempionatında final oynadılar. İndi də komanda yaxşı təsir bağışlayır".

Futbol azarkeşi olan **"Ədalət" qəzetinin əməkdaşı Sübhan Mahmudov** favorit komandasının Portuqaliya olduğunu deyib. O qeyd edib ki, Kriştiano Ronaldo fanatı olduğu üçün Portuqaliya millisinə azarkeşlik edir.

**Eminquey**

## *Vanqanın proqnozu gerçəkləşir?*



**Vanqa kimi tanınan kor mistik onun ardıcıllarının çoxu tərəfindən 16-cı əsrin kahin Nostradamusun oxşarı hesab olunur. 1911-ci ildə anadan olan bolqar mistik Vangeliya Pandeva Quşterova əvvəllər Rusiyanın "Kursk" sualtı qayığının batacağını proqnozlaşdırmışdı. Sibirdən gələn xəbərlərdən sonra gözlər yenidən bu kəhanətlərə çevrildi.**

2019-cu ilin son günlərində həyatımıza daxil olan koronavirus (Kovid-19) bütün dünyada 6 milyondan çox insanın həyatına son qoyub.

Virusun təsiri peyvəndlərlə planetimizdən tədricən silinərkən, Sibirdən gələn xəbər dünyanı yenidən təşvişə saldı.

Sibirdəki kəşfdən sonra "Balkanların Nostradamusu" ləqəbli bolqar falçı Baba Vanqanın sözlərini gündəmə gətirdi.

Baba Vanqa 2022-ci ildə Sibirdə ölümcül virusun aşkar ediləcəyini proqnozlaşdırmışdı.

Keçən həftə elm adamları Sibirin əbədi donmuş bölgəsində apardıqları araşdırmada on minlərlə il əvvələ aid bir virusun yenidən ortaya çıxması ilə bağlı qorxulu reallıqla qarşılaşıblar.

Sibirdə ortaya çıxan virusun 48 min 500 il donmuş vəziyyətdə qaldıqdan sonra yenidən ortaya çıxdığı qeyd edilib.

Mütəxəssislər illər əvvəl virusların yeni pandemiya yaradan təhlükəsinə diqqət çəkib.

Bu xəbərdən sonra bir çox sosial media istifadəçisi "Baba Vanqanın 2022-ci il peyğəmbərliyi gerçəkləşdi" şərhini yazıb.

## *İnsanlar ən çox nədən ölürlər?*

**Beynəlxalq tədqiqat qrupu dünyada ölüm hallarının ikinci səbəbini açıqlayıb.**

Araşdırmanın nəticələri "The Lancet"də dərc olunub.

Bildiyiniz kimi, ölümün ən çox yayılmış səbəbi işemik ürək xəstəliyidir, o cümlədən infarkt. İndi elm adamları yayılmış ikinci ən ümumi səbəbi müəyyənləşdiriblər, bu, müxtəlif bakterial infeksiyalardır.

2019-cu ildə hər səkkiz ölümdən biri (7,7 milyon, 13,6 faiz) patogenlər səbəbindən baş verib.

Bu halların yarısı staphylococcus aureus (sferik, hərəkətsiz və aerob (havada mövcud ola bilən) bakteriyadır və uşaqlarda və daha az hallarda böyüklərdə müxtəlif xəstəliklərə səbəb olan Qram-müsbət ləkədir-red.), escherichia coli (əksər isti qanlı hey-



vanların aşağı bağırsaqlarında geniş yayılmış qram-mənfi, çubuqşəkilli bakteriyaların bir növü-red.), streptococcus pneumoniae (streptococcus cinsindən bir bakteriya növü-red.), klebsiella pneumoniae (klebsiella cinsinə aid olan qram-mənfi fakultativ anaerob çubuqşəkilli kapsulvari hərəkətsiz bakteriyalar-red.) və pseudomonas aeruginosa (qram-mənfi, aerob, hərəkətli, çubuqşəkilli bakteriyalar-red.) ilə yoluxma ilə əlaqədardır.

Kasıb və zəngin bölgələr arasında kəskin fərqlər xüsusilə diqqəti cəlb edir.

Afrikasınnın cənubundakı ölkələrdən Saharaya qədər bakterial infeksiyalardan hər 100.000 nəfərə 230 ölüm qeydə alınıb. Müqayisə üçün qeyd edək ki, Qərbi Avropa, Şimali Amerika və Avstraliyada bu rəqəm 52-yə uyğundur.

Müəlliflər yeni peyvəndlər də daxil olmaqla, maliyyənin artırılmasına, həmçinin antibiotiklərin əsassız istifadəsinə qarşı ehtiyatlı olmağa çağırıblar. Əllərin yuyulması əsas profilaktik tədbir kimi qeyd edilib.

**Eminquey**

## Fotoqraf: "böyüklər şəkillərdə rola girirlər, uşaqlar isə yox"

***Doğru deyiblər, insan göydə Ay kimidir. Görünməyən tərəfləri var. İncəsənətə bağlı insanlar isə adi peşə sahiblərindən tamamilə fərqlənirlər. Onlar üçün insanın kədəri də, sevinci də, sevgisi də, ayrılığı da məhz fotolarda yaşayır. Hələ operatorun video-lentində yaşayan insan ömrünü demirəm Bütün bunlar xatirələrdir. Xatirələr isə insan yaşantılarının arxivə köçmüş formasıdır. Bu günki həmsöhbətimiz gənc fotoqraf Orxan İsmayılov da insan yaşantılarını şəkillərdə və videolentlərdə yaşatmağı bacaran insanlardan biridir.***

**-Foto sənəti maraqlı sənətdir, həm də olduqca zaman alır...**

- Doğru buyurdunuz, əlbəttə çox maraqlı sənətdir. Ancaq maraqlı olduğu qədər də həm məsuliyyət, həm də əmək sevən sənətdir. Bu sənəti davam etdirmək üçün gərək ki, bu sənəti sevəsən. Bəzən elə olur ki, bir kadr üçün bir gününü sərf edirsən. Bu işə səbrlə yanaşmalısan. Fotoqrafiya sənəti ümumiyyətlə səbrli olmağı sevən peşədir.

**-Heç olubmu çox maraqlı məqamlar diqqətinizdən yayınıb?**

- Xeyr, deməzdim ki, çəkiliş vaxtı belə bir vəziyyətlə rastlaşmışam. Ancaq digər vaxtlarda çox maraqlı məqamlar olub ki, fotoapratım yanımda olmadığı üçün həmin məqamı çəkə bilməmişəm. Bu isə qətiyyən həmin məqamı gözdən yayındırmaq deyil. Sadəcə dediyim ki fotoaparatsızlıqdan olub.

**-Foto-çəkilişlərinizdə daha çox uşaqlarla işlədiyinizi görürük. Onlarla işləmək üçün səbrli olmaq lazımıdr?**

-Bəli elədir ki, var. Mənə uşaqların şəklin çəkməyi daha çox sevirəm. Çünki uşaqlar şəkillərdə özləri kimi təbii olurlar. Böyüklər kimi rola girmirlər. Əslində, çox səbrsiz insanam. Ancaq uşaqlarla işləyəndə səbrsizliyimi unuduram. Onların saflığı, təbii davranışları mənə bütün problemləri unutdurur.

**- Fotolar var ki, kədərlidir, fotolar var ki, xoş günlərin nişanəsidir Çəkdiyiniz fotolarda mütləq ki, bu məqamlar öz əksini tapır...**

-Əslində foto çəkilən zaman onun o qədər də dəyəri olmur. Lakin zaman keçdikcə həyatımızda elə hadisələr baş verir ki, həmin çəkilən fotoların dəyərini analyırıq. Yaxşi ki, bu şəkil var imiş, deyirik. Dünya fanidir, zaman- zaman sevdiklərimizi itiririk. Onları yalnız fotolarda və video-lentlərdə xatırlayırıq. Keçmişimizi görmək istəyəndə (sevincli və ya kədərli günlər fərq etməz) fotolara üz tuturuq.

**-Bu qədər maraqlı peşənin mütləq ki, yadda qalan anları olur. Çəkiliş zamanı maraqlı hadisələr olurmu?**

-Əlbəttə fotoqrafiya kimi maraqlı sənət olsun və orda maraqlı hadisələr olmasın? Bu, mümkün deyil *(gülür).* Dediyim kimi bu sənət diqqət və səbr sevir.



Xüsusilə əgər çəkilişdə xanım varsa. Xanımlar heç vaxt fotolarda özlərini bəyənmirlər (gülür). Bəzən bir kadr çəkəcəyim halda 5 - 6 eyni kadr çəkməyə məcbur oluram *(gülür).*

**-Fotoqraf Orxan İsmayilov üçün ən əziz foto kimin fotosudur?**

- Mənim üçün ən əziz foto məni dünyaya gətirən, ancaq özü dünyada olmayan anamın fotosudur. Şükürlər olsun ki, ürəyimdə və fotolarda yaşatdığım anamın adını daşıyan qızım var. O da böyüdükcə nənəsini məhz həmin fotolardan tanıyacaq.

**-Hər kəsin yaşadığı sevincli anları şəkillərdə donduran Orxan bəy öz şəklini çəkməyi kim(lər)ə etibar edir?**

-Deyərdim ki, fotoqraflar bu mövzuda heç də şanslı deyillər. Hər zaman kadr arxasında olduğumuz üçün tarixin yaddaşına demək olar ki, çox az fotomuzla köçürük. Şəkil çəkməyi sevdiyim qədər, çəkdirməyi sevmirəm.

**-Çəkmək mümkün olsaydı həyatın hansı anlarının fotosunu çəkərdiniz?**

- Əgər çəkmək mümkün olsaydı qayıdıb uşaqlıq illərimin şəklini çəkərdim. Ailəmin şəklini çəkərdim. Çünki ailəmizin birlikdə şəkli yoxdur. İndiki uşaqlar bu barədə son dərəcə şanslıdırlar. Texnika inkişaf edib və onların hər anını lentə almaq olur. Ancaq bizim uşaqlıq illərimiz bu barədə heç də şanslı olmadı.

Birdə axı hardan bilmək olardı ki, birlikdə ailəsinin şəkli olmayan bir uşaq böyüyəndə fotoqraf olacaq...

**-Musiqi və Fotoqrafiya. Bu iki peşə ilə məşğul olmaq sizi yormur?**

-Mən daha çox incəsənətə meyilli insanam. Hələ məktəbli olarkən rəsm çəkməyi sevərdim. Məktəbdə divar qəzetləri hazırlayırdım. Hər hazırladığm divar qəzeti üçün fəxri fərmanlarla təltif olunurdum. Sonra musiqiyə marağım artdı. Musiqi məktəbində 5 il təhsil alandan sonra musiqi təhsilimi 4 il də musiqi kollecində davam etdirdim. Tələbəlik illərində video-operatorluqla məşğul olurdum.

Deyərdim ki, 11 ildir operatorluqla məşğulam. Son 6 ildə fotoqrafiyaya marağım artdı. İlkin vaxtlarda fotoqrafiya ilə hobbi kimi məşğul olurdum. Sonralar bu həvəskarlıq peşəkarlığa çevrildi. Hazırda hər iki sənətimi davam etdirirəm. Yəni həm video, həm də foto sənətini. Baxmayaraq ki, musiqi kollecini fərqlənmə diploma ilə bitirmişəm, ancaq ixtisasım üzrə artıq neçə ildir çalışmıram.

**-Sizə uğur gətirən fotonuz olubmu?**

- Bəli, çox olub. Foto yox, hətta fotolar deyərdim. Bu işdə məni insanların işimdən zovq almağı daha çox düşündürür, nəinki maddiyyat. Ona görə də bu işdən anlayışı olan zövqlü insanlarla işləməyi sevirəm. Çünki elə insanlar yaxşı ilə pisi fərqləndirməyi bacarırlar.

**Əntiqə Kərimzadə**

## "Finalda qazan!" qaliblərinə hədiyyələr verildi

**30 ildir ki, bir klassikaya çevrilən "Final" çayı tərəfindən təşkil edilən lotereya çərçivəsində 1-ci tirajın qaliblərinə Samsung M52 smartfonları təqdim edilib.**

Adalet.az xəbər verir ki, bu məqsədlə məşhur aparıcı İlkin Həsəninin təqdimatında "Park Bulvar"da təşkil edilən konsert proqramı böyük maraqla qarşılanıb. Sevilən müğənni Ayaz Babayevin ifaları tədbirə əlavə rəng qatıb. Həmçinin tədbirdə müxtəlif müsabiqələr təşkil edilib və qaliblərə hədiyyələr verilib. Xatırladaq ki, "Finalda qazan!" lotereyasının 2-ci tirajının keçirilməsinə cəmi 2 GÜN qalıb. 1 dekabr tarixində baş tutacaq lotereyada 3 ədəd Volkswagen Polo avtomobili, 60 ədəd Samsung markalı M52 smartfonu oynanılacaq. Lotereyaya qoşulmaq üçün 450 və 225 qramlıq "Final" çay qutularının altındakı şifrəni ad, soyad və yaşayış yerinizlə birlikdə Azercell və ya Bakcell nömrələrindən 6625-ə SMS olaraq göndərməyiniz kifayətdir. 450 qramlıq çaylardan alan hər kəs 5 dəqiqə, 225 qramlıq alan 3 dəqiqə şəbəkədaxili pulsuz danışıq vaxtı qazanacaq.




## *Səhnə teatrının "Qurd Əfsanəsi" tamaşası festivalda 3-cü yerə layiq görülüb*




**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Teatro.az sənət portalının birgə təşkilatçılığı ilə həyata keçirilən "4.4 Qısa tamaşalar" festivalı başa çatıb.**

Festivalda Səhnə teatrının "Qurd Əfsanəsi" mono tamaşası 3-cü yerə layiq görülüb. "Qurd əfsanəsi" tamaşası dilindən və dinindən asılı olmayaraq yer üzündə müəyyən sərhədlər daxilində yaşayan insanlara yardım edən, Tanrının göndərdiyi ilahi qüvvə kimi təqdim edilir. Tanrı Göğ Qurdu şər qüvvələrə qarşı apardığı mübarizədə İnsana kömək etmək, yol göstərmək üçün səmadan yer üzünə göndərir... " O qurd yenə gəldi, bizi qələbəyə aparan yolu göstərdi və xalqımız zəfər qazandı və ucadan səsləndi: Türkə toxunmasan o sənə toxunmaz! Türkə düşmən olma, Türklə dost ol! Yolumuz Turan yoludur!" tamaşanın tamaşaçılarda yaratdığı əsas hisslərdən biri də məhz budur. Mono tamaşanın müəllifi Xaqani Əliyev, quruluşçu rejissoru Namiq Ağayevdir. Səhnə əsərində "Şaman" obrazında aktyor Vüsal Rzasoy oynayır. Qeyd edək ki, festivalda birinci yerə pontamim teatrının "Şinel" tamaşası, ikinci yerə isə Gənc Tamaşaçılar Teatrının "İnanıram" tamaşaları layiq görülüb.

**Eminquey**

## *Aktyorun hamı heyran edən qızı*



**Müğənni Xatun Əliyevanın oğlu Adilin toyunda iştirak edən məşhurlardan biri də Əməkdar artist Əkbər Əlizadə olub.**

Adalet.az xəbər verir ki, aktyor toya pul salan zaman kamerlara tuş gəlib. Həmin vaxt Əlizadənin yanında böyük qızı da olub. Əkbər ilk dəfədir ki, övladı ilə birgə toya qatıldığını bildirib.

Aktyorun qızı gözəlliyi ilə hər kəsi heyran edib.

Əməkdar artistin qızı ilə görüntülərini jurnalist Yalçın Uğur yayıb.

Qeyd edək ki, Əkbər Səbinə adlı xanımla 2004-cü ildə ailə həyatı qurub. Cütlüyün iki qız, bir oğul övladı var.

## *Baba Vəziroğlunun qardaşından gözlənilməz addım*



**Xəzər TV-nin efirində gərginlik yaranıb. Adalet.az xəbər verir ki, "Təsir dairəsi" verilişində qalmaqal baş verib.verilişdə ekspert qismində əyləşən Anar Vəziroğlu və vəkil Şəfiqə Nağıyeva arasında anlaşılmazlıq yaşanıb.Anar Vəziroğlu "Bu qadında ləyaqət yoxdur" deyərək, Şəfiqə Nağıyevanın üstünə su atıb.**

Sözügedən hadisədən sonra ekspert proqramdan uzaqlaşdırılıb. Qeyd edək ki, Anar Vəziroğlu Əməkdar incəsənət xadimi Baba Vəziroğlunun qardaşıdır.

**Əntiqə Kərimzadə**

## *Meymun olasan, bəxtin ola*



**Taylandın Lopburi şəhərində ənənəvi olaraq keçirilən festivalda meymunlar üçün möhtəşəm süfrə açılıb. 2 ton meyvə və tərəvəzdən ibarət bufet ziyafətinə minlərlə meymun axın edib. Turistlərin də böyük marağına səbəb olan tədbirdə maraqlı anlar yaşanıb.**

Adalet.az-ın məlumatına görə, Tailandlı iş adamının rəhbərliyi altında 2 ton meyvə-tərəvəzdən ibarət yemək turistlərin və yerli əhalinin köməyi ilə meymunlar üçün xüsusi olaraq hazırlanıb. Yeməyə hücum edən meymunlar, hazırlanan 2 ton yeməyi saniyələr içində yeyib. "Meymun Açıq Bufet Festivalı" adlanan tədbir turistlər arasında böyük marağa səbəb olub. Tədbir 34 ildir ki, noyabrın son bazar günü Lopburi şəhərindəki qədim məbədin ətrafında keçirilir. İlk dəfə 1989-cu ildə keçirilən festivalda makaka meymunlarına yemək verilib.

**Eminquey**

## *AFFA bu klubları cərimələdi*

**AFFA İntizam Komitəsi növbəti iclasını keçirib. Qol.az xəbər verir ki, Misli Premyer Liqasının 15-co turunda keçirilən matçlardakı qayda pozuntuları barədə qərarlar verilib.**

Misli Premyer Liqasının 15-ci turunun "Neftçi" - "Səbail" oyununda qonaq komandanın 4 oyunçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə edilib. Misli Premyer Liqasının 15-ci turunun "Şamaxı" - "Kəpəz" oyununda meydan sahiblərinin 5 oyunçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə edilib

"Kəpəz"in 6 oyunçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə edilib.

Kərimov Elnur Xudaverdi oğlunun adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən ayrılmış 200 kvadratmetr torpaq sahəsinin Qərarı itdiyi üçün etibarsız sayılır.

***

Qəhrəmanova Mənsurə Hacabas qızının adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən ayrılmış 550 kvadratmetr torpaq sahəsinin Qərarı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 107
Çapa imzalanmışdır: 02.12.2022